www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 dekabr 2016-cı il Cümə № 286 (6607) Qiyməti 60 qəpik

**Xəbər**

## Prezident işıq və qazla bağlı limiti artırdı

yazısı səh.2-də

**Gündəm**

### Ermənistanın "İsgəndər"inə Bakıdan "İldırım"lı cavab



Ali Baş Komandanın tapşırığı ilə "İldırım" zenit-raket kompleksləri hazırlıq vəziyyətinə gətirildi və döyüş atışları icra edildi; ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin "Kölgə"si olan "Stratfor" mərkəzi yeni müharibə xəbərdarlığı etdi

yazısı səh.11-də

### Putinin yanında, yoxsa qarşısında olmaq təhlükəlidir?

yazısı səh.4-də

### Amerika bu dəfə də Güləni Türkiyəyə verməzsə...

yazısı səh.8-də

### Qatilin göyə qalxan barmağı- əl işarələri və onların verdiyi mesajlar

yazısı səh.10-da

### "8 min manatla partiya saxlamazlar" fikrinə müxalifətdən reaksiyalar

yazısı səh.3-də

### 2016-cı il dəyərləndirməsi iki düşərgəni üz-üzə qoydu

yazısı səh.6-da

### Azərbaycanın tələb etdiyi israilli bloggerlə bağlı müəmma

yazısı səh.8-də

### Taxıl idxalının gizlinləri: hər tondan 1 manat qazanırlar

yazısı səh.3-də

### Azərbaycanın dollardan imtinası yenə gündəmdə

yazısı səh.13-də

### Azyaşlıların dəhşətli intihar statistikası

yazısı səh.14-də

### İŞİD-in ölkəmizi hədəf seçməsinin pərdəarxası

yazısı səh.9-da

## Düşmən ölkənin rejim başçısı çıxılmaz durumda

# SƏRKİSYANA ABŞ-DAN ZƏRBƏ-SÜLH PROSESİ DƏ ONUN SONUNU GƏTİRİR

Ruhaninin İrəvan səfəri ərəfəsində erməni diasporunun fəal üzvü Bakı platformasına qoşuldu; Tehran isə Qarabağ məsələsində növbəti riyakarlığa imza atdı - İran prezidenti Bakıda söylədiyini İrəvanda bəyanlamağa cürət etmədi



yazısı səh.9-da

## Oliqarxların Bakıda gəzən "avto-terrorçuları"

Paytaxtda avtobus sürücülərinin törətdikləri qəzalar hər gün bir neçə insan ömrünü yarı yolda qoyur; deputat da təcili tədbirlər görülməsini istəyir

yazısı səh.10-da



### Şeyx ölkədən çıxdı-gələn il qayıdacaq

yazısı səh.7-də



*Hikmət Hacızadə:*

### "O vaxt səfir öldürmək dəbdə deyildi"

yazısı səh.7-də



### "Altıntaşın gizlətdiyi sirr-155 lirə, 70 güllə...

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

# Prezident işıq və qazla bağlı limiti artırdı

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, dekabrın 22-də Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının növbədənkənar iclası keçirilib.**

AzərTAc xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə açıqlamasında deyib.

Nazir bildirib ki, iclasda Tarif Şurasının noyabrın 28-də keçirilmiş iclasında təbii qaz və elektrik enerjisinin satışı tarifləri ilə bağlı edilən müvafiq tarif tənzimləmələrində dəyişikliklər aparılıb: "Təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcminin 1500 kubmetrdən 1700 kubmetrə artırılıb və 20 qəpik müəyyənləşdirilib. Elektrik enerjisi aylıq istehlak həcmi 250 kilovat-saatdan 300 kilovat-saatadək artırılıb və 11 qəpik müəyyənləşdirilib.



# Prezident İlham Əliyev BP prezidentini qəbul edib

**Prezident İlham Əliyev BP şirkətinin prezidenti Robert Dadlini qəbul edib. APA-nın məlumatına görə, görüşdə Azərbaycanla BP şirkəti arasında uzun illər uğurlu və qarşılıqlı faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.**

Görüş zamanı 2024-cü ildən sonra "Azəri-Çıraq-Günəşli" yatağının işlənilməsi ilə bağlı məsələlər müzakirə edilib. Qeyd edilib ki, bu yatağın gələcəkdə işlənilməsində xarici şirkətlər maraqlıdırlar. Yatağın gələcəkdə uğurla işlənilməsi xarici şirkətlər tərəfindən çoxmilyardlı investisiyaların davam etdirilməsi, böyük həcmdə əlavə neft hasilatı, qarşıdakı illərdə də çoxsaylı yeni iş yerlərinin açılması üçün imkanlar yaradacaq.

Görüşdə həmçinin "Cənub" qaz dəhlizinin yaradılması və "Şahdəniz-2" layihəsi ilə bağlı aparılan işlərdə əldə edilmiş irəliləyiş, BP şirkətinin "Şəfəq-Asiman" blokunda, Abşeron yarımadasının dayazsulu hissəsində həyata keçirdiyi işlər və BP-nin Azərbaycanın neft-qaz sənayesinin inkişafında iştirakının perspektivləri ilə bağlı məsələlər ətrafında da müzakirələr aparılıb.

# Azərbaycan-Türkiyə siyasi məsləhətləşmələri

**Bakıda Azərbaycan-Türkiyə XİN-lərarası siyasi məsləhətləşmələrin növbəti mərhələsi keçirilib. Virtualaz.org XİN-in mətbuat xidmətinə istinadən bildirir ki, məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini Xələf Xələfov, Türkiyə tərəfini isə xarici işlər nazirinin müavini (müstəşar) Ümit Yalçın təmsil edib.**

Görüş əsnasında iki ölkə arasında əlaqələrin qardaşlıq və dostluq prinsiplərinə əsaslanaraq bütün sahələrdə yüksələn xətlə inkişafı vurğulanıb, bu əlaqələrin yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, eyni zamanda beynəlxalq təşkilatlar səviyyəsində, hər iki ölkənin maraqlarına cavab verən şəkildə həyata keçirildiyi önə çəkilib.

Son zamanlar Türkiyədə baş verən hadisələrin Azərbaycanda böyük narahatlıqla izləndiyi, bu hadisələrin Türkiyənin daxili və xarici siyasətindəki stabilliyin pozulmasına yönəldiyi ilə bağlı narahatlığımız dilə gətirilib, terrorun bütün forma və təzahürlərinin qınanıldığı, Azərbaycanın Türkiyəyə daim dəstək verdiyi və onun yanında olduğu bildirilib. Türkiyə və türk xalqının bu çətinlikləri tezliklə dəf edəcəyi və tarixin bu sınağından qalibiyyətlə çıxacağına birgə əminlik ifadə edilib.

İki ölkə arasında çoxtərəfli əsasda birgə fəaliyyətin və qarşılıqlı dəstəyin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli istiqamətində birgə səylərin artırılmasına diqqət çəkilib.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Bakıda ikinci dairəvi avtomobil yolu tikiləcək

**Bakıda ikinci dairəvi avtomobil yolunun tikintisi planlaşdırılır. "Trend"in məlumatına görə, bu Bakı ərazisinin zonalaşdırılması və istifadəsi planında nəzərdə tutulub.**



Yeni dairəvi yol Bakı-Sumqayıt yolu ilə birləşdiriləcək.

Plana əsasən, yolun tikintisi şəhərin şimal zonası ərazisində planlaşdırılır. Bu layihənin mərkəzi Maştağa qəsəbəsi olacaq. İnkişaf planına uyğun olaraq, Maştağada "Sakit şəhər" (Slow city) konsepsiyasının reallaşdırılması nəzərdə tutulur.

Bundan başqa, Maştağa qəsəbəsində kənd bazarının yaradılması təklif olunur.

Qeyd edək ki, Bakının zonalaşdırılması planına əsasən, Bakı və Abşeron 9 zonaya bölünəcək. Plan ümumi sahəsi 248 min hektar olan ərazini əhatə edir.

Ümumilikdə, 2035-ci ilədək planın icra olunması dəyəri 283,97 milyard manat həcmində ölçülür.

## Rayonlarda şaxta olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən xəbərə görə, dekabrın 23-də havanın temperaturu Abşeron yarımadasında gecə 3 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, Bakıda gecə 0 dərəcəyə yaxın, gündüz 6-8 dərəcə isti olacaq.**

Atmosfer təzyiqi normadan yüksək 777 mm civə sütunundan 771 mm civə sütununa enəcək, nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, Lənkəran -Astara zonasında arabir çiskinli olacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1-6 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti, dağlarda gecə 6-11 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək olacaq.

Tibbi-meteoroloji proqnoza görə isə dekabrın 23-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur şəraiti fonunda mülayim qış havası meteohəssas insanlar üçün əsasən əlverişlidir. Dekabrın 24-də atmosfer təzyiqinin enməsi fonunda arabir güclənən gilavar küləyi bəzi insanlarda narahatlıq yarada bilər.

## SSRİ dövründə tikilmiş 1-2 mərtəbəli binalar sökülləcək

**SSRİ dövründə Bakıda "Xruşovka" üslubunda inşa edilən yaşayış binaları müəyyən müddətdən sonra söküləcək bilər.**

Bunu jurnalistlərə açıqlamasında Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov deyib.

"Bakıda pilot layihələr çərçivəsində insanların yaşayış şəraitinin yaxşılaşdırılması və şəhərin görünüşünə ciddi xələl gətirən binaların köçürülməsi nəzərdə tutulub. Bu, əsasən 1-2 mərtəbəli binalardır. ("Report"). "Xruşovka" üslubunda tikilən yaşayış binaları isə müəyyən müddətdən sonra söküləcək bilər. Lakin pilot layihə çərçivəsində ilk olaraq həyat üçün təhlükəli olan azmərtəbəli binaların köçürülməsi planlaşdırılır. Bu proses hazırda Bakının dəmək olar ki, bütün rayonlarında həyata keçirilir", - deyə İ.İsbatov bildirib.

## Azərbaycandan spirtli içkilərin ixracı azalıb

**Bu ilin yanvar-noyabr ayları ərzində Azərbaycandan spirtli içkilərin ixracında mənfi illik dinamika müşahidə edilib. Dövlət Gömrük Komitəsindən verilən xəbərə görə, 2016-cı ilin ilk 11 ayında 16748,16 min ABŞ dolları dəyərində spirtli və spirtsiz içki ixrac edilib ki, bu da 2015-ci ilin müvafiq dövrünə nisbətən 7946,2 min dollar yaxud 32,18% azdır.**

Hesabat dövründə spirtli və spirtsiz içkilər ümumi ixracın 0,2%-ni təşkil edib.

Komitədən bildirilib ki, təhlil olunan dövr ərzində Azərbaycana ümumilikdə 54401,49 min dollar məbləğində spirtli və spirtsiz içkilər, həmçinin sirkə idxal edilib. Bu isə 2015-ci ilin analoji dövrü ilə müqayisədə 4328,28 min dollar və ya 7,37% azdır. Nəticədə, bu məhsulların ölkənin ümumi idxalında payı 0,71% təşkil edib.




## II Avropa Oyunlarında idmançıların yol xərcini təşkilatçı ölkə ödəməyəcək

**II Avropa Oyunlarının açılış mərasiminin keçiriləcəyi yer müəyyənləşib. Apasport.az saytının məlumatına görə, 2019-cu ildə Belarusda təşkil olunacaq yarışa Minskin "Dinamo" stadionunda start veriləcək.**

Bunu Minsk meri Andrey Şorets açıqlayıb.

Belarusun idman və gənclər naziri Aleksandr Şamko isə paytaxtının Avropa Oyunlarına hazırlığına böyük xərclərin tələb olunmadığını vurğulayıb: "Biz onsuz da planlarımızda olan infrastrukturu yekunlaşdırmalıyıq. Məsələn, "Dinamo" stadionunun rekonstruksiyası 2017-ci ili sonunda başa çatmalıdı. Ümumilikdə, yarışlar tək Minskdə deyil, şəhərdən kənarda da keçiriləcək. Paytaxt 12-14 idman növünə ev sahibliyi edəcək. Bunlar arasında avarçəkmə, döyüş növləri, bədii gimnastika və batutdan tullanma kimi növlər olacaq. Rəqəmlər, kəmiyyət dalınca qaçmayacağıq. Əsas keyfiyyət yarışın ürəklə təşkil olunmasıdır".

**Şamkonun sözlərinə görə, idmançıların bütün yol xərclərini Avropa Olimpiya Komitəsi öz üzərinə götürəcək:** "Teleyayımla isə milli, beynəlxalq və Avropa olimpiya komitələrinin birgə layihəsi olan yeni televiziya məşğul olacaq. Xərclərin bir qismi qitə qurumunun üzərinə düşəcək. Ümumilikdə isə bu məbləğ 30-40 milyon edəcək".

Qeyd edək ki, ilk Avropa Oyunları Bakıda keçirilib.

## Keçmiş aptek müdiri böyrəyini satır - oğlunun əməliyyat pulu üçün

**43 yaşlı Beyləqan sakini Xalid Pəsiyev böyrəyini satır. Bununla bağlı redaksiyamıza müraciət edən X. Pəsiyevin sözlərinə görə, 10 yaşlı oğlunun xəstəliyi onu bu cür addım atmağa vadar edib: "Oğlum yerimir, anadangəlmə problemləri var. Həkimlər bildirirlər ki, xaricdə əməliyyat olunsa nəticə verər. İrana və digər yerlərə müalicələrə aparmışam.**

Lakin müəyyən nəticələr olsa da sağlamlığında hələ ki ciddi dəyişikliklər yoxdur. Artıq uzun müddətdir ki, böyrəyimi satmağı düşünürəm. Bəzi dostlara da demişəm ki, böyrəyimi satmaqda mənə köməklik etsinlər. Sizin qəzetdə mərhum xalq artisti Eldəniz Zeynalovun oğlu üçün təcili donor axtarılması ilə bağlı yazını oxudum. Onların ailəsinə bu barədə müraciət etdim, lakin hələ ki mənə dəqiq bir söz deməyiblər. Mən isə oğlumun əməliyyatı üçün bu məsələni tezləşdirmək istəyirəm, bunun üçün redaksiyanıza müraciət etdim".

**Xalid Pəsiyevin sözlərinə görə, ixtisasca əczaçıdır, bundan əvvəl aptek müdiri işləyib. Lakin hazırda Bakıda fəhlə işində çalışır, maddi durumu isə ürəkaçan deyil:**

"Oğlumun vəziyyəti məni çox narahat edir. Fikirləşirəm ki, bir böyrəklə də yaşaya bilərəm. Maddi imkansızlıqdan bu cür addım atmağa məcburam".

❑ **Xalidə GƏRAY**

## Binədə evləri su basıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının dəstə rəisi Rafiq Həsənovun APA-ya verdiyi məlumata görə, Binə qəsəbəsində "Bakavtomat" zavodunun yaxınlığında qrunt sularının səviyyəsi qalxıb, nəticədə torpaq sahələri, onlarla evin həyətyanı sahəsi və zirzəmiləri su ilə dolub.**

"Son aylar yağan intensiv yağışlardan sonra qrunt sularının səviyyəsinin qalxması və ətraf ərazilərin su ilə basılması müşahidə olunub. Ərazidə drenaj-kanalizasiya sistemi olmadığından bu hadisə baş verib. Elə yer var ki, suyun hündürlüyü yer səthindən təxminən 25-30 sm-ə qalxıb. Onlarla ev suyun içində qalıb", - deyə R. Həsənov qeyd edib.

Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənən mülayim cənub küləyi ilə əvəz olunacaq.

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

**Azərbaycan kənd təsərrüfatının stimullaşdırılmasını qarşıya məqsəd qoysa da, heç strateji məhsul olan taxılın idxalından qurtula bilmir. Ölkə taxıla olan tələbatını yerli istehsal hesabına ödəyə bilmir, bu, azmış kimi, xaricdən gətirilən buğdanın da keyfiyyət problemi müzakirə edilir. Həmçinin yerli istehsalın da keyfiyyətsiz olduğu vurğulanır. Ekspertlər musavat.com-a bunun səbəblərdən danışıblar.**



# Taxıl idxalının gizlinləri: hər tondan 1 manat qazanırlar

## Vahid Məhərrəmov: "Bu gün hökumət strukturlarında elə adamlar var ki, onlar ölkəyə daha çox buğda idxalında maraqlıdırlar"

**Natiq Cəfərli bildirib ki, taxıla olan tələbatımızı ödəyə bilməməyimiz ciddi səbəblərlə bağlıdır:** "Birinci səbəb keyfiyyət məsələsidir. Azərbaycanda aqrar sahəyə uzun müddətdir ki, ciddi diqqət yetirilmir. Nə kultivasiya, becərmə, nə əkilən taxıla xidmət məsələsində irəliləmə yoxdur. Keyfiyyətli məhsulun becərilməsi məsələsində problemlər var. Azərbaycanda istehsal olunan taxılın keyfiyyət dərəcələri çox aşağıdır. Azərbaycanda istehsal olunan taxıldan çörək bişirmək, un məmulatları hazırlamaq mümkün olmur. Bu səbəbdən ya Qazaxıstandan, ya Rusiyadan, bir qədər də Ukraynadan alınmış taxılla qataraq müəyyən dərəcədə keyfiyyəti yüksəltməyə çalışırlar. Əsas məsələ Azərbaycanda artıq keyfiyyətli taxılın istehsalıdır. Bunun üçün yeni sort toxumlar ölkəyə gətirilməli, yaxşı aqrotexniki xidmət göstərilməlidir. Kimyəvi qulluq yüksək səviyyədə olmalıdır, keyfiyyətli gübrələr alınmalıdır. Aqrotexnika yaxşı işlədilməlidir. Bir çox sahələrdə biz işimizi daha yaxşı və daha keyfiyyətli qurmalıyıq ki, Azərbaycanda istehsal olunan taxıl keyfiyyət dərəcələrinə cavab versin və Azərbaycanın öz taxılından un və çörək məmulatları almaq mümkün olsun. İndi hələlik bu, mümkün deyil. Hazırda xarici taxıl çox olmaqla, 70-in 30-a nisbətində qatılmaqla, nisbətən normal məhsul ortaya çıxarılır. Getdikcə bu rəqəm Azərbaycanın xeyrinə dəyişməlidir. Bunun üçün ciddi addımlar atılmalıdır. Kifayət qədər görüləcək işlər var. Bu, böyük zaman da alacaq. Bu zaman kəsiyində də biz xaricdən aldığımız taxıla möhtac olacağıq".

**Ekspert Qubad İbadoğlu isə musavat.com-a bildirib ki, taxılı xaricdən almağımızın səbəbləri çoxdur:** "Ən ciddi səbəb pis idarəçilikdir. Xüsusilə aqrar siyasətlə bağlı... Azərbaycan özünü bu strateji məhsulla təmin etmək imkanına malik deyil. Buna aqrar siyasət təsir göstərir. Rəsmi statistikada açıqlanan kimi gerçək istehsal yoxdur. Mövcud istehsal keyfiyyətinə görə tələbatı tam ödəmir. Taxıl istehsalı gəlirli, mənfəətli bir sahədir. Bu sahədə inhisarçılıq var, monopoliya var. Azərbaycanda yeni sort, daha məhsuldar taxıl yetişdirilməsi istiqamətində imkanlar var. Amma təəssüf ki, həm aqrotexniki, həm digər səbəblərdən onu biz təşkil edib ortalığa lazım olan səviyyədə çıxara bilmirik".

Qeyd edək ki, ekspertlər ölkənin ərzaq buğdasının tamamilə idxaldan asılı olduğunu vurğulayırlar. Bildirilir ki, ölkədə məqsəd taxılı yetişdirmək, becərmək deyil, məqsəd dotasiyadan bəhrələnməkdir. Yəni istehsal etdiyimiz taxıldan əslində heç yemək üçün istifadə edilmir. Xaricdən hər il təxminən 1 milyon 500 min ton buğda idxal edirik, 1 milyon 800 min ton da özümüz istehsal edirik. Bunlar üst-üstə 3 milyon 300 min ton taxıl edir. Azərbaycanın istehlakı, tələbatı təxminən 1 milyon 300 min tondur. Əgər xaricdən bu qədər taxıl idxal ediriksə, bizim özümüz istehsal etdiyimiz taxıldan yemək kimi istifadə etmirik, xaricdən aldığımız taxılın hesabına yaşayırıq. Ekspertlər qeyd edirlər ki, bu, ərzaq təhlükəsizliyi ilə bağlı olan bir məsələdir və bunun məsuliyyəti Kənd Təsərrüfatı Nazirliyinin üzərindədir. Yəni indiyədək bu sahəyə ayrılan milyonlarla manatlıq dövlət yatırımlarına baxmayaraq, aqrar sektorda keyfiyyətli buğda yetişdirmək mümkün olmayıb. Əsas səbəb odur ki, fermerlərin maddi-texniki təchizatı yetərincə deyil. Bu da kompleks yanaşmanın olmamasının nəticəsidir.

**Kənd təsərrüfatı eksperti Vahid Məhərrəmov isə azadliq.org-a bildirib ki, hazırda Qazaxıstan və Rusiyadan Azərbaycana gətirilən buğda 4-cü, 5-ci sinif buğdadan, yəni yemlik məhsuldan da keyfiyyətsizdir:** "Bu gün hökumət strukturlarında elə adamlar var ki, onlar ölkəyə daha çox buğda idxalında maraqlıdırlar. Təsəvvür edin, hər il 1 milyon 400 min ton buğda gətirilir. Hər tonundan 1 manat qalırsa, görün, bu, nə qədər vəsaitdir. Heç bir əziyyət çəkmədən, heç bir problemi düşünmədən, bunun həlli ilə bağlı heç bir addım atılmadan, kabinetdə oturub milyonlarla vəsaitə sahib olursan. **ƏDV-nin ləğv edilməsi inhisarçı məmurlara sərf edir". Onun fikrincə, ƏDV-nin ləğvi hökumətin aqrar siyasətindəki çatışmazlıqlardan qaynaqlanır. ƏDV tətbiq etməklə, hökumətin əslində ölkədə taxılçılığın inkişafını stimullaşdırmaq istədiyini bildirən ekspert daha sonra deyir:** "Ancaq hökumətin bu siyasəti baş tutmadığından, dövlət büdcəsi ikitərəfli itkiyə məruz qalır. Hökumət, bir yandan, büdcəyə çatacaq 18 faiz həcmində vəsaitdən imtina edir, o biri yandan, məsələn, buğda yetişdirməyə subsidiya ayırır. Məsələn, ötən il buğda istehsalına 50 milyon manata yaxın subsidiya ayrılmışdı. Bu, hələ son deyil. Kənd təsərrüfatı torpaq vergisindən başqa bütün vergilərdən də azaddır. Bununla yanaşı, keçən il kənd təsərrüfatına toplam 180 milyon manatdan çox subsidiya verilib. Büdcə bu qədər vəsait itirsə də, vətəndaşlar keyfiyyətli çörəklə təmin olunmurlar".

❑ **Röya RƏFİYEVA**

# "8 min manatla partiya saxlamazlar" fikrinə müxalifətdən reaksiyalar



**İqbal Ağazadə:** "...Həmin partiyanın rəhbəri maliyyəni almır"



**Yadigar Sadıqov:** "Aya 1000 manata yaxın üzvlük haqqı yığsaq, özümüzü xoşbəxt hiss edərik"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev parlament partiyalarına ayrılan vəsaitin artırılmamasından şikayətlənib. Bu barədə yenicag.az-a açıqlama verən partiya sədri 2017-ci ildə maliyyə azlığı səbəbindən rəhbərlik etdiyi MDHP-nin fəaliyyətində tənəzzül olacağını, yerli təşkilatlarla işləmək imkanlarının məhdudlaşacağını bildirib.**

"Partiyamıza dövlət büdcəsindən ayda cəmi 8 min manat həcmində vəsait düşür. Bu da aylıq olaraq bütün partiya xərclərinə təbii ki, bəs etməz. Sadəcə olaraq, mərkəzi qərargahın saxlanılmasına xərclənir. Seçkilər, tədbirlər və digər məsələlərə isə bu vəsait yetmir"-deyə, F.Quliyev bildirib.

**Vaxtilə parlament partiyası olan Ümid Partiyasının sədri İqbal Ağazadənin deputatın fikirlərinə mövqeyi kifayət qədər maraqlı oldu:** "Ad çəkmək istəmirəm, parlamentdə elə bir partiya var ki, neçə dönəmdir parlamentdə təmsil olunan partiyalar maliyyələşəndə həmin partiyanın rəhbəri maliyyəni almır. Deyir ki, partiyam yoxdur. Hər kəs gücünə görə belə fikirlər deyir. Fərəc bəy belə deyirsə, partiyasının gücünə və maraqlarına uyğun şəkildə belə deyir".

**VİP sədri Əli Əliyev:** "Siyasi partiyaların maliyyələşdirilməsi üçün tərtib edilmiş qanunverici baza ölkədə siyasi sistemin inkişaf etdirilməsi üçün nəzərdə tutulmayıb. Bu qaydalar siyasi rüşvət mahiyyəti daşıyır. Paralel olaraq, süni ayrı-seçkilik yaradılması üçün həyata keçirilir. Hakimiyyət süni siyasi fəza formalaşdırmaqla, sistemin elementlərini orbitində saxlamaq üçün belə üsul seçib. Parlamentdə təmsil olunan nominal müxalifət də cəmiyyət tərəfindən hakimiyyətin əlavə orqanı sayılır. Lakin bu orqan rudimentar orqandır. Heç bir gücü və funksional əhəmiyyəti mövcud deyil. Belə şəraitdə siyasi fəaliyyətlə məşğul olmaq üçün ayrılan vəsait əlbəttə ki, yetərli deyil. Çünki kiçik məbləğlə etimadın olmadığı şəraitdə siyasi müxalifətçilik mümkün deyil. Ona görə də belə bəyanatlar səsləndirilir. Fərəc bəyin dediklərini başqa cür də şərh etmək olar: Bir halda ki, sizə dəstək veririk, normal pul ayrılsın. Mən onu anlayıram. Ən düzgün siyasət cəmiyyətlə etimadlı münasibətləri qoruyub saxlamaq, hakimiyyətin iradə ifadəçisi olmamaqdır".

**Müsavat başqanının müavini Yadigar Sadıqov üzvlük haqqı hesabına dolandıqlarını qeyd etdi:** "Fərəc Quliyevin partiyası necə böyükdür ki, ayrılan pulu çatdıra bilmir? Mənə elə gəlir ki, Müsavat Partiyası Azərbaycanda partiya şəklində fəaliyyət göstərən yeganə strukturdur, hətta Yap da daxil olmaqla. Çünki YAP-ın dövlətdə bir partiya kimi fəaliyyətini görmürük. Dövlətdən heç bir maliyyə yardımı almırıq. Ancaq üzvlük haqqı hesabına dolanırıq. Belə olan halda aya 1000 manata yaxın üzvlük haqqı yığa bilsək, həddindən artıq özümüzü xoşbəxt hiss edərik. Adətən biz xərclərimizi 500-600 manat məbləğində edirik".

❑ **Cavanşir ABBASLI**

# Bakıda təhlükəli virus yayılıb

## Həkimlər virusun əsasən tənəffüs yollarını zədələdiyini deyir

**Son günlər əhali arasında kəskin qrip xəstəliyi yayılıb. Bu narahatlıq daha çox qızdırma, qusma, bel və kürək nahiyəsində ağrılar, öskürəklə müşayiət olunur. Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım stansiyasının həkimi Namiq Muradov aile.lent.az-a bildirib ki, təkcə dekabrın 21-də bir stansiyaya 6 çağırış daxil olub ki, bunların 5-i qızdırma və qusma şikayəti ilə bağlıdır. Həkim onu da əlavə edib ki, son günlər bu cür şikayətlərlə gələn çağırışların sayı çoxdur.**

**Ailə həkimi Əsəd Həsənov** bunun virus xəstəliyi olduğunu bildirdi. Virus xəstəliyi mikroblara nisbətən daha sürətlə yayılmağa meyllidir. Yayılmanın səbəbi hava-damcı yoludur. Yəni xəstəlik mənbəyi xəstədir - o, nəfəs alır, asqırır, öskürür və virusları havaya yoluxdurur: "Xəstə ətrafdakıları yoluxdurmaqla yanaşı, öz bədənində də həmin virusları çoxaldır. Şəhər yerlərində viruslar sürətlə yayılır, rayon, kənd yerlərində isə yox. Çünki orada insanların bir-biri ilə təması şəhərdəki kimi sıx deyil. Böyük şəhərlərdə ictimai nəqliyyat, bizim metro, avtobuslarda sıxlıqlar çoxdur. İşə, məktəbə gedən zaman çox yaxın təmasda duranda bu virus başqalarına rahatlıqla keçir".

**Həkim virusun əsasən tənəffüs yollarını zədələdiyini deyib:** "Burundan əsnəklə bronxlara, oradan tənəffüs sisteminə yayılır. Bu, insan orqanizmi üçün yad maddədir. O yad maddə də insan orqanizminə zəhər kimi, yəni toksiki təsir edir və qızdırma, eyni zamanda yerli daxil olduğu yerdə iltihabi proses yaradır. Toksinlər də bədənə sorularaq kapillyar damarlara mənfi təsir edir, immun sistemini qıcıqlandıraraq temperatur yaradır".

**Həkim onu da bildirir ki, bu cür xəstəlik hallarında insanlar dərhal qızdırmanı salmağa çalışmamalıdırlar. Çünki hərarət salan həblər qəbul etdikdə immun sistemi işə düşmür. Bu isə xəstəliyi bir az da uzadır:** "Uşaqlarda isə bir az fərqlidir. Əgər uşağın hərarəti yüksəkdirsə və anadan olanda hər hansı bir nevroloji problemlə doğulubsa, məsələn, kəllədaxili təzyiqi, qıcolmaya meyllilik, belə hallarda uşağın qızdırması qıcolmaya səbəb ola bilər. Ona görə də uşağın hərarəti qalxdıqda onu salmalı və başqa müalicə üsulları tətbiq edilməlidir ki, uşaq xəstəlikdən ağır duruma düşməsin".



**Mütəxəssis virusların daha qorxulu olduğunu vurğulayır. Çünki viruslar mikroblara yol açırlar. Yüksək hərarət bir neçə gün davam edərsə, bu, artıq öskürək, bəlğəm əmələ gətirir. Bu isə prosesə ikinci bir xəstəlik törədən amilin - mikrobun qoşulduğuna siqnaldır:** "Virusla mikrob birləşir və xəstənin durumu pisləşir. Bunun fəsadları meningitə qədər gedib çıxa bilər, tənəffüs yollarında sətəlcəm, ağciyərlərdə iltihab, kəskin bronxit yarada bilər".

Ə. Həsənov xəstəlikdən qorunmaq üçün təmiz havada çox gəzməyi, əhalinin sıx olduğu yerlərdə mümkün qədər az olmağı və maskadan istifadə etməyi məsləhət görür.

Pediatr Vaqif Qarayev də son vaxtlar yayılan xəstəliyin qətiyyən qrip olmadığını deyib. Həkim bu virusdan qorunmaq və təhlükəsizlik tədbirləri məqsədi ilə ilk növbədə bağçaya, məktəbə gedən xəstə uşağın kollektivə buraxılmamasını məsləhət görür.

Bunlarla yanaşı, həkim profilaktik olaraq qorunmaq üçün uşaqlara eyni zamanda C vitamininin müxtəlif formalarını içirtməyi məsləhət görür.

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

**Dünya dövlətlərinin Rusiya ilə münasibətdə onun yanında, yaxud qarşısında olmaqla bağlı daim apardıqları tərəddüdlü siyasətin şahidi oluruq. Şimal qonşumuzun son illərdə apardığı məlum siyasət ölkə başçılarını Kremllə bağlı ehtiyatlı davranmağa vadar edir.**

# Putinin yanında, yoxsa qarşısında olmaq təhlükəlidir?

## Elxan Şahinoğlu: “Vladimir Putinlə düşmən olmağı kimsəyə arzulamıram”

Görünən odur ki, dövlət rəhbərləri Rusiya prezidenti Vladimir Putinlə nə müttəfiq, nə də düşmən olmaq istəyirlər. Çünki istənilən halda təhlükə yaşaya biləcəklərini yaxşı anlayırlar. Belə ki, müttəfiq olacaqları təqdirdə Amerika başda olmaqla, Qərbi qarşılarında görəcəklərini yaxşı anlayırlar, eyni zamanda düşmən olacaqları halda isə Putinin qisas alacağından ehtiyat edirlər. “Forbes” jurnalının keçirdiyi sorğuda 2016-cı il üzrə dünyada Putinin “İlin adamı” seçilməsi də təsadüf deyil. Onun bu sırada yer alması heç şübhəsiz ki, həm güclü, həm də təhlükəli siyasətçi olmasından irəli gəlir.

**Siyasi şərhçi Elxan Şahinoğlu Rusiya rəhbərinin qisas almağın yollarını bildiyini qeyd etdi:** “Vladimir Putinlə düşmən olmağı kimsəyə arzulamıram. Putin Amerikanın Suriyadakı planlarını ona görə pozdu ki, Vaşinqton onunla hesablaşmırdı. Trampın prezident seçilməsində də Putinin rolunun olduğuna dair müxtəlif iddialar var. Bunu təsadüf də saymaq olar, ancaq Putin Tramp-Klinton mübarizəsində ikincinin məğlubiyyətini istəyirdi və Kreml sahibinin arzuladığı və bəlkə də planlaşdırdığı nəticə alındı. Və ya Putin 2008-ci ildə ölkəsinin baş naziri olarkən belə prezident Dmitri Medvedyevə təzyiq etdi ki, Rusiya ordusu Gürcüstana müdaxilə etsin. Ukrayna fərqli yol seçdiyinə görə Putin qardaş adlandırdığı ölkəni də parçaladı, fürsətçi kimi Krımı Rusiyaya qatdı. Türkiyə sərhədini keçən Rusiyanın hərbi təyyarəsinin vurulmasından sonra Putinin növbəti hədəfi qardaş ölkə oldu. Putin Türkiyə ilə bütün əlaqələri kəsməklə yanaşı, ordusuna əmr verdi ki, əgər Türkiyənin hər hansı hərbi təyyarəsi Suriya sərhədini keçərsə, həmin təyyarə anında vurulmalıdır. Bunu bilən Ankara Moskva ilə küsülü qaldığı dövrdə bir dəfə də Suriya sərhədini keçmədi. Türkiyə hakimiyyəti Qərbin də tənqidləri ilə üzləşdiyindən yenidən üzünü Kremlə çevirdi, bu gün iki ölkə strateji tərəfdaşlıq əlaqələrini bərpa ediblər. Rusiya təhlükəli ölkədir, ona görə bu ətrafdakı dövlətlərin bir qismi Rusiya ilə münasibətlərdə problem yaşamaq istəmirlər. Hətta Avropa İttifaqına daxil olan dövlətlərin tamamı Krımın işğalına görə Rusiyaya sanksiya tətbiq etsələr də, bəziləri Putinlə yenidən dostlaşmağın yollarını arayırlar. Ancaq Putinlə dostluq da rahat həyat vəd etmir. Putinin yanında olmaq onun bütün istəklərinin



yerinə yetirilməsindən keçir. Bu isə hətta Rusiyaya müttəfiq olan ölkələrin işinə yaramır. Məsələn, Rusiyanın əsas strateji müttəfiqi Belarusdur. Ancaq Belarus prezidenti Aleksandr Lukaşenko belə Rusiya hakimiyyətinin siyasətindən narazıdır. O biri müttəfiqi Qazaxıstan da Ukrayna hadisələrindən sonra Putindən ehtiyat edir. Yəni Putinlə yaxınlıq da təhlükəsiz həyatın təminatı demək deyil”.

**Siyasi şərhçi rəsmi Ankaranın Bakının yolunu seçdiyini də qeyd etdi:** “Biz bilirik ki, Rusiya işğalçı Ermənistana dəstək verir. Buna rəğmən, biz Rusiya ilə münasibətləri gərginləşdirə bilmərik. Çünki qarşımızda Gürcüstan və Ukrayna nümunələri var. Digər tərəfdən, Rusiyada yüzminlərlə azərbaycanlı yaşayır ki, bu amili də kənara ata bilmərik. Rusiya ilə iqtisadi əlaqələri inkişaf etdirməklə yanaşı, siyasi təmasları üst səviyyədə saxlamaq doğru taktikadır. Buna baxmayaraq, zaman-zaman narahatlıqlarımızı da Rusiya hakimiyyətinə bildirməliyik ki, heç də bütün proseslərin onlar istədikləri kimi getmədiyini anlasınlar. Bu deyilənlər Türkiyəyə də aiddir. Ankara Putinin Əsəd rejiminə verdiyi dəstəkdən narahatdır, zaman-zaman sərt açıqlamalar da səsləndirdi. Ancaq bu tənqidlərin bir xeyri olmadı, tam əksinə, Moskva Əsədi gücləndirdi və Türkiyə Rusiya ilə münasibətlərinin gərginliyindən iqtisadi baxımdan zərər gördü. Ona görə də Ankara Bakının taktikasını seçdi. Yəni Rusiyanı strateji tərəfdaş adlandırmaqla yanaşı, narahatlıqlarını da Kremlin diqqətinə çatdırmağa başladı”.

❑ Cavanşir ABBASLI

# “Bu, qanunun zorlanmasıdır...”

## Əliməmməd Nuriyev: “Ümid edirəm ki, İlqar Məmmədov və Əli İnsanovla bağlı qərarın icrası baş tutacaq”



**Dekabrın əvvəlində Azərbaycanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Guido Raymondi ilə görüşü olub. Yada salaq ki, 2015-ci ildə Avropa Şurasının Nazirlər Komitəsi sentyabrın 22-24-də Avropa İnsan Haqları Məhkəməsinin çıxardığı qərarların icra vəziyyətini araşdırmağa başlayıb. Narahatlıq doğuran ölkələr arasında Azərbaycanın da adı var. Komitə hələ ötən il Azərbaycanla bağlı bir neçə qərarın icra vəziyyətini araşdırmağı planlaşdırıb. Onların arasında hazırda həbsdə olan REAL Hərəkatının lideri İlqar Məmmədovla keçmiş səhiyyə naziri Əli İnsanov da var.**

Avropa Məhkəməsi 2014-cü ilin mayında İlqar Məmmədovun azadlıq hüququ və təqsirsizlik prezumpsiyasının pozulmasını tanıyıb. Məhkəmənin həmin qərarına əsasən, İlqar Məmmədov azad olunmalı, Azərbaycan dövləti dəymiş mənəvi ziyana görə ona 22 min avro təzminat ödəməlidir. Amma Azərbaycan hökuməti həmin il avqustun 8-də Avropa Məhkəməsinin qərarından Böyük Palataya müraciət edib. Kollegiya oktyabrın 13-də müraciətə baxıb və onu Böyük Palatanın baxışına verməkdən imtina edib. Bununla da məhkəmənin mayda çıxardığı qərar qəti qüvvəyə minib. Amma bugünədək qərar icra edilməyib.

Avropa İnsan Haqları Məhkəməsi 2013-cü il martın 14-də keçmiş səhiyyə naziri Əli İnsanovun da İnsan Hüquqları Konvensiyasının 3-cü (işgəncələrin qadağan edilməsi) və 6-cı maddələri (ədalətli məhkəmə çəkişməsi hüququ) ilə zəmanət verilmiş hüquqlarının pozulmasını tanıyıb və ona 10 min avro həcmində kompensasiya verilməsi barədə qərar çıxarıb. Bu qərar da indiyədək icra olunmayıb.

Avropa Məhkəməsinin qərarları qəbul edildikdən 3 ay sonra icra edilməlidir. İcra yubandıqda, hökumət hər günə görə əlavə faiz ödəməlidir.

**Konstitusiya Fondunun rəhbəri Əliməmməd Nuriyev “Yeni Müsavat”a deyib ki, Azərbaycanda Avropa Məhkəməsinin qərarlarının icra vəziyyəti ümumən yaxşıdır. O, bəzi problemlərin olduğunu da gizlətmir:** “Avropa Konvensiyası Azərbaycanda ratifikasiya olunub və müvafiq olaraq Avropa Məhkəməsinin qərarları Azərbaycanda icra olunmalıdır. Bu, ölkəmizin üzərinə götürdüyü öhdəlikdir. İndiyə qədər Azərbaycan Avropa Məhkəməsinin çıxardığı qərarların mütləq əksəriyyətini icra edib. Bəzi qərarların icrasının ləngiməsi də var. Ümid edirəm ki, bu qərarların icrası da baş tutacaq”.

***– Azərbaycandan Avropa Məhkəməsinə göndərilən şikayətlər əsasən məhkəmələrdə qanunlara əməl olunmaması ilə çıxarılan hökmlərdəndir. Belə hökmlərin çıxarılmasının səbəbi hakimlərin qanunları düzgün tətbiq etməməsidir, yoxsa başqa səbəb var?***

– Nəzərə almaq lazımdır ki, Azərbaycandan bu məhkəməyə daxil olan şikayətlərin cəmi 5-6 faizi təmin olunub. Başqa ölkələrdə bu faizlər yüksəkdir. Avropa Məhkəməsinə göndərilən şikayətləri yaradan mübahisə mümkündür ki, kamil olmayan qanunlardan doğsun. Bu da var. Avropa Məhkəməsinin çıxardığı bəzi qərarlarda şəxsin təqsirsizliyi ilə yanaşı, qanunvericilikdə bəzi təkmilləşdirilmələrin aparılması da tövsiyə olunur. Elə hakimlər də var ki, Avropa Məhkəməsnin qərarlarına diqqət yetirmirlər və əvvəllər baş verən səhvlər təkrarlana bilər. Məsələ burasındadır ki, Azərbaycanda çoxpilləli məhkəmə sistemidir. Bir məhkəmənin qərarını digər məhkəmədə asanlıqla qaldırmaq mümkündür. Düşünürəm ki, Azərbaycan Avropa Məhkəməsinin qərarlarının icrasına diqqət yetirməli, ölkəmizlə bağlı çıxarılan qərarlar diqqətlə öyrənilməlidir. Düzdür, bu istiqamətdə Ədliyyə Nazirliyi çox geniş iş aparır, təcrübə mübadiləsi də var. Sadəcə olaraq, hakimlərin məsuliyyətini artırmaq lazımdır ki, daha diqqətli olsunlar.

***– Avropa Məhkəməsinin çıxardığı qərarlar üzrə cərimələrin məbləğləri də getdikcə artır. Belə bir vəziyyətdə ölkənin cərimələnməsi ilə nəticələnən qərarların maddi təzminat hissəsinin qanunauyğun olmayan hökmləri çıxarmış hakimlərin şəxsi vəsaitləri hesabına ödənilməsi haqda təkliflər də çoxlamaqdadır...***

– Düşünürəm ki, bu çıxış yoludur. Məhkəmə hər şeydən əvvəl dövlətin adından qərar qəbul edir. Hakimlər qərarları öz adlarından çıxarmırlar. Bu baxımdan, düzgün qərar qəbul etməyən hakimin maddi təzminat ödəməsi doğru yol deyil. Bu, hakimlərin müstəqilliyinin qarşısını ala bilər. Bunun əvəzində hakimlərin peşəkarlığının artırılması vacibdir. Kompensasiya məsələsini hakimin üzərinə qoymaq bütövlükdə məhkəmə sisteminin sonu olardı.

***– Azərbaycanda elə məhkəmə prosesləri keçirilir ki, son nəticədə qanunauyğun olmayan hökmün çıxarılacağı haqda qəti bir fikir formalaşır. Yaxşı olmazmı ki, belə proseslərin gedişatı zamanı hakim dəyişdirilsin və ya ona qanunun düzgün tətbiqi haqda məsləhətlər və ya tövsiyələr verilsin?***

– Azərbaycanda çox doğru olmayan bir ictimai təpki forması var. Məhkəmənin gedişatı zamanı vəkillər, ictimaiyyət nümayəndələri mətbuatda ən müxtəlif fikirlər söyləyir, belə deyək ki, məhkəmələrə kənar təzyiq olur. Məhkəmələr təzyiqdən azad olunmalıdır. Bunun qarşısı alınmalıdır. Bu praktika o qədər genişlənib ki, iş məhkəmə instansiyasına daxil olan andan artıq beynəlxalq təşkilatlar şəxsin azad olunmasını tələb edirlər. Bu yanaşma kökündən səhvdir. Bu, qanunun zorlanmasıdır. Bu işlər hakimlərə təzyiqdir. Hakimlərdə belə vərdişlər formalaşdırır ki, “gözləyək görək hökumət qurumları nə deyəcək”. Bu vərdişlər, davranışlar sistemi də çox ziyanlıdır.

❑ E.MƏMMƏDƏLİYEV





# Altıntaşın gizlətdiyi sirr - 155 lirə, 70 güllə...

## Ankarada öldürülən səfir Rusiya qəhrəmanı kimi dəfn olundu; Türkiyə hökuməti izlərin FETÖ-yə apardığını düşünür, istintaqda ən son yeniliklər

**Ankarada qətlə yetirilmiş Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun dekabrın 22-də Moskvada dəfn mərasimi keçirilib. Rusiya XİN binasında keçirilən vida mərasiminə Rusiya prezidenti Vladimir Putin, baş nazir Dmitri Medvedyev və xarici işlər naziri Sergey Lavrovla yanaşı, yüksək rütbəli məmurlar, siyasət adamları qatılıb. Səfirin ailə üzvlərinə başsağlığı verən Lavrov mərasimdə qısa nitq söyləyib. Qeyd edək ki, bir gün əvvəl Putin  Karlova Rusiya Qəhrəmanı adını verib.**

Daha sonra diplomatın cənazəsi dəfn üçün “Xilaskar İsa” kafedralına aparılıb. Karlovun cənazə mərasimini Rusiya patriarxı Kiril idarə edib.

### Ankara araşdırmalar və yeni detalların izində

Moskvada Karlovun dəfn işləri davam etdiyi bir vaxtda Ankarada qətlin araşdırılması Türkiyə və Rusiyadan olan ekspertlərin iştirakı ilə davam edir. “Hürriyet” qəzetinin məlumatına görə, təhqiqatçılar bütün araşdırmaları videoyazıya alır və daha sonra rusiyalı ekspertlərə təqdim edir. Bundan başqa, meyit yarılması və analizi prosesində, o cümlədən şübhəlilərin dindirilməsində Rusiyadan gələn mütəxəssislər də iştirak edib. Hadisə yeri yalnız rusiyalı istintaqçıların araşdırmalarından sonra təmizlənib. Rusların saxlanılan 11 nəfərin istintaqında da iştirak edəcəyi bildirilib.

### Terrorçunun ailə üzvləri azad edilib

Türkiyə mediası səfir Karlovu öldürən polis Mert Altıntaşın ailə üzvlərinin azadlığa buraxıldığını yazıb. Mətbuat yazıb ki, Altıntaşın anası Hamdiyə və atası Esrafil Altıntaşın, eləcə də ögey bacısı, dayıları ilə bibisi Aydın Vilayət Polis İdarəsinin terrorla mübarizə şöbəsində ifadələri alındıqdan sonra azadlığa buraxılıblar.

Bu arada istintaqda bəzi yeni detallar üzə çıxıb. Məlum olub ki, sui-qəsdçi çevik polis alayı əməkdaşı Mevlüt Mert Altıntaş dekabrın 14-də Ankarada 4 ulduzlu hotelə zəng edərək 16-17 dekabr üçün nömrə sifariş edib. Ancaq səhəri günü yenidən hotelə zəng edərək sifarişini 18-19 dekabra dəyişib.

Məlum olub ki, Altıntaş dekabrın 16-da Çağdaş Sənət Mərkəzinə gedərək Gəzginlər Qrupunun sərgisində iştirak edib və Rusiya səfirliyinin keçirəcəyi sərginin dekabrın 19-da ikinci mərtəbədəki salonda olacağını öyrənib.

Qeyd edək ki, Rusiya səfirliyinin təşkil etdiyi sərginin açılış mərasimi ilə bağlı dəvətnamə dekabrın 13-də 15 jurnalist və 200-ə yaxın qonağa göndərilib.

O da məlum olub ki, Altıntaş sərgi günü kostyum və köynəyini hotel xidmətçisinə verərək təmizlənib ütülənməsini istəyib.

### Terrorçu ilə atışan yol polisləri olub

İstintaqın əldə etdiyi məlumata görə, qatilə qarşı ilk müdaxiləni ərazidə fəaliyyət göstərən yol polisi əməkdaşları edib. 19.32-də salona gələn yol polisləri Altıntaşa atəş açıblar. “Təslim ol” çağırışına əməl etməyən Altıntaşla polislər arasında atışma çıxıb. İlk güllə Altıntaşın sol ayağına  dəyib, ancaq terrorçu atəş açmaqda davam edib. Atışma davam edərkən əməliyyat qrupu salona daxil olub. 19.40-da Altıntaşın boynuna dəyən güllə onun yıxılmasına səbəb olub. Tibbi analizin nəticələrinə əsasən terrorçunun qarın nahiyəsinə 4, sinəsinə isə 2 güllə dəyib. Boynundan dəyən güllə isə öldürücü olub.

Qatilin üzərindən biri tapançada olmaqla, 4 güllə darağı çıxıb. Altıntaş atışma zamanı ümumilikdə 70 güllə atıb. İlk atəşdə səfirə tuşladığı 11 güllədən 9-u Karlovun bədəninə dəyib.

O da məlum olub ki, hadisə günü əvvəl polis bölməsində olan Altıntaş oradan 5 gün əvvəl sifariş etdiyi hotelə gedib. Onun üzərindən 155 lirə pul çıxıb. O da məlum olub ki, hücum zamanı geydiyi kostyumu 3 gün əvvəl alıbmış. Eyni zamanda sərgiyə getməmişən duş aldığı da istintaqa bəlli olub. O da məlum olub ki, qatil salona gedəndə şübhə yaratmaması üçün yaxasına bir qayda olaraq yüksək dövlət rəsmilərini qoruyan mühafizə polislərinin yaxalarına vurduğu nişandan taxıb. Bununla da ehtimal olunan şübhələri dağıtmaq məqsədi güdüb.





Rusiyadan gələn istintaqçılar

Hazırda istintaqçıların Altıntaşın telefonunun şifrəsini açmağa çalışdığı, açıldığı təqdirdə qatilin son zamanlarda əlaqədə olduğu, yaxın münasibətləri olan və cinayətdə iştirakı olan şəxslərin müəyyən oluna biləcəyi ehtimal edilir.  11 nəfərin şübhəli olaraq saxlanıldığı, ancaq bu siyahının daha da artacağı  gözlənilir.

Altıntaşın cənazəsini almağa heç kim gəlməyib. Hökumət rəsmiləri cənazənin yaxın qohumlarına təhvil veriləcəyini bildiriblər.

### Prezident Ərdoğan bəzi detalları açıqlayıb

Qeyd edək ki, Türkiyə hökumət rəsmiləri cinayətin FETÖ tərəfindən törədildiyini iddia edir. Səfirin qətli ilə bağlı danışan prezident Ərdoğan da bu versiyanı səsləndirib. Türkiyə prezidenti deyib ki, terrorçu F.Gülən camaatına bağlı olub. Ərdoğan deyib ki, orduda olduğu kimi polisdə də FETÖ üzvləri var və onların təmizlənməsi davam edəcək.

Əməliyyatın detalları haqda danışan Ərdoğan deyib ki, Altıntaşın əl hərəkəti əməliyyatçılarda canlı bomba şübhəsi yaratdığı üçün öldürülüb. Çünki bundan əvvəl Dolmabaxça terroru zamanı polislər məhz canlı bombanı zərərsizləşdirməyə çalışarkən partlayış baş verib və polislər ölmüşdü. Bu səbəbdən də oxşar hadisənin yaşanmaması üçün polis terrorçunu vurmağa məcbur olub.

### Yenə ByLock?

Türkiyə mediası yazır ki, Mevlüt Altıntaşın FETÖ istintaqında adı gedən və əsas aktiv üzvlərdən olan 10 nəfərlə əlaqəsinin olduğu üzə çıxıb. Məlum olub ki, Altıntaşın özünün ByLock proqramında adı olmasa da, bu proqramın əsas istifadəçisi olan və FETÖ-nün əsas üzvlərindən olan 10-a yaxın insanla yaxın münasibətləri olub. Mediaya görə bu, Altıntaş kimi “kamikadzelərin” şübhə doğurmamaq üçün ByLock kimi proqramlara üzv edilmədiyinə işarədir. Bu isə onu deməyə əsas verir ki, FETÖ-nün bu tip gizli sui-qəsdçiləri ola bilər, hansılar ki, internet və mobil şəbəkədə, açıq əlaqədə olmayıb.

Xatırladaq ki, mobil danışıq proqramı olan ByLock əsasən FETÖ üzvləri arasında məşhur olub və onlar bu proqram vasitəsilə bir-biri ilə əlaqə saxlayıblar.

### Altıntaş nusraçı olub?

Türkiyədə və dünyada Ankara sui-qəsdçisinin Suriyada fəaliyyət göstərən “ən-Nusra” terror təşkilatının üzvü olması ilə bağlı iddialar geniş yayılıb. Dekabrın 21-də ərəb mediasında və sosial şəbəkələrdə Karlovun qətlini “ən-Nusra” qruplaşmasının öz üzərinə götürməsi ilə bağlı açıqlama yayılıb. Ancaq sonradan qruplaşma bu məlumatı təkzib edib və yayılan sənədin saxta olduğunu açıqlayıb.

Qeyd edək ki, “ən-Nusra Cəbhəsi” və ya hazırkı adı ilə “Şamın Fəth Cəbhəsi” qruplaşması Suriyada savaş başlayanda - 2011-ci il sentyabr ayında yaradılıb, ilk dəfə 2012-ci il yanvarın 23-də adı açıqlanıb. Tam adı “Cabhat an-Nusra li-əhli-Şam”, yəni “Şam Əhli üçün Yardım Cəbhəsi” olan təşkilat “əl-Qaidə”nin Suriya qolu kimi çıxış edib. Qruplaşmanın lideri Əbu Muhəmməd əl-Culani 2013-cü ilin aprel ayında verdiyi bəyanatda məqsəd və vəzifələrinin digər islamçı qruplaşmalara dəstək vermək olduğu və “ən-Nusra”nın müstəqil bir təşkilat olduğunu bildirib. Həmin ilin noyabrında isə “əl-Qaidə” lideri Ayman Zəvahiri “ən-Nusra Cəbhəsi”ni rəhbərlik etdiyi təşkilatın Suriyadakı yeganə qanuni təmsilçisi elan edib. “Ən-Nusra Cəbhəsi” Qərb və Rusiya tərəfindən terror təşkilatı kimi tanınsa da, ərəb ölkələri və Türkiyə onu müxalif qruplaşma olaraq qəbul edir. “2014-cü il iyunun 18-də Türkiyə hökuməti Suriyada fəaliyyət göstərən ”ən-Nusra Cəbhəsi"nin adını terror təşkilatları siyahısından çıxarıb. Buna səbəb qruplaşmanın Suriyada Bəşər Əsəd qüvvələrinə qarşı savaşması göstərilib.

Ancaq Suriyada əməliyyatlara başlayan Rusiya əsas hədəflərindən biri olaraq İŞİD-lə yanaşı «Nusra»nı göstərib. Bundan sonra bu ilin yayında qruplaşma adını dəyişərək “Şamın Fəth Cəbhəsi” edib.

Türkiyə xəfiyyəsi Ankara terrorçusunun nusraçı olması iddiasını qəbul etmir. Türkiyəli müstəntiqlər hesab edir ki, bir salonda terror təşkil edən “Nusra” üzvü orada olan digər insanları da öldürməliydi. Rəsmi Ankara mediada «Nusra»nın adının hallandırılmasının hədəfin FETÖ-dən yayındırmaq məqsədi güddüyünü düşünür.

❑ Kənan RÖVŞƏNOĞLU

**2016-cı ildə Azərbaycanın durumuna, hakimiyyətin siyasətinə qiymət verilməsi baxımından iqtidar düşərgəsi və hakimiyyət müdafiəçilərinin fikirlərində kəskin fərqlər var. Bu fərq müxalifətdən ADP sədri Sərdar Cəlaloğlu, hakimiyyəti müdafiə edən cinahdan isə Ana Vətən Partiyasının sədri Fəzail Ağamalının "Yeni Müsavat"ın suallarına cavabında bir daha ortaya çıxıb.**

# 2016-cı il dəyərləndirməsi iki düşərgəni üz-üzə qoydu

## Sərdar Cəlaloğlu: "2016-cı il təəssüf ki, gələn il üçün sosial narazılıqlara bir zəmin hazırlanması ili oldu"



***- Sərdar bəy, müxalifət olaraq necə hesab edirsiniz, hakimiyyət 2016-cı ili necə başa vurdu?***

- Azərbaycan hökuməti bu il apardığı siyasətin "hədəfinə" çatdı-Azərbaycanda iqtisadi çöküş başladı. 2016-cı il təəssüf ki, gələn il üçün sosial narazılıqlara bir zəmin hazırlanması ili oldu. İstər bu il "holland sindromu"nun meydana çıxması, istər qlobal iqtisadi böhranın Azərbaycana təsiri, istərsə də Azərbaycandakı korrupsiya, dövlət əmlakını talamaq baxımından 2016-cı il bir çox mətləbləri acı şəkildə ortaya qoymuş oldu. Faktiki olaraq iqtidar Əbülfəz Elçibəy iqtidarından Azərbaycanı iqtisadi baxımdan hansı vəziyyətdə təhvil alıbsa, elə o vəziyyətə də salıb gedəcək. Odur ki, mən düşünürəm ki, 2016-cı il sondan əvvəlki bir neçə ildən biridir...

***- Dünyada neftin qiymətinin kəskin aşağı düşməsi Azərbaycan iqtisadiyyatında özünün göstərməyə bilməzdi və göstərdi. Bu bir il ərzində atılan addımları islahatlar adlanan proses nəticə verdimi?***

- Azərbaycan hökuməti hər hansı bir real islahat həyata keçirmək imkanına malik deyil. Bunun üç səbəbi var. Birincisi, islahatı həyata keçirən kadrlar olmalıdır. Korrupsiya ilə məşğul olmuş və olan məmurların indi islahat həyata keçirməsi mümkün deyil. İkincisi, real islahatlar həyata keçirilməsi üçün ciddi maliyyə resursları olmalıdır. Dünyadakı qlobal iqtisadi böhran şəraitində Azərbaycana heç kim investisiya qoymaz, riskli bir vəziyyətdir. Odur ki, məncə, islahat üçün verilən qərarların real şəkildə həyata keçirilməsi mümkün olmayacaq. Əgər hakimiyyət ciddi müsbət nəticələri olacaq islahatlar istəyirsə, birinci növbədə idarəetmədə islahatlardan başlamalıdır. Aşağı keyfiyyətli idarəetmə ləğv edilməlidir. Onun yerinə yüksək keyfiyyətli idarəetmə prinsipləri tətbiq olunmalıdır, oğru məmurların böyük əksəriyyəti cinayət məsuliyyətinə cəlb olunmalıdır, onların taladığı vəsait dövlət büdcəsinə qaytarılmalıdır. Məhz bundan sonra yeni qüvvələrin, yeni kadrların iştirakı ilə ölkədə sözün həqiqi mənasında islahatları həyata keçirmək mümkündür. Ölkəni ağır duruma salan adamlarla islahat aparmaq mümkün deyil. Marksın bir sözü var ki, maşın xarabdırsa və zay məhsul buraxırsa, o maşını idarə edən nə qədər qabiliyyətli olsa da maşın zay məhsul buraxmaqda davam edəcək. Ona görə də maşını dəyişmək lazımdır. Siz bir ələklə suyu necə daşıya bilərsinizsə, bu komanda ilə də islahatları yalnız o cür həyata keçirmək olar.

***- Dağlıq Qarabağ probleminin həlli istiqamətində hansısa irəliləyişlərin müşahidə olunması baxımından 2016-nı fərqli il kimi qiymətləndirmək olarmı? Əsasən də aprel savaşını və onun yaratdığı yeni vəziyyəti nəzərə alsaq.***

- Dağlıq Qarabağ münaqişəsinin həlli üçün faktiki olaraq nə Azərbaycan hökumətinin, nə də Ermənistan hökumətinin müstəqil siyasət aparmaq imkanlarının olmadığı bu il daha çılpaq şəkildə ortaya çıxdı. Bu ilin aprel ayında Azərbaycan hökuməti bir müstəqil addım atdı və çoxlu sayda canlı itki versək də müəyyən bir nəticə əldə edə bildi. Lakin sonradan məlum oldu ki, Rusiya Azərbaycanın üstünlük əldə etməsi ilə heç cür barışa bilmir və hökumət də rəsmi açıqlama verdi ki, Putinin müdaxiləsindən sonra döyüş dayandırılıb. Ermənistan hakimiyyətinin də Dağlıq Qarabağ məsələsində müstəqil hərəkət edə bilmədiyi aprel savaşından sonrakı dövrdə bir daha çılpaqlığı ilə ortaya çıxdı. Döyüşü başlatmaq və ya dayandırmaq, yaxud da sülh qərarı verib-verməmək Putindən asılıdırsa, onda Dağlıq Qarabağ probleminin həllində Azərbaycan və Ermənistan hökumətlərinin hansı irəliləyişə nail olduğundan və ya olacağından danışmaq olar?

***- Ən azından bu il bəlli oldu ki, Azərbaycan Ordusunun müasir silah və texnika ilə təchizatı istiqamətində çox nəhəng addımlar atılıb. Məsələn, məhz bu il bəyan edildi ki, son illərdə təkcə İsraildən beş milyard dəyərində silah alınıb. Bunu Qarabağın azad olunmasına ciddi bir hazırlıq dövrü kimi qiymətləndirmək olmazmı?***

- Əldə silahın olması, silahlanma təkcə o demək deyil ki, hücuma keçəcəksən. Silah həm də müdafiə üçündür. Silah alınmasından yalnız hücum qənaətinə gəlməmək də olar. Ölkənin müdafiə qüdrətini artırmaq üçün silahlanma lazımdır. Bizdən də güclü silahlanmaya malik ölkələr var ki, asanlıqla məğlub olub. Odur ki, əsas məsələ silahın çox olub-olması deyil, əsas məsələ o silahları müstəqil şəkildə istifadə etmək imkanlarına malik olmaqdır.

***- İlin əvvəlində ABŞ-dan sanksiya hədələri gəlsə də hədədən o tərəfə keçmədi və demək olar ki, ABŞ-la da normal münasibətlər davam etdi. Həmişə tənqid mövqeyində olan Amerika ölkədəki konstitusiya dəyişikliyinə belə, loyal yanaşdı. Bu ili Azərbaycanın, hakimiyyətin beynəlxalq birliklə münasibətləri baxımından rahat il adlandırmaq olar?***

- 2016-cı ildə xarici siyasətdə ciddi dəyişikliklər olmadı. Əvvəlki illərdə aparılan tarazlaşdırılmış siyasət davam etdi. Rusiyanın təsiri bir qədər də artdı. ABŞ isə hakimiyyətə həmişəki səviyyədə məsafəli siyasət tətbiq etdi. Amma son zamanlar ABŞ-ın, Avropa Birliyinin bir qədər aktivləşdiyi müşahidə edilməkdədir. Bu da onu göstərir ki, Amerika hələ Azərbaycanda öz təsirini saxlamaq istiqamətində cəhdlər edir. Referenduma isə ABŞ yox, Azərbaycan xalqı ciddi reaksiya verməli idi. Çünki həmin referendumla ölkənin konstitusiyasında demokratiyanın çöküşü həyata keçirilirdi. Həmin referendum da siyasi böhranın bir əlaməti kimi meydana çıxmışdı.

***- Dini baxımdan vəziyyət bu il mənfiyə, yoxsa müsbətə doğru inkişaf etdi? Rəsmi dövlət qurumlarının və QMİ-nin bu sahədə siyasəti qane etdi?***

- Azərbaycan sovet dönəmində yaşadığı ateist həyat tərzini yaşamaqda davam edir. Hökumətdəkilərin çoxu ateisdir. Belə olan təqdirdə dini sahədə hansı müsbət irəliləyişdən söhbət gedə bilər. Ölkənin dini liderinin Siyəzəndə hektarlarla torpağının alınması barədə bir neçə həftə xəbər yayıldı. Bu onu göstərir ki, bu ölkədə din xadimi ticarətlə məşğuldur. Bu cür dini institutu olan ölkədə biz hansı dindən, hansı əqidədən, hansı inancdan danışa bilərik?! Bu il ölkəyə radikal dini təmayüllü Suriyaya getmiş vətəndaşlarımızın müəyyən qisminin qayıtması davam etdi. Bu prosesin gələcəkdə təhlükələrə yol açmaması üçün müvafiq qurumlar müəyyən iş aparsalar da təhlükə sovuşmayıb.

❑ Etibar SEYİDAĞA

## Fəzail Ağamalı: "Köhnə stereotiplərlə yaşayan, köhnə mübarizə formaları ilə hərəkət edən müxalifət çətin durumda olmalıdır"



***- Fəzail bəy, müxalifət 2016-cı ili Azərbaycan və hakimiyyət üçün böhran ili olaraq xarakterizə edir. Bu iddialarda həqiqət payı var?***

- 2016-cı ildə dünya maliyyə, sosial, iqtisadi, hərbi böhranın içərisində qalmaqdadır. Yaxın Şərqdə baş verən hadisələr, bir neçə il öncə başlanan "ərəb baharı"nın ağır fəsadları dünyanın ümumi gedişinə bu il də mənfi təsir göstərdi. Qlobal güclərin birinin digərinə qarşı kəskin mövqedə dayanması, xüsusi olaraq Rusiya-Qərb qarşıdurmasından dolayı neftin qiymətinin kəskin aşağı salınmasından irəli gələn maliyyə böhranı şübhəsiz ki, dünyanın bir parçası olan Azərbaycandan da yan keçməyib. Azərbaycan da neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar iqtisadi və maliyyə çətinlikləri yaşamaqdadır. Süni şəkildə də dolların dəyərinin artırılmasının bütün ölkələrin milli valyutasını olduğu kimi Azərbaycanın da milli valyutasını ucuzlaşdırması ölkəmizin maliyyə-iqtisadi sisteminə özünün mənfi təsirini göstərdi. Bu etiraf olunmalıdır. Lakin bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan 2016-cı ildə ayaq üstə durmağı bacardı. Ciddi xarakter daşıyan və transmilli layihələrin başa çatdırılması prosesi davam etdirildi. Xüsusi olaraq TANAP-ın, TAP-ın tikintisi ilə bağlı, Bakı-Tiflis-Qars dəmir yolunun inşası, eyni zamanda Xəzər dənizində, Ələtdə yeni beynəlxalq miqyaslı limanın salınması ilə bağlı atılan addımlar, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi istiqamətində Astaraya qədər Azərbaycan dəmir yolunun çəkilişinin başa çatması Azərbaycanın 2016-cı ildə iqtisadi baxımdan atmış olduğu addımların vacibləridir. Eyni zamanda Azərbaycanın 2016-cı ildə ən böyük uğuru aprel döyüşlərində işğalçı Ermənistana sarsıdıcı zərbələrə vurması oldu. Bu, məncə, Ermənistanın işğalçılığı başladığı gündən indiyə qədər Ermənistana vurulmuş ən ağır sarsıdıcı zərbədir. Bu, Milli Ordumuzun qəhrəmanlığının, hərbi gücümüzün nümayişi oldu. Ölkə prezidenti ilə ordunun və xalqın sıx vəhdətinin nümayişi oldu. Bu xüsusi olaraq qeyd edilməlidir. Azərbaycanda vətənpərvərlik ruhu daha da gücləndi, Ermənistanın məğlubedilməz ordusu deyilən imici məhz bu il darmadağın edildi. Azərbaycanın isə hərbi potensialının çox böyük üstünlüklərə malik olduğu dünyaya bəlli oldu. Bizim 2016-cı il konstitusiya quruluşunun daha da möhkəmlənməsi, azad cəmiyyətin daha da, insan hüquq və azadlıqlarının daha da güclənməsinin təminatı olan konstitusiya dəyişikliyi ilə də əlamətdar oldu. Referendum Azərbaycan prezidenti ilə xalqın sıx birliyinin bir ifadəsi kimi özünü göstərdi. 2016-cı ilin bütün dünya üçün çətinliklərin yaşandığı il olmasına baxmayaraq, Azərbaycan mühüm uğurlara imza atdı. Ən başlıcası, Azərbaycan sabit bir ölkə olaraq, multikulturalizm məkanı olaraq da beynəlxalq aləmdə özünü bir daha nümayiş etdirdi, beynəlxalq tədbirlərə, beynəlxalq idman yarışlarına ev sahibliyi etdi.

***- Hakimiyyəti tənqid eləyən müxalifətin vəziyyətini tənqid etmək üçün əsaslar varmı?***

- Müxalifətin Azərbaycandakı vəziyyət, hakimiyyətin siyasəti barədə söylədiyi fikirlər kifayət qədər qərəzlidir. Əgər Azərbaycanda onların dediyi kimi vəziyyət olsaydı müxalifət yaranmış situasiyadan istifadə eləyib böyük kütləvi aksiyalar keçirərdi, iqtidara qarşı öz iddialarını ortalığa qoyardı, xalqın etimadını qazanmaq üçün yaranmış situasiyadan istifadə edərdi. Bunların heç birinin olmaması müxalifətin fikirlərinin əsassız olduğunun sübutlarından biridir. Milli Şura adı altında AXCP-nin 2016-cı ildə keçirməyə cəhd göstərdiyi mitinqlərə 600-700 adamdan artıq adam qatılmadı. Bu bir daha Azərbaycan cəmiyyətində iqtidarın gücünün nümayişi oldu. Xalqın ölkə prezidentinə etimadının ifadəsi kimi qiymətləndirilməlidir. Müxalifətin isə zəif olduğu, xalq tərəfindən qəbul edilmədiyi, müxalifətin sosial dayaqlarının olmadığı bir daha ortaya qoyuldu. Müxalifətin nə deməsindən asılı olmayaraq ölkə prezidenti və onun komandası Azərbaycan xalqının mütləq əksəriyyətinin mandatını qazanıb.

***- Müxalifət düşərgəsinin özünün daxilində islahatlara, dəyişikliklərə ehtiyac varmı?***

- Müxalifət 2016-cı ildə də aşınmaya, itkilərə, sosial dayaqlarını itirməyə məruz qaldı. Bir addım da olsun irəliləyişə nail ola bilmədi. Bu vəziyyətə düşmələrinin başlıca səbəbini ölkə prezidentinin uğurlu daxili və xarici siyasətində axtarmaq lazımdır. Ölkə prezidentinin uğurlu siyasəti nəticəsində Azərbaycan xalqı müxalifət mövqeyində deyil, prezidentin ətrafında cəmləşib. Prezidentin bu cür uğurlu siyasəti müxalifəti sosial dayaqlardan məhrum edir. Müxalifət xalqa heç bir yeni nəsə təklif edə bilmir. Hələ də köhnə stereotiplərlə yaşayan, öz içində islahatlar aparmayan, yeniləşməyən, köhnə iş metodu ilə, köhnə mübarizə formaları ilə hərəkət edən müxalifət, xüsusi olaraq onun radikal qanadı çətin durumda olmalıdır. Ona görə də onlar ilk növbədə özlərində islahatlar aparmalıdır.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

# Şeyx ölkədən çıxdı-gələn il qayıdacaq

## Allahşükür Paşazadə niyə Həsən Ruhaniyə etiraz etmədi?

**İran prezidenti Həsən Ruhaninin işğalçı Ermənistana səfəri və qatil prezident Serj Sərkisyanla görüşünə Azərbaycanın ən müxtəlif təbəqələrindən etirazlar oldu. Ancaq Qafqaz Müsəlmanları İdarəsinin müsəlman həmrəyliyindən danışan bir ölkənin rəhbərinin məscidləri donuz fermasına çevirən bir ölkə ilə "əbədi dost" olaraq qalacaqlarını bəyan etməsinə reaksiya verməməsi təəccüb doğurdu.**

Bəlkə də başqa vaxt olsaydı, İran prezidentinin Ermənistan səfəri bu qədər qıcıq doğurmazdı. Amma məsələ burasındadır ki, İsrailin baş naziri Benyamin Netanyahunun Bakı səfərinə İrandan davamlı təpkilər gəldi və qonşu ölkə açıq-aşkar Azərbaycanın daxili işlərinə qarışdı. İmam Sadiq Universitetinin Öyrənci Bəsicinin (radikal könüllü hökumət tərəfdarları) siyasi məsulu Nəvid Əmidi Azərbaycanın Tehranda səfirliyinə etiraz tablosunun göndərildiyini açıqlamışdı. "Bu tabloda Netanyahu ilə görüş və fələstinli uşaqların qanına qəltan edilməsi səhnələri təsvir edilib. Təsvirdə yazılıb: Torpağı işğal altında olan bir dövlət, müsəlman torpağını işğal edən dövlət ilə dost olmaz"-deyə, N.Əmidi yazmışdı.

Ancaq nədənsə İsrail dövləti ilə əməkdaşlığa etiraz edən İran təmsilçiləri Xocalıda qətlə yetirilən körpələri və bu qətliamda şəxsən iştirak etmiş S.Sərkisyanın həmin hadisələrlə bağlı etiraflarını "unudublar". Məntiqlə bir tablo da İran prezidentinə göndərilməli idi. Qarabağı işğal edən Ermənistanla ən yaxın əməkdaşlıq edən ölkələrdən birinin nümayəndələri unudurlar ki, İranla Ermənistan arasında



hərbi, iqtisadi, mədəni sahələrdə onlarla müqavilə imzalayıblar. Bu müqavilələrin əksəriyyəti Azərbaycana qarşı yönəldilib. Elə son səfərdə İran Ermənistana böyük investisiyalar qoyacağını, erməni şəhərlərini qazlaşdıracağını rəsmiləşdirdi.

Netanyahunun səfərinə İran rəsmiləri tək-tək etiraz etsə də, din xadimləri xüsusi fəallığı ilə seçildi. İranın dini liderinin Qərbi Azərbaycan əyalətindəki nümayəndəsi, Urmiyanın cümə namazının rəhbəri axund Seyid Mehdi Qüreyşi cümə namazı xütbələrində çıxış edərək müsəlmanları Bakıya səfəri gözlənilən İsrailin baş naziri Benyamin Netanyahuya qarşı çıxmağa çağırmışdı. Digər çıxışlar da oldu. Lakin Azərbaycandan bir-iki din xadimi istisna olmaqla, İran prezidentinin Ermənistan səfərinə etiraz edən olmadı. Hətta deputat Fazil Mustafa İranın təbliğatçısı rolunda çıxış edənlərə xitabən son səfərə reaksiya verməyə çağırmışdı.

Bəs Qafqaz Müsəlmanları İdarəsinin susmasına səbəb nə olub? İranla normal münasibətləri olan Şeyxülislam Hacı Allahşükür Paşazadə Ruhaninin səfəri ərəfəsində qonşu ölkəyə gedib öz nüfuzundan istifadə edərək ən azı Ermənistana səfəri zamanı Sərkisyana təsir göstərməsini xahiş edə bilərdi. Hətta dekabrın 7-də İran şirkətlərinin Şuşa məscidini bərpa edəcəyinə dair tərəflər arasında sənədin imzalandığı haqda erməni KİV-ləri xəbər yayıb. Azərbaycan XİN-in etirazı olsa da, QMİ bu cür həssas olaya da etiraz etmədi. Şeyxülislam heç olmasa Şuşa həbsxanasında saxlanılan iki müsəlmanın, Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması ilə bağlı İrəvana təsir göstərməsi üçün Ruhaniyə müraciət edə bilərdi. Lakin Şeyx həzrətləri nə Ruhaninin İrəvan səfərinə etiraz etdi, nə də ondan ədalətli mövqe sərgiləməsini istəmədi. Şeyxin tərəddüdünə səbəb nə olub, QMİ-nin İranla münasibətlərində problemmi var?

Bu suala cavab almaq üçün QMİ-yə dəfələrlə müraciət etsək də, sualımıza cavab ala bilmədik. A.Paşazadənin yaxınlarından isə öyrəndik ki, Şeyx hazırda ölkədə yoxdur. Onu da bildirdilər ki, A.Paşazadə İranda deyil. Ancaq hansı ölkəyə və nə məqsədlə getdiyini də açıqlamadılar. Yalnız onu dedilər ki, QMİ sədri Azərbaycana gələn il qayıdacaq...

**Cavid TURAN**

# "O vaxt səfir öldürmək dəbdə deyildi"

## Hikmət Hacızadə: "Mən səfir işləyəndə xüsusi cəngüdənim olmayıb"

**Rusiyanın Ankarada qətlə yetirilən səfiri Andrey Karlovun silahlı mühafizəsinin olmamasına prezident Vladimir Putin də münasibət bildirib.**



Onun sözlərinə görə, xüsusi xidmət orqanlarının silahlı əməkdaşları xaricdə rusiyalı diplomatların təhlükəsizliyini yalnız diplomatik nümayəndəliyin ərazisində təmin edə bilirlər. "Ümumi qaydalara əsasən, səfirliyin silahlı mühafizəsi silahla yalnız diplomatik nümayəndəliyin ərazisində işləyə bilər. Səfirlikdən kənara silahla çıxmaq qadağandır. Problemdə elə bundadır", - Putin deyib. Rusiya prezidenti onu da əlavə edib ki, belə qayda yalnız Türkiyədə deyil, dünyanın əksər ölkələrində var. Bununla belə, Putin hesab edir ki, bir sıra ölkələrdə vəziyyəti nəzərə alaraq "razılaşmaq olar".

Diplomatı tanıyanlar onun mühafizəçi ilə hərəkət etməyi xoşlanmadığını deyirlər. Elə səfiri yaxından tanıyan politoloq Toğrul İsmayıl da bunu "Yeni Müsavat"a təsdiqləyib. Ancaq bəzi ekspertlər də hesab edir ki, səfirin mühafizəçi istəyib-istəməməsindən asılı olmayaraq, onun kənardan da olsa, mühafizəsi zəruridir. Xüsusilə də bölgədə baş verən son gərginliklər fonunda, terror dalğasının adiləşdiyi məqamda bu, vacib sayılır.

**Elçibəy hakimiyyəti dönəmində Azərbaycanın Rusiyada səfiri işləmiş Hikmət Hacızadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onun özü də mühafizəçi ilə hərəkət etməyə marag göstərməyib:** "Mən səfir işləyəndə xüsusi cəngüdənim olmayıb. Amma səfirlikdə bir təhlükəsizlik mütəxəssisi çalışırdı. Riskli görüşlərə gedəndə onu özümlə aparırdım. Əlbəttə ki, bu, terror aktından qorunmaq üçün kifayət deyil. O zaman imkanlarımız ancaq buna çatırdı. İndiki vaxtda təbii ki, səfirin mühafizəsi olmalıdır".

Qeyd edək ki, H.Hacızadə Rusiya-Azərbaycan münasibətlərinin ən gərgin vaxtlarında ölkəmizi qonşu ölkədə təmsil edib. O zaman yanvar qırğınından cəmi iki il keçmişdi, rus hərbçilərinin köməyi ilə Dağlıq Qarabağ və bəzi ətraf ərazilər işğal olunmuşdu, Xocalı soyqırımı törədilmişdi. İmperiya varisi isə hələ də Azərbaycanın müstəqilliyini həzm edə bilmirdi. Belə bir məqamda azərbaycanlı səfirə qarşı ən müxtəlif səviyyədə terror ola, yaxud ermənilərin hazırladığı plan həyata keçirilə bilərdi.

**H.Hacızadə bildirdi ki, hansısa plan hazırlığı barədə məlumatsız olub:** "Mən onu deyə bilmərəm. Amma o vaxt səfir-filan öldürmək dəbdə deyildi. Ümumən tarixən səfir toxunulmaz fiqurdur. Bu barədə beynəlxalq konvesiya, Vyana Konvensiyası var. Düzdür, ermənilər tərəfindən də türk diplomatlarının öldürülməsi olub, amma müstəsna haldır. Səfir sülh simvoludur, onu qorumaq lazımdır!"

**Rus səfirin öldürülməsində Qərbin, konkret olaraq ABŞ-ın maraqlı olması barədə iddialar olsa da, artıq Vaşinqtondan məsələyə etiraz bildirilib. Bəs H.Hacızadə diplomata qarşı terrorun arxasında hansı qüvvələrin dayandığını güman edir?**

"Bu qətlin arxasında kimin durduğu barədə mənim heç bir ehtimalım yoxdur. Çünki faktım yoxdur və mən belə bir ölkə görmürəm ki, bu faciədən bəhrələnsin. Ola bilər ki, bu qətl "əl-Nusra" cəbhəsinin Hələbə görə intiqamıdır" deyə, sabiq səfir bildirdi. H.Hacızadə bunu da bildirdi ki, rus səfirin öldürülməsi Ankara-Moskva münasibətlərində problem yaratmayacaq.

**Cavid TURAN**

# İranın "o potensial" şantajı



**Xalid KAZIMLI**

**Tehranlı professor Bəhram Əmirəhmədian Ermənistan mətbuatına verdiyi açıqlamada İran dövlətinin əlindəki kartı və gerçək niyyəti açıb göstərib.**

Öncə Əmirəhmədianın sözlərinə diqqə edək. Professor deyib: "İsraillə yaxınlaşmasına görə, İran Azərbaycana asanlıqla cavab verə bilər, ancaq cavab vermir, çünki buna ciddi yanaşmır. İran Azərbaycanın şiə əhalisini bu ölkənin hökumətinə qarşı istifadə edə bilsə də, heç vaxt o potensialdan istifadə etməyib".

Birincisi, bundan başlayaq ki, İran zaman-zaman bu potensialdan istifadə etməyə çalışıb və bir gün də olsun, Azərbaycan əhalisinin böyük hissəsinin şiə məzhəbindən olması faktorunu yadından çıxarmayıb.

İndiyədək Azərbaycanda həbs olunan və uzun müddət məhbəsdə saxlanılan İranmeylli dindarların sırasına baxaq. İlk baxışdan onlar siyasi motivlərlə həbs olunublar və bu, doğrudan da belədir.

Fəqət bu şəxslərin siyasi fəaliyyəti nədən ibarət idi? Onlar "şiə əhalisini hökumətə qarşı qaldırmaq" fikrindəydilər.

Orta məktəblərdə qız uşaqlarının hicab geyməələrinin vacib olduğu, bunu qanuni şəklə salmaq üçün az qala "ölüm-dirim" mübarizəsi aparacaqlarını bəyan edən qüvvələrin başlatdığı kampaniyanı xatırlayaq.

Bu kampaniya qəfildən, aydın səmada çaxan şimşək effekti ilə başladı, onlarla dindarın döyülməsindən, tutulmasından sonra qəfildən də sönükdü. Sanki belə bir problem yerli-dibli yoxmuş.

Hicab azadlığı uğrunda ayağa qalxanların bir qisminin həbsdə oturması ilə bitən qovğa-mərəkənin İranın barmağı ilə başladığı heç kəsdə şübhə doğurmurdu.

Həmin aksiyaya qatılanların sayı o dövrdə aparıcı müxalifət partiyalarının "azad seçki" şüarı ilə keçirdiyi aksiyalarda iştirak edənlərdən çox deyildi. Ancaq İranmeylli qüvvələr daha mütəşəkkil və daha aqressiv idilər.

Bununla belə, ortaya çıxdı ki, əhalinin geniş kütlələri Tehranlı axundların fitnəsinə uyacaq qədər bəsirətsiz deyillər.

Ona görə də professor Əmirəhmədian "İran bu potensialdan heç vaxt istifadə etməyib" deyərkən yalan danışır. Həqiqət budur: İran o potensialdan istifadə edib, etməyə çalışıb, ancaq başarısız olub.

İndi gələk "o potensial"ın özünə. Azərbaycan əhalisinin böyük hissəsi şiədir, kəlmeyi-şəhadətlərini dilə gətirərkən "Əliyən vəliyulla" ("Əli Allahın valisidir") deyənlərdir. Bundan başqa, milyonlarca azərbaycanlı Aşurada meydanlara toplaşır, təziyə məclislərinə qatılırlar.

Ancaq bu, o demək deyil ki, sabah İrandan nəsə bir avantürist fətva gəlsə həmin milyonlar meydanlara toplaşar və İranın əlində dağıdıcı alətə çevrilər.

Bu, olmayacaq. Sadəcə, həmişə olduğu kimi, bir qrup adam tapılar ki, onlar ortaya atılaraq, həmin hərəkatın nüvəsi olmaq istəyərlər. Amma bu da dövlət strukturlarının qətiyyətindən asılı məsələdir. Onlar qətiyyətli, çevik, sayıq olsalar, həmin hərəkatın heç bir perspektivi ola bilməz. Yox, zəiflik etsələr, güzəştli mövqe tutsalar, tərəddüd göstərsələr, o zaman insanların dini amillərlə qızışdırılması dağdan qopub yuvarlanan qar uçqunu kimi olar, hər şeyi altına alar.

O başqa məsələdir ki, özünü dünya şiələrinin pasibanı elan edən İran nədən Azərbaycanın müsəlman-şiə əhalisinin ümdə maraqlarını ermənilərin ayağına verir.

Əlbəttə, İranın dövlət maraqları onun müdafiə etdiyi dini ideologiyadan, məzhəbçilik xəttindən daha güclüdür və İran Ermənistanla iqtisadi-siyasi-diplomatik münasibətlərini möhkəmləndirərkən sırf dövlət maraqlarını, dövlət təhlükəsizliyini nəzərə alır.

Bu baxımdan rəsmi Tehranın sonradan bölgə xalqlarının keşikçisi, din himayədarı kimi çıxış etməsi qeyri-səmimi aktlardır. Prinsipcə, Fələstin xalqına görə İsraillə düşmən olan dövlət Qarabağa görə də Ermənistanla düşmən olmalıydı.

Olmalıydı, olmur. Çünki İsrail düşmənçiliyi ilə yanaşı Ermənistanla dostluq Tehran üçün daha faydalıdır. Yaxud da belə hesab olunur.

Əslində, Tehranın qorxulu röyası bir gün İranda yaşayan azərbaycanlıların kütləvi şəkildə hökumətin üstünə qalxmasıdır.

Yaxşı olar ki, heç bir dövlət başqa dövlətin daxilindəki ərki ötən toplumu öz hökumətinin üzərinə qaldırmasın və bu faktordan şantaj məqsədi ilə istifadə etməsin. Təsirin əks-təsirə bərabər olmasına dair fizika qanunu hələ də keçərlidir.

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016



# Vəhşi pişiklər

Zamin HACI
zaminhaci@gmail.com

**Vaxtaşırı olaraq Nazirlər Kabinetindən ana dilimizi qorumaq haqda fəryadlar göyə bülənd olur. Orda hətta Tərcümə Mərkəzi daxilində dil pozuntularının monitorinqini qayıran nəsə idarə də vardır, dövlət büdcəsindən balaca bir məməcik tapıb əmməklə məşğuldurlar. Ancaq idarə özü dilimizə əməl edirmi? Gəlin sizə Nazirlər Kabinetinin qəttəzə bir qərarından - 18 dekabrda "İnzibati Xətalar Məcəlləsindən irəli gələn bəzi məsələlər" kimi idiotik ad daşıyan qərardan bir sitat oxuyum, bir şey başa düşsəniz Artur müəllimin qəbuluna yazılıb baş nazirin müavini vəzifəsinə iddianızı ortaya qoymaqda tam haqlı olduğunuz zərurətini bildirməkdən məmnunluq duyduğumu şərəflə ərz edirəm.**

Sitat: "Nəzərdə tutulan məbləğ məhkəmənin və ya səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati tənbeh tətbiq edilməsi və ya inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərarı əsasında qanuni nümayəndələrə onların yaşadığı yer üzrə ərazi maliyyə orqanları tərəfindən həmin şəxslər tərəfindən ərizə və məhkəmənin və ya səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı təqdim edildikdən sonra bir ay müddətindən gec olmayaraq veriləcək". Sitatın sonu.

Buna zəhmətkeşi dolamaq da demək olardı, ancaq zəhmətkeşin nə vecinədir?

Yeri gəlmişkən, bu yaxında bir qəzetdə də adamlara qoyduğumuz adların ərəb-farsca olmasından haqlı narahatlıq bildirilmiş, ağsaqqal məsləhəti kimi qabaqda gedən alimlərimizdən münasibət soruşulmuşdu. Alim sazı sinəsinə basıb demişdi ki, yaxşı olar uşağa Batuhan, Dinçər və Sezgin adları qoyulsun, çünki bunlar tərtəmiz bizim dildə olan adlardır. Nə deyəsən, alim sözündən çıxmaq olmaz.

Bir-iki ad da mən məsləhət görüm, AMEA Zoologiya İnstitutunda toyuq saxlamaq üzrə yarımştat alim kimi çalışıram, özümüzə görə alimik.

Misal üçün, Sezgin adı varsa mütləq Bezgin adı da olmalıdır, indi xalq yaşayışından bezibdir. Yaxud hansısa səfirə terror olan gün doğulan uşağın adını Çezgin qoymağın nəyi pisdir? Yeri gələndə Çingizxan adına bənzəyir. Yatıxan (yuxulu uşaq üçün), Pencər (vegetarian ər, igid deməkdir), Bəbirgin, Didərgin, Qaçqınxan, Köçkünbəy, Manatdur, Dollarvar və sairə çağdaş adlar ölkəmizi bəzəyər.

Bəbiri havadan yazmadım, təzəlikcə "National Geographic" jurnalı bizim Hirkan qoruğunda bəbirin tapılması haqda kinosunu göstərdi, hamımız baxıb sevindik. Ancaq sənədli film məndə bir az şübhə doğurdu, çünki müəllif bəbiri tapa bilməmişdi. Kinodan belə məlum olurdu rejissor gəlib dağlara, bizim hökumətin yardımı ilə çoxlu video-foto-tələlər quraşdırıb, gedib. Sonra gəlib həmin qurğulardan bəbirin çəkilişini çıxartdı, dedi çəkmişəm. İndi biz hardan bilək o videodakı bəbirlər başqa yerdə, misal üçün, qonşu İranda çəkilməyib? Orda bəbirin yaşaması məlumdur. Biz isə hər cür saxtakarlığa öyrəşmiş adamlarıq. Ola bilsin ingilis qardaş da bəbiri tapa bilməyəndən sonra yapistlərdən və "NG"dən aldığı çoxlu pulları yumaq üçün belə bir zad düzəldibdir. Nəticədə hamı razı qalıb: həm bu pişiklərə konfrans düzəldib şellənən hakimiyyət, həm kinonu çəkən, həm də respublikamızın dünya şöhrətindən başı gicəllənən zəhmətkeşlərimiz. Bəs bəbir hanı? Bəbir isə ancaq şəkil kimi vardır. Vallah, bunu fikirləşən uşaqlara halaldır. Ümid edirəm yaxın illərdə Kürdəmir savannalarında fil tapılması haqda maraqlı filmlər görəcəyik. Mən özüm hərdən Binəqədi yollarındakı gölməçələrdə begemota rastlanıram.

Nə olsun manat ölüb, basdıran yoxdur, bizdə belə istiqamətlərə həmişə pul tapılır.

Sözgəlişi, o bəbirlər haqda filmdə ən xoşuma gələn epizod Babaxan adlı yerli sakinin həyatı idi. Demək, Babaxan bəy orda meşədə evi olan, ağaca dırmaşan, özünü Tarzan kimi aparan bir kadr idi. O qədər koloritli adam idi ki, bəbirin tapılmadığını bütün kino ərzində ört-basdır edirdi. Misal üçün, düz yerdə getdiyi yerdə heç ehtiyac olmadan hoppanıb ağaca çıxırdı, ya da bəbir səsi çıxarıb kameraya cırmaq atırdı. Sağ olsun, uca millətimizi dünyada çox yaxşı tanıtdı. Biz dünyaya göstərdik ki, meşələrimizdə bəbir olmasa özümüz bəbir ştatına girərik, təki hökumət narazı qalmasın, vəhşi pişikləri qoruma projeləri batmasın.

# Amerika bu dəfə də Güləni Türkiyəyə verməzsə...

## Qabil Hüseynli: "O, ABŞ tərəfindən lazımlı şəxs kimi qorunacaq"

**Hazırda Pensilvaniyada yaşayan Fətullah Güləni ABŞ-ın Türkiyəyə verib-verməyəcəyi məsələsi yenidən gündəmə gəlib. Qardaş ölkənin 15 iyul qiyamından sonra ikinci dəfə FETÖ liderini rəsmi şəkildə Vaşinqtondan tələb edəcəyi deyilir.**



Buna səbəb kimi Ankarada rus səfirinin qətlində FETÖ izinin olması ilə bağlı iddialardır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rus səfirini öldürən terrorçunun FETÖ üzvü olduğunu bildirib. Bütün bunlar növbəti dəfə qardaş ölkənin Güləni Amerikadan istəyəcəyini göstərir.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli** hesab edir ki, Amerikanın yeni prezidenti Donald Tramp rəsmi şəkildə postunda əyləşənə qədər Gülən məsələsi bu şəkildə də qalacaq: "Barak Obama administrasiyası hakimiyyətlə vidalaşana qədər bu məsələdə heç nə dəyişməyəcək. Türkiyənin Gülənin ekstradisiya olunması ilə bağlı müraciətinə mənfi cavab veriləcək. Qətlin baş verdiyi indiki vaxtda bu terrorda Amerikanın əlinin olması, Gülənin rəhbərlik etdiyi təşkilat tərəfindən həyata keçirilməsi ilə bağlı iddialar bu məsələni daha da qəlizləşdirir. Amerika buna etiraz etsə də, aparılan tədqiqat işlərinə yardım göstərmək istədiyini desə də, Türkiyə tərəfi israrla qətlin Gülən tərəfindən planlaşdırıldığını bildirir. Hələ ki ortada ciddi bir fakt yoxdur. Türkiyə tərəfi ortaya dəlil-sübutlar qoymalıdır. Onsuz da indiyə qədər Gülənlə bağlı ABŞ-a göndərilən dosyelər məhkəmə tərəfindən araşdırılıb və onun təqsirli olmadığı qənaətinə gəlinib. Bu səbəbdən o, Türkiyəyə təslim edilməyib. Düşünürəm ki, indiki şəraitdə ABŞ Güləni Türkiyəyə təhvil verib, istintaqda öz əleyhinə ittihamların səsləndirilməsinə şərait yaratmaz. Çünki yaşlı və xəstə bir adamdan istənilən suallara müsbət cavab almaq o qədər də çətin deyil. İkinci dəfə Gülən Vaşinqtondan istənilə bilər, amma bu dəfə də cavab mütləq mənfi olacaq. Lakin Trampın inauqurasiya mərasimindən sonra vəziyyət dəyişə bilər. Ola bilsin ki, Türkiyə bu məsələni Trampın inauqurasiyasından sonraya saxlasın. O zaman da ola bilər ki, bu məsələnin həllinə nail olsun. Çox mürəkkəb və yozulması çətin olan situasiya yaranıb. Burada Türkiyə özünü tam təmizə çıxarmağa çalışır. Halbuki qətl zamanı həmin sərgi salonunu qoruyan polis və mühafizəçilər ciddi səhlənkarlığa yol veriblər. Uzun müddət səfirin can verən bədəninə yaxınlaşmağa cəsarət etməyiblər, buna da terror ola biləcəyi, terrorçunun atəş açdığı əsas gətirilib. Dolaşıq məsələlər çoxdur. Rusiya ilə birgə istintaq qrupu yaradılıb. Bu qrup faktları araşdıracaq. Bundan sonra ümumi qənaətə gələnəcək. Türk mənsubiyyətinə məxsus olsa da, terrorçu öz hərəkəti ilə Türkiyəyə böyük zərbə vurub, onun imicinə xələl gətirib. Qətlin motivləri, onun arxasında duran təşkilat və şəxslər doğru-dürüst şəkildə aşkara çıxarılmalıdır. Səriştəli və obyektiv istintaqçılar işi aparmalıdırlar. Sui-qəsdçinin ərəb dilini yaxşı bilməsi, Hələblə bağlı fikirləri və eləcə də mühafizəçilərin onu uzun müddət zərərsizləşdirməmələri ziddiyyətli fikirlər yaradır. Burada FETÖ izinə kölgə salmaq fikrində deyiləm. Bu şəxsin "əl-Qaidə" təşkilatına üzv olub-olmamasının araşdırılması bir çox mətləblərin üstünə işıq salardı. Gülənin verilməsi ilə bu məsələnin qapadılmasına ümid etmək, qətlin tam açılması anlamına gəlməməlidir. Hər gün bir az da bu işin ciddi istintaqa ehtiyacının olduğu üzə çıxır".

**Politoloq Güləni Amerika üçün vazkeçilməz edən hallara da toxundu:** "Bu, çox təəccüblü məsələdir. Əvvəllər ABŞ Gülənin üstündə duranda ona İslam dinini modernləşdirəcək, dünya dinlərinə uyğunlaşdıracaq bir şəxs kimi yanaşırdı. Buna görə onu uzun müddət himayə etmişdi. Gülən reallıqla Türkiyədə böyük bir toplumun rəğbətini qazanan şəxsdir. Son dövrlərdə Ərdoğanın Qərblə bağlı siyasətində müəyyən dəyişikliklərin əmələ gəlməsi, xüsusilə Avropa İttifaqı və NATO ilə bağlı sərt fikirlər səsləndirməsi münasibətləri xeyli soyuqlaşdırmışdı. Bunun fonunda Gülənin Amerika və Qərb üçün dəyəri xeyli artmışdı. Güman edirəm ki, Türkiyədə hələ də Gülənin təsirləri güclü olaraq qalır. Bu təsirlər qalana qədər o, ABŞ tərəfindən lazımlı şəxs kimi qorunacaq".

❑ Cavanşir ABBASLI

# Azərbaycanın tələb etdiyi israilli bloggerlə bağlı müəmma

## Ekspert: "Ermənilərin məqsədi odur ki, məhz İsraillə Azərbaycanın arasını vursunlar"

**Azərbaycanın işğal altında olan torpaqlarına qanunsuz səfər edən, öz bloqunda Dağlıq Qarabağı "müstəqil respublika" kimi qeyd edən israilli blogger Aleksandr Lapşinin ölkəmizə ekstradisiya olunması yubanır. İsrail Xarici İşlər Nazirliyinin rəsmi nümayəndələri də Belarus hökumətindən Minskdə saxlanılan A.Lapşini ekstradisiya etməməyi və onunla görüşə icazə verilməsini xahiş edib.**



Vəziyyətin nə ilə nəticələnəcəyi ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, burada bir neçə məqam var: "İllərdir görünən budur ki, murdar işlər, konfliktlər yaratmağı dünyada ən yaxşı bacaranlar ermənilərdir. Onlar adamları seçib istifadə edərkən əsas məqsəd kimi düşünürlər ki, nəticə Azərbaycan üçün xeyli ağır olsun. İndi də gedib hansısa üsulla İsrail vətəndaşını ələ alıb, Dağlıq Qarabağa gətiriblər. Burada bir məqam da var ki, Lapşin təkcə İsrail vətəndaşı deyil. O, 3-4 ölkənin vətəndaşıdır və cibində həmin dövlətlərin pasportunu da gəzdirir. Hara lazımdırsa, orada müvafiq pasportu təqdim edir. Görünür, Dağlıq Qarabağa gedəndə də ermənilərin göstərişi ilə İsrail pasportundan istifadə edib. Burada ermənilərin məqsədi odur ki, məhz İsraillə Azərbaycanın arasını vursunlar. Dünyada belə dövlətlər çoxdur ki, onlar öz vətəndaşlarını mühakimə etmək üçün başqa dövlətlərə vermirlər. İsrail də belə dövlətlərdəndir. Lakin burada iki vacib nüans var. Belə ki, o, İsrail vətəndaşıdır, ancaq hansısa bir maraq üzündən, yaxud da təsadüfən Dağlıq Qarabağa getməyib. İsrail vətəndaşının Dağlıq Qarabağa səfəri məhz erməni planının tərkib hissəsidir. İsrailin əlində dəqiq məlumatlar var ki, ermənilər kimlərlə əməkdaşlıq edir və İsraildə doğru hansı qaydada müraciətlər ediblər".

**Ekspert bildirib ki, İsrail Xarici İşlər Nazirliyinin məsələ ilə əlaqədar verdiyi bəyanat və ilk nümayiş etdirdiyi mövqe zəruridir:** "İsrail Xarici İşlər Nazirliyi öz vətəndaşları qarşısında hesabat verir. Buna görə də o göstərməlidir ki, vətəndaşının hüquqlarını müdafiə etmək üçün zəruri addımı atıb. Lakin eyni zamanda bir məsələ də var ki, Azərbaycan tərəfi də artıq məlumat mübadiləsinə qoşulub. Ola bilər ki, İsrail Azərbaycandan gələn məlumatlarla tanış olduqdan sonra özü vətəndaşını bizim qanunvericilikdə olan qaydalardan daha sərt formada cəzalandırsın. Bu və ya digər dərəcədə onun mühakiməsində Azərbaycanın hüquqşünasları, rəsmiləri də iştirak edə bilərlər. İsrail erməni təxribatına uyub, Azərbaycana qarşı iş görən vətəndaşını sərbəst buraxmayacaq. Bu, mümkün olan deyil. İsrailin bu gün müsəlman dövlətləri ilə əlaqələrinə ciddi ehtiyacı var. Xristian dövlətləri ilə əlaqələri kifayət qədər olsa da, müsəlman dünyasında İsrail yalnız Azərbaycan, Türkiyə və Qazaxıstanla yaxınlıq edir. Bu dövlətlərdən İsrailin Azərbaycanla olan münasibəti daha dərin və xüsusidir. Ona görə də hesab edirəm ki, İsrail Ermənistanı itirməklə, elə bir böyük itki yaşamır. Bu baxımdan, düşünürəm ki, hətta İsrail həmin vətəndaşının Azərbaycanda mühakimə edilməsinə göz yumacaq. Yaxud da özü cəzalandıracaqsa, bu, xeyli dərəcədə sərt cəza olacaq. Bu məsələdən nəticə üzrə ən azı 5-6 ay lazım olacaq. Bu müddət ərzində İsrail Azərbaycandan sərt imtina edərsə, Belarusa nota verərsə, bu formada öz vətəndaşını geriyə almaq üçün addımlar atarsa, təbii ki, münasibətlərə təsiri olar".

**Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin də mövqeyini öyrənməyə çalışdıq. Lakin əlaqə cəhdimiz nəticəsiz qaldı.**

❑ Əli RAİS

# Düşmən ölkənin rejim başçısı çıxılmaz durumda



# Sərkisyana ABŞ-dan zərbə-sülh prosesi də onun sonunu gətirir

## Ruhaninin İrəvan səfəri ərəfəsində erməni diasporunun fəal üzvü Bakı platformasına qoşuldu; Tehran isə Qarabağ məsələsində növbəti riyakarlığa imza atdı - İran prezidenti Bakıda söylədiyini İrəvanda bəyanlamağa cürət etmədi

**İran prezidenti Həsən Ruhaninin Ermənistan səfəri ilə bağlı bədbin gözləntilər doğruldu. Ruhani İrəvanda saxta soyqırım abidəsini ziyarət edib qardaş Türkiyəni incitməyə cürətlənməsə də, bu yay Bakıda Dağlıq Qarabağla bağlı verdiyi bəyanatını Ermənistanda təkrarlamağa da ürəklənmədi, erməni dostlarını umsuq etmədi. Bu, əlbəttə ki, cənub qonşumuzun Qarabağ məsələsində növbəti riyakarlığıdır.**

Xatırladaq ki, cənab Ruhani son Bakı səfəri zamanı İranın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan eləmişdi. Eyni sözü o, işğalçı ölkənin paytaxtında dilə gətirmədi, yalnız "münaqişənin hərbi yolla həlli yoxdur", "konflikt beynəlxalq prinsiplər əsasında çözülməlidir" kimi ümumi, şablon ifadələrlə yetərləndi. Beynəlxalq prinsiplərə isə öz müqəddəratını təyinetmə haqqı da daxildir.

Üstəlik, İrəvanda iki ölkə arasında imzalanan sənədlər, verilən ortaq bəyanat birbaşa Ermənistanın iqtisadi imkanlarını artırmaq, işğalçını tranzit ölkəyə çevirmək, nəticə etibarilə təcavüzkarı gücləndirmək, ayaqda saxlamaq məramından xəbər verir ki, bu da yüzdə yüz Azərbaycanın əleyhinə olan anlaşmalardır. Bunun üstündən Ruhaninin İrəvanda "Azərbaycan da bizə dost ölkədir" deməsi ikinci bir siyasi riyakarlıqdır.

Beləcə, özünü müsəlman dövləti sayan İran müsəlman torpaqlarını üçüncü on ildir işğal altında saxlayan Ermənistanı gücləndirməyə çalışmaqla, faktiki, işğal rejiminin uzanmasına yardım edir. İranın "müsəlman düşməni" elan elədiyi İsrail isə tam əksinə - Azərbaycan ordusuna modern silahlar verməklə, ölkəmizin hərbi qüdrətini artırmaqla faktiki, müsəlman torpaqlarının azad olunmasına çalışır.

İndi bu, müsəlman-şiə İranın bizə - müsəlman-şiələrə münasibəti, bu da qeyri-müsəlman ölkənin yanaşması. Elə isə nədən biz yəhudi dövləti ilə əməkdaşlığımızı daha da dərinləşdirməyək? Sual ortaya çıxır, İran nə vaxt Ermənistanı təcavüzkarı adlandırdı, işğal rejiminin bitməsinə hansı töhfəni verdi ki, biz onu İsraildən üstün tutmaq üçün əsaslara malik olaq?

***

Bu arada İranın qucaq açdığı işğalçıya qarşı Azərbaycanın başlatdığı hibrid savaşı uğurla davam edir. Özü də növbəti uğur məhz Ruhani İrəvanda ikən qeydə alınıb. ABŞ-dakı erməni diasporunun nümayəndəsi, ictimai fəal Anait Sinanyan 2016-cı ilin noyabrında Azərbaycan və Ermənistan aktivistlərinin təşəbbüsü ilə qurulan "Ermənistan və Azərbaycan arasında sülh üçün platforma"nı *(Bakı platforması)* imzalayıb.

Anait Sinanyan hazırda Nyu-Yorkda yaşayır. O, hüquqşünaslıq sahəsində mütəxəssis olub, Ermənistanın ABŞ səfirliyi önündə siyasi dustaqların hüquqlarının müdafiəsi ilə bağlı aksiyalarda iştirak edib. Ermənistan və erməni diasporundan olan bir çox ictimai fəallar kimi, o da Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında nizaamlanmasının tərəfdarı olduğunu bildirib (haqqin.az).

Yada salaq ki, Sinanyana qədər Bakı bəyannaməsinə altı erməni ictimai xadimi və fəalı - Vaha Avetyan, Vahan Martirosyan, Süzan Caginyan, Lisine Nersesyan, Armen Virabyan, son olaraq isə Ukraynada yaşayan Aram Karapetyan imza atıblar. Bununla da sənədə qoşulan erməni fəalların sayə 7-yə çatıb. Diqqətçəkicidir ki, onların arasında Dağlıq Qarabağ yaşayan erməni və diasporunun üzvləri də var.

***

Ötən saylarımızda yazdığımız kimi, öz xalqını qorxu-ürkü altında saxlayan Sərkisyan rejiminin təbliğat maşınına başqa bir zərbəni Belarus vura bilər. Söhbət Dağlıq Qarabağa qanunsuz səfərlər etdiyinə və separatçı rejimi təbliğ etdiyinə görə barəsində cinayət işi qaldırılan, Azərbaycan hüquq-mühafizə orqanlarının sorğusu əsasında Belarusda həbs olunan bloqqer Aleksandr Lapşinin ölkəmizə gözlənilən ekstradisiyasından gedir. Baş tutarsa, o zaman bu, Qarabağ münaqişəsi tarixində ilk belə insident, separatçı rejimin təbliğatçılarına isə ciddi görk və xəbərdarlıq olacaq.

Bəllidir ki, Lapşin haqqında 2 aylıq həbs-qətimkan tədbiri seçilib. Az sonra xəbərlər yayıldı ki, onun yəhudi əsilli olması və İsrail vətəndaşlığı da daşıması səbəbilə İsrail XİN hərəkətə keçib və ekstradisiyanı əngəlləməyə çalışır. Ümid edək ki, beynəlxalq hüquqa sayğılı yanaşan yəhudi dövləti işin mahiyyətini nəzərə alıb da çox dərinə getməyəcək, inkişafda olan əlaqələrimizə xələl gətirəcək xahiş-minnətlərdə bulunmayacaq.

Axı hər bir dövlətin intizamlı təbəələri kimi, sapqın, cinayətkar vətəndaşları da olur. Lapşin yalnız o halda əfv oluna bilər ki, öz hərəkətlərindən peşmançılıq hissi keçirdiyini bildirsin, Azərbaycan xalqından üzr istəsin və ölkəmizin ərazi bütövlüyünü tanıdığını bildirsin. Yoxsa Ermənistanı işğalçı saymayan Həsən Ruhani ilə separatçı rejimi təbliğ edən yəhudi Lapşin arasında nə fərq oldu ki?..

❑ **Analitik xidmət**



# "İran Azərbaycanı dövlət kimi tanımaqda tərəddüd etmişdi"

## Şahin Cəfərli: "Söhbət 1992-ci ildə Qarabağ müharibəsinin qızğın vaxtında Ermənistanı yanacaqla təmin edən ölkədən gedir"

**"İranın regional siyasətində hər hansı prinsipial dəyişiklik və yenilik yoxdur. Azərbaycan və Ermənistan müstəqillik qazandığı ilk günlərdən İran bu bölgədə hansı siyasəti yeridirdisə, indi də aşağı-yuxarı həmin siyasəti yeridir. Yəni strategiya eynidir".**

**Politoloq Şahin Cəfərli** bunu İran prezidenti Həsən Ruhaninin İrəvan səfərini "Yeni Müsavat"a şərh edərkən bildirdi. Ekspert qeyd etdi ki, söhbət 1992-ci ildə Qarabağ müharibəsinin qızğın vaxtında Ermənistanı yanacaqla təmin edən ölkədən gedir: "Yadınızdadırsa, İran hətta Azərbaycanı dövlət kimi tanımaq məsələsində tərəddüd etmişdi, bunun səbəbi yeni dövlətin Azərbaycan adlanması idi. İranın bu addan çəkinməsinin səbəbi hamıya bəllidir, ona görə bu məsələnin üzərində geniş dayanmadan onu qeyd etmək istərdim ki, İran müstəqil Azərbaycan dövlətinin mövcudluğuna ehtiyatla yanaşır və özü üçün bizdən qaynaqlanan müəyyən təhlükələr görür. Bu, hər şeydən əvvəl Azərbaycan dövlətinin dünyəvi xarakteri və onun siyasəti ilə əlaqədardır. Azərbaycan əhalisinin əksəriyyətinin İranın rəsmi məzhəbi ilə eyniliyə baxmayaraq, sekulyar yaşam tərzinə üstünlük verməsi, dövlətin İranın təsir dairəsində olan dinçi-məzhəbçi qruplara qarşı sərt mövqeyi, eyni zamanda Azərbaycanın İsrail və Qərb dövlətləri ilə yaxın əlaqələri İranda qıcıq yaradan başlıca amillərdir". **Ş.Cəfərlinin fikrincə, rəsmi Tehran Azərbaycanın güclənməsini, inkişafını və beləliklə, İrandakı azərbaycanlı-türk əhali üçün cazibə mərkəzi halına gəlməsini arzulamır, qorxur ki, bu amil həmin əhali təbəqəsində birləşmə meylləri yarada bilər, bu isə son nəticədə İran dövlətinin bütövlüyünə təhlükə yaradar:** "Tehranda hesab edirlər ki, Azərbaycanın İsraillə əlaqələrini dərinləşdirməsi onun təhlükəsizlik maraqlarına təhdid yaradır. Netanyahunun son Bakı səfərinə İrandakı reaksiyalar məhz bundan irəli gəlirdi. İran təbii ki, bizə düşmən deyil, sadəcə olaraq, istəyir ki, biz onların kiçik qardaşı roluna razılaşaq. Lakin İran anlamalıdır ki, Azərbaycan müstəqil dövlətdir və öz qərarlarını özü verir. Əgər İran müstəqilliyin ilk illərindən bizə səmimi dəstək versəydi, Azərbaycanda böyük nüfuz qazana bilərdi, eyni zamanda Azərbaycan dövləti öz xarici siyasətində İranın maraqlarını da nəzərə almağa çalışardı. İranın işğalçı Ermənistanla münasibətlərini inkişaf etdirdiyi bir dövrdə Azərbaycanın da İranın maraqlarına zidd addımlar atması, İsraillə, Qərblə əlaqələrini inkişaf etdirməsi təbiidir və zəruridir".

❑ **Cavid TURAN**

# İŞİD-in Azərbaycanı hədəf seçməsinin pərdəarxası

## İlham İsmayıl: "Hərdən yadlarına salırlar"

**İŞİD terror təşkilatı Azərbaycanı növbəti dəfə hədəfə alıb. Terror qruplaşması rus səfiri Andrey Karlovun Ankarada öldürülməsindən sonra şimal qonşumuzun hansı ölkələrdəki səfirliklərinin hücumlara məruz qalacağına dair PDF formatında siyahı və səfirliklərin yerləşdikləri ünvanları yayıb.**

Həmin siyahıda Rusiyanın Bakıda yerləşən səfirliyinin də adı keçir. Göründüyü kimi, ölkəmiz növbəti dəfə terror hədəfindədir. Xatırladaq ki, bu, İŞİD-in Azərbaycanı hədəf seçdiyi ilk hal deyil. Ötən ilin yayında terror təşkilatı quracağı "xilafət xəritəsinə" ölkəmizin də adını salmış, onu "Qafqazın bir əyaləti" kimi göstərmişdi.



Azərbaycanın İŞİD-in hərbi planda cəzalandırılması prosesində iştirak etməməsini nəzərə alsaq, terror qruplaşmasının son illərdə ölkəmizi hədəfə alma hallarının artması ciddi suallar doğurur. Ekspertlərin bu barədə fikirləri müxtəlifdir. Kimisi ölkəmizin neftini, təbii sərvətlərini, kimisi isə yerləşdiyi strateji mövqeyi göstərir. Azərbaycanın hədəf seçilməsinə səbəb kimi daha bir mövqe də var. Bu da son illərdə İŞİD-ə qarşı aparılan əməliyyatlardan sonra onun üzvlərinin Şimalı Qafqaza səpələnməsi, eləcə də bu terror təşkilatının tərkibində döyüşən azərbaycanlıların ölkəyə qayıtdıqdan sonra həbs olunmalarıdır.

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bildirdi ki, Azərbaycan da digər müsəlman ölkələri kimi hədəfə alınır:** "İndoneziyadan tutmuş Azərbaycana qədər İŞİD hər cəhətdən bütün İslam dövlətlərini hədəfə alır. Bu müsəlman ölkələrindən onların tərkibində vuruşan çoxsaylı terrorçular var. Onlar inanclı adamlar deyillər. Hər ölkədən 1-2 şəxsi rəhbər seçirlər, sonra da onlar vasitəsilə hədələr, təhdidlər səsləndirirlər. Səfirin öldürülməsi ilə bağlı, açığı, İŞİD-in əlinin olması az inandırıcıdır. Sadəcə olaraq, rus səfiri öldürüləndən sonra belə fikirlər səsləndirə bilərlər ki, harada gəldi rus səfirlərini öldürəcəyik, ən çox da İslam dövlətlərində. Hədəf hələ ki İŞİD-in ətrafında olan ölkələrdir. Türkiyə, İraq, Suriyanın özü və digər bu tipli ölkələr hədəfdədir. Şimali Qafqazdan İŞİD-in tərkibində vuruşan xeyli sayda insanlar var. Biz İŞİD-in hədəfində olan ilk onluqda belə deyilik. Biz kənardayıq, sadəcə, İslam ölkəsi olduğumuza görə hərdən yadlarına salırlar. Rusiya hədəfdə olmadığına görə bu ölkəni Azərbaycandan hədəf almağa heç bir ehtiyac yoxdur. İŞİD-in tərkibində ərəb və türklərdən sonra ən çox ruslardır. Bu baxımdan, onlar sağ əlləri ilə son qulaqlarını qaşımayacaqlar. Rusiyaya təzyiq etmək istəsələr, elə Şimalı Qafqazda münbit şərait var, bu vasitə ilə edərlər. Belə məsələlərin gündəmə gəlməsinin o xeyri ola bilər ki, təhlükəsizliyimizi daim ayıq-sayıq saxlayaq. Amma bəzi məsələlərdə özümüzü çox böyüdürük. Bir də görə bilərik ki, İŞİD-in, onun yalançı bayrağı altında heç dinlə bağlı olmayan qüvvələr sabitliyi pozmaq üçün belə addım atıblar. Zaman-zaman bu tipli hadisələrin çox şahidi olmuşuq, bir siyasətçi, yaxud hər hansı bir səbəblə bağlı kimisə hədəfə alıb, amma sonradan tamam başqa yerdən bu iş həyata keçirilib, hər şey də həmin siyasətçinin, yaxud jurnalistin üzərində qalıb. Bütün bunları nəzərə almaq lazımdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016



# Qatilin göyə qalxan barmaği...

## İlginc əl işarələri və onların verdiyi mesajlar



**Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov Ankarada qatıldığı bir fotosərgidə qətlə yetirildi. Bu terror və onun təşkili, məqsədi ilə bağlı xeyli suallar hələ də cavabını tapmayıb.**

1994-cü il təvəllüdlü Mövlud Mərd Altıntaş tərəfindən qətlə yetirilən səfirlə bağlı sui-qəsd görüntüləri də müzakirə olunur. Həmin səhnəni izləyənlər xatırlayır: Olay anını əks etdirən videogörüntülərdə Altıntaş atəş açdıqdan sonra təkbir gətirir, şəhadət barmağını göyə qaldırıb, aşağıdakıları deyir: "Allahu əkbər. Hələbi unutmayın, Suriyanı unutmayın. Bəndələrimiz təhlükəsizlikdə olmadıqca siz də təhlükəsizliyi dada bilməyəcəksiz. Məni burdan ancaq ölüm ala bilər. Bu zülmdə payı olan kim varsa, hamısı tək-tək hesabını verəcək, verəcək..."



Sözlərindən daha çox bütün fotolarda Altıntaşın şəhadət işarəsi göstərməsi diqqət çəkir. Nə demək istəyib? Ümumiyyətlə, əl işarələrinin mənası nədir? Hansı barmaq hansı mənaya gəlir, hansı mesajı verir?

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, bununla bağlı bir arayış hazırlayıb. Gün içərisində tez-tez istifadə etdiyimiz barmaq jestlərinin, digər jestlərin gerçək mənaları nələrdir?

**1.Ok (əla, tamam) işarəsi**

Avstraliya, ABŞ, Britaniya və Kanadada razılıq anlamı verir. Braziliyada eyni hərəkəti əllərini tərs çevirib etsən, həqarət olaraq qəbul edərlər.

**2. Buynuz barmaqlar işarəsi**

ABŞ-da rokun simvolu olaraq istifadə olunur. İtaliya, Braziliya, Portuqaliya və İspaniyada isə "həyat yoldaşın səni aldadır" mənasını verir.

**3. Birləşmiş barmaqlar**

İtaliyada "Bu nədir? Nə istəyirsən?", Konqoda "kiçik bir miqdar", Türkiyədə gözəllik, yaxşılıq, Misirdə isə "1 dəqiqə" deməkdir.

**4. Baş barmaq hərəkəti**

ABŞ, Avstraliya, Britaniya, Kanada və Rusiyada razılıq vermə işarəsi, Latin Amerikası, Qərbi Afrika, İran, Iraq və Əfqanıstanda isə "get burdan" mənasını verir.

**5. Düyünlənən barmaqlar**

Avstraliya, ABŞ, Britaniya, Kanadada "gözəl şanslar", Vyetnamda isə qadının cinsiyyət orqanı anlamına gəlir.

**6. V işarəsi**

ABŞ-da sülh, qələbə, Avstraliya, Britaniya, İrlandiya, Yeni Zelandiyada isə üsyan mənasını verir.

**7. "Gəl bura" işarəsi**

Avstraliya, ABŞ, Britaniya və Kanadada kimisə çağırmaq üçün istifadə edilir. Filippinlərdə isə başqa bir insana qarşı istifadə edəndə təhqir kimi qəbul olunur. Çünki bu, bir qayda olaraq itləri çağırmaq üçün istifadə edilir.

**8. Nöqtə işarəsi**

Belçika, Hollandiya, Almaniya, Avstraliyada "2" mənasında, Çində isə "8" mənasında, İtaliyada isə yaxşı olmayan bir şey mənasında istifadə ediilir.

**9. Əli aşağıya doğru sallamaq**

Avstraliya, ABŞ, Britaniya və Kanadada "get" mənasında, Vyentam, Hindistan və Qanada isə "gəl" mənasındadır.

**10. Çənə silkələmək**

Fransa, Belçika, Tunisdə diqqətsizliyi göstərmək və kiməsə "cəhənnəm ol buradan" deməyin qısa yoludur. İtaliyada isə "Vecimə də deyil" mənasındadır.

**11. Yumruq işarəsi**

Avstraliya, ABŞ, Britaniya və Kanada, Meksika, Cənubi Amerikada "facano" adlandırılan bu hərəkət "xəsis" mənasına gəlir. Avstriya, Almaniyada isə "beynin biləyində dayanır" deməkdir.

**12. Alında yumruq**

Braziliyada axmaqlıq mənasında istifadə olunur.

**13. Baş barmaq, iki barmaq arasında.**

Britaniya, Kanada və Avstraliyada uşaqlarla oynanılan "Burnunu oğurladım" oyunudur. Azərbaycan daxil, bəzi ölkələrdə isə təhqiramiz mesaj verən hərəkətdir, qarşı tərəfi aşağılamaq üçün istifadə olunur.

**14. Orta barmaq**

Hər millətin fərqli ox atma şəkilləri var. İngilis və fransızlar isə oxlarını orta barmaqla atardı. Yüzillik müharibələr zamanında hər iki tərəf də qarşı tərəfin oxatanını əsir alanda təkrar istifadə etməməsi üçün orta barmağını kəsərdi. Bu səbəbdən də bir-birinə meydan oxuyan iki tərəfin əsgərləri orta barmaqlarını bir-birinə havada göstərməklə əsir alınmadıqlarını və müharibəyə hazır olduqlarını göstərirdi.

❑ **Sevinc TELMANQIZI**



# Oliqarxların Bakıda gəzən "avto-terrorçuları"

## Zahid Oruc: "Avtobus sürücüləri ilə bağlı köklü, sistemli və genişmiqyaslı addımlar atmalıyıq"

## İlqar Hüseynov: "Qəzanı törədən sürücü ilə yanaşı, avtobusun məxsus olduğu şirkət də cəzalandırılmalıdır"

**Bakıda avtobus "terroru" səngimir. Dekabrın 21-də Bakıda avtobus sürücüləri daha bir neçə qəza törədiblər, bir neçə nəfər ölüb, bir neçə nəfər yaralanıb. Dekabrın 22-də Bakının Suraxanı rayonu, Hövsan qəsəbəsində 132 saylı sərnişin avtobusu Eldar Fərəcov adlı qəzet əməkdaşını vuraraq öldürüb. Ümumiyyətlə, son 1 həftənin statistikasına diqqət etsək, marşrut avtobuslarının daha necə sərnişinin həyatına bais olduğunu görərik. Avtobus "terrorunun" qurbanları arasında hətta 13 yaşlı məktəbli də var.**

Hər bir avtobus şirkətinin arxasında bir oliqarxın durduğu hər kəsə məlumdur. Avtobus şirkətlərinin arxasında duran oliqarxların təzyiqi nəticəsində sürücülərə nəzarət ciddi olmur, onları ancaq qeyri-peşəkar, sürücülük vəsiqəsi belə olmayan şəxslərə avtobus verib, pul qazanmaq maraqlandırır. Avtobuslara qrafiki də, sürücünü də məhz oliqarxların idarəsində olan bu avtobus şirkətləri təyin edir. "BakuBus" avtobuslarından başqa digər avtobusların bir-biri ilə dəqiqə yarışına çıxdığının şahidi olmuşuq. Bu da onların konkret olaraq maaş sistemi ilə işləməməsindən irəli gəlir.

**Təəssüflər olsun ki, bütün bunların qarşısını almaq üçün zaman-zaman müxtəlif tədbirlər görülsə də, müsbətə doğru bir dəyişiklik baş verməyib. Bakı Nəqliyyat Agentliyinin (BNA) baş direktoru Vüsal Kərimli bugünlərdə rəhbərlik etdiyi qurumun 1 illik fəaliyyəti ilə bağlı keçirilən mətbuat konfransında çıxışı zamanı ictimai nəqliyyatda sürücülərlə bağlı ciddi işlər görüləcəyini, vahid sürücü məlumat bazası yaradılacağını deyib:** "Bu bazada sürücülərlə bağlı məlumatlar yerləşdiriləcək. Artıq sahibkar özü sürücü seçə bilməyəcək. Avtobus sürücülərinə dövlət nəzarəti olacaq. Əgər hər hansı sürücü qanuna zidd hərəkətlər edərsə, digər daşıyıcılarda çalışa bilməyəcək. Bununla bağlı müvafiq işlər görüləcək".

V. Kərimli təmir imkanları olmayan avtobus şirkətlərinin çalışmasına icazə verilməyəcəyini bildirib.

Başqa hansı tədbirlər görülməlidir, cəzalar sərtləşdirilə bilərmi?

**Deputat Zahid Oruc avtobusların hamısının kart sisteminə keçməsinin və sürücülərin işlədikləri 8 saata görə əmək haqqı almasının tərəfdarı olduğunu dedi:** "Yol qəzalarında həyatını itirən insanlar barədə hər yerdə, mediada, cəmiyyət içərisində, parlamentdə dəfələrlə narahatçılıqlar bildirilib və bu problemin çözüm yolları axtarılıb. Bunun bir tərəfdən qanunvericilik bazasının sərtləşdirilməsi yolu ilə həll edilməsi təklifləri olub. Başqa tərəfdən, cəmiyyətin



özünün də dəyərlər sisteminə, həyatına münasibətdə bu məqamları nəzərə alması istənilib. 2016-cı ildə yol qəzalarında ölənlərin sayı 683 nəfərdir. Bu, müharibə itkilərinə bənzəyir. Türklər ona haqlı olaraq "trafik canavarı" deyirlər. Məsələni həll etmək üçün qanunvericilikdə çox ciddi normativ dəyişikliklərə gedirlər. Həm sürücülərin yaşı, reydlərə çıxan şəxslərlə bağlı tələblərin sərtləşdirilməsi yönündə addımlar atıldı. Ancaq problem ortada qalmaqda davam edir. "BakuBus" sisteminin yaranması əslində o mənaya gəlirdi ki, intellektual idarəetmə nəticəsində sürücülər bir neçə manatın uğrunda yarışa çıxarkən insanların həyatına son qoymasınlar".

**Deputat dedi ki, bununla bağlı ciddi addım atılmalıdır:** "Düşünürəm ki, bununla bağlı köklü, sistemli və genişmiqyaslı addımlar atmalıyıq. Bu cür şəxslərin bir daha sürücülük vəsiqəsini qazanmaması, o yola çıxmaması üçün çox sərt mexanizmlər müəyyənləşdirməliyik. Həmçinin sürücülərin maliyyə təminatını da elə formalaşdırmalıyıq ki, bu hadisələr baş verməsin".

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli ictimai nəzarətin də böyük əhəmiyyət kəsb etdiyini dedi:** ""BakuBus"da kart sisteminə keçid formalaşdı. Orada sürücülərə birbaşa əmək haqqı ödənilir. Yəni sürücü vətəndaşla pul alış-verişində artıq iştirak etmir. Bakının əksər yerlərinə işləyən avtobuslar kart sisteminə keçiblər. Ancaq təəssüflər olsun ki, xeyli sayda marşrut avtobusları var ki, bu sistemə keçməyib. Yaxşı olardı ki, bütün avtobuslar kart sisteminə keçsin və sürücülər çalışdıqları 8 saata görə əmək haqqı ilə təmin olunsunlar. Biz dəfələrlə bu məsələyə münasibət bildirərək demişik ki, qəzanı törədən sürücü ilə yanaşı, o avtobusun məxsus olduğu şirkət də cəzalanmalıdır. Əgər şirkət cəzalanmayacaqsa, məsuliyyət sürücünün üzərində qalacaqsa, şirkətin sürücü üzərində basqısı olmayacaq və sürücülərin işə qəbulu zamanı tələblər sərtləşdirilməyəcək. Bir neçə ay öncə bu məsələ gündəmə gəldi və sərnişindaşıma ilə məşğul olan iri tutumlu avtobusların sürücülərinin müsabiqə əsasında işə götürülməsi məsələsi əksini tapdı. Ancaq çox təəssüflər olsun ki, bu gün sərnişindaşıma ilə məşğul olan şirkətlərin böyük əksəriyyəti sürücüləri işə götürərkən həmin qaydalara əməl etmirlər. Burada da mübahisəli məsələlər var. Təbii ki, kateqoriyalı sürücülər daha çox əmək haqqı istəyirlər. Şirkətlərdə həmin məbləği vermək istəmədikləri üçün sürücüləri necə gəldi seçib, daha az pulla işə qəbul etməklə fəaliyyət göstərirlər. 40-50 nəfər sərnişinin həyatına görə məsuliyyət daşıyan sürücü kifayət qədər ciddi, psixoloji durumu yerində olan, böyük təcrübəyə malik olmalıdır. Həmin sürücülər də normal əmək haqqı ilə təmin olunmalıdır. Sürücülər çox zaman qırmızı işığa, piyada zolaqlarına məhəl qoymurlar. Bu ondan irəli gəlir ki, sürücülər dayanacaqlara tez yaxınlaşıb daha çox sərnişin götürməklə artıq gəlir əldə etmək uğrunda sanki bir yarış keçirir. Bu məsələdə sürücülərə şirkətlər tərəfindən ciddi nəzarət yoxdur. Amma ictimai nəzarət məsələsi də böyük əhəmiyyət kəsb edir. Hər bir avtobusun arxasında onun məxsus olduğu şirkətin telefon nömrəsi göstərilir. Biz az hallarda müşahidə etmişik ki, Azərbaycan vətəndaşı narazı qaldığı sürücüdən qaynar xəttə zəng edib şikayət edir. Burada kompleks yanaşma olmalıdır. Həm şirkətlərin, həm də ictimaiyyətin nəzarəti ciddi olmalıdır. Sürücülərin müsabiqə yolları ilə işə götürülməsi məsələsinə ciddi yanaşmaq lazımdır".

❑ **Günel MANAFLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016



# Ermənistanın "İsgəndər"inə Bakıdan "İldırım"lı cavab

## Ali Baş Komandanın tapşırığı ilə "İldırım" zenit-raket kompleksləri hazırlıq vəziyyətinə gətirildi və döyüş atışları icra edildi; ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin "kölgə"si olan "Stratfor" mərkəzi yeni müharibə xəbərdarlığı etdi

**Ermənistanın danışıqlar prosesindən növbəti dəfə imtina etməsi, müharibə ritorikasından əl çəkməyərək işğalı davam etdirməsi Azərbaycanı yeni alternativlərə əl atmağa vadar edir. Xüsusilə işğalçı ölkənin Rusiyadan "İsgəndər" raket komplekslərini alması bölgədə yeni situasiya yaratdığı üçün rəsmi Bakı hərbi cəbbəxanasını daha da zənginləşdirmək məqsədilə bütün imkanlarını işə salıb.**

Bu yaxınlarda Rusiya baş nazirinin müavini Dmitri Raqozinin Bakıya səfərindən sonra müxtəlif təxminlər irəli sürüldü. Bəzi ekspertlərin fikrincə, Moskva Ermənistana müasir silahların satılması barədə Bakının razılığını almaq istəyib. Ancaq şimal qonşumuzun Azərbaycanı incik salmamaq üçün ona da "İsgəndər" satmağa hazır olduğu barədə də ehtimallar eşidilir. İstənilən halda, Azərbaycan nə yolla olursa-olsun düşmənin təhdidlərinə cavab tədbirləri hazırlamalıdır. Qərb işğala məruz qalan ölkəyə silah satmaqdan imtina edirsə, Azərbaycan Rusiya, İsrail və ya Pakistanla hərbi əməkdaşlığı davam etdirməli, paralel olaraq daxildə silah istehsalına ciddi diqqət ayırmalıdır. Düzdür, "Exo Kavkaza" radiosunun şərhçisi Vadim Dubnov kimi ekspertlər "İsgəndər"lərlə bağlı fərqli yanaşma ortaya qoyur. O bildirib ki, Rusiya Ermənistana "İsgəndər" raketləri satsa da, bu raketlər işğalçı ölkənin Bakıya hücumu üçün nəzərdə tutulmayıb. "Ermənistan istəsə belə Moskvanın icazəsi olmasa "İsgəndər"in düyməsini basa bilməz"-o əlavə edib. Ancaq fors-major situasiyada nələrin baş verəcəyini proqnozlaşdırmaq mümkün deyil, bunu aprel hadisələri və ondan sonrakı mərhələdə şimaldan Ermənistana verilən dəstək addımları da sübut edir.

Azərbaycan isə bütün təhdidləri nəzərə alaraq hərbi gücünü artırmaqdadır. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi hərbi qüvvələrin döyüş hazırlığı planına əsasən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qəfil yoxlanılması həyata keçirilib. Döyüş şəraitinə maksimal yaxın vəziyyətdə həyəcan siqnalı ilə qaldırılan şəxsi heyətin hazırlığı, praktiki bacarığı və döyüş vasitələrinin tətbiqi imkanları yoxlanılıb.

Qəfil yoxlama çərçivəsində silahlanmada olan "İldırım" zenit-raket komplekslərinin də hazırlıq vəziyyətinə gətirilməsi və döyüş atışları icra edilib. Praktiki atışlar zamanı şərti düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində qanadlı raketləri, alçaqdan uçan və aerodinamik hədəfləri imitasiya edən hədəflərin aşkarlanması və avtomatik izlənməyə götürülməsi, qərar qəbul edilməsi, onlara qarşı atəş açılması və hədəfin effektiv məhv edilməsi tapşırıqları uğurla həyata keçirilib. Nazirliyin rəsmi məlumatında deyilir ki, döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib. Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarında yoxlamalar davam edir.

"İldırım" zenit-raket komplekslərinin hazırlıq vəziyyətinə gətirilməsi ekspertlər tərəfindən düşmənə ciddi mesaj olaraq qiymətləndirilir.

**"Ermənilərin "İsgəndər" operativ-taktiki raketlərə malik olmalarını toy-bayram etmələri sona çatdı. Silahlı Qüvvələrimizin arsenalındakı ən müasir hücum və müdafiə silahları Ali Baş Komandan tərəfindən ordu qarşısında qoyulan istənilən tapşırığın yerinə yetirilməsinə imkan verir". Bunu sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov "İldırım" zenit-raket komplekslərinin hazırlıq vəziyyətinə gətirilərək döyüş atışlarının keçirilməsini APA-a şərh edərkən deyib. Onun sözlərinə görə, ərazimizi düşmənin mümkün hava hücumundan qorumaq üçün yaradılan eşelonlaşdırılmış müdafiə və digər kompleks tədbirlər istənilən addımın qarşısını almağa imkan verir:** "Deyə bilərik ki, bu gün uğurlu atışları həyata keçirən və ilk atışdan hədəfi məhv edən "İldırım" kompleksi, eləcə də Azərbaycan Ordusunun arsenalında olan bu tipli digər müasir komplekslər erməni tərəfinin "İsgəndər" sevincinə son qoydu. Bu komplekslər sutkanın istənilən vaxtında, çətin iqlim və döyüş şəraitində, müxtəlif hündürlük və uzaqlıqda olan bir neçə hava hədəfini, eləcə də bütün aerodinamik, hətta taktiki, ballistik raketləri də aşkar və məhv etməyə qadirdir. İndi tam əminliklə deyə bilərik ki, hazırda Azərbaycanın hava hücumundan müdafiə sistemi tək ölkənin işğal altındakı ərazilərini deyil, eyni zamanda Ermənistanın bütün hava məkanını da nəzarət altında saxlayır. Azərbaycan öz hava məkanını istənilən hücumdan müdafiə etməyi bacaracaq. Amma Ermənistanın bunu edə bilməsi çox böyük sual doğurur və real yanaşsaq, icrası da mümkün deyil. Düşmən onu da bilməlidir ki, Azərbaycanın sərəncamında olan yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik yüzlərlə digər raketlər işğal altındakı ərazilərdə və Ermənistanda istənilən hərbi obyekti darmadağın etməyə hazırdır".



Yaşar Aydəmirov



Azad İsazadə

**Hərbi ekspert Azad İsazadə isə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın bu addımı gözlənilən idi:** "Sözsüz ki, Ermənistanın "İsgəndər"li təhdidinə Azərbaycan mütləq şəkildə reaksiya verməli idi. Ancaq təkcə "İsgəndər" raket komplekslərinə qarşı cavabdan söhbət getmir. Ümumiyyətlə, Azərbaycanın havadan müdafiə komplekslərini təkmilləşdirməsi, daha müasir raket komplekslərindən istifadəsi vacibdir. Çünki bu, milli və dövlət təhlükəsizliyi məsələsidir. İkincisi də sözsüz ki, döyüş zamanı bu komplekslər bizimçün müstəsna əhəmiyyətə malik olacaq".

**Qeyd edək ki, bu arada ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) "kölgəsi" hesab olunan "Stratfor" beyin mərkəzi də ilginc hesabat yayıb. Mərkəz Azərbaycan - İsrail hərbi əməkdaşlığına diqqət çəkərək İsrailin dəhşətli silahı olan "Dəmir günbəz"in Ermənistana tuşlandığı haqda xəbərdarlıq edib. "İsrailin baş naziri Benyamin Netanyahunun Bakı səfərindən sonra Rusiyanın silah ticarətini kurasiya edən Dmitri Roqozin Azərbaycana gəldi. Azərbaycan bununla Rusiyaya bildirmək istəyir ki, İsraildən aldığı silahlar çox əhəmiyyətlidir və bu, Ermənistan və Azərbaycan arasında Moskvanın dəstəklədiyi hərbi balansı pozacaq"-mərkəzin hesabatında deyilir. (publika.az) Mərkəz Bakının İsraildən raket əleyhinə "Dəmir günbəz" kompleksini almaq istədiyinə diqqət çəkib. "Ermənistan "İsgəndər" raketlərini əldə etdi. Azərbaycanın "İsgəndər"lərə qarşı S-300 və "Barak-8" sistemləri var. Bu baxımdan, onun "Dəmir günbəz" kompleksini almaq istədiyi suallar yaradır. Bundan başqa, Azərbaycan İsraildən bir neçə batareya alır. Lakin bunun sayı müəmmalıdır. O məlumdur ki, İsraillə Azərbaycan arasında silah ticarətinə dair sazişlərin dəyəri 5 milyard dollardır", - deyə "Stratfor" qeyd edib. Mərkəzin hesabatına bildirilir ki, Dağlıq Qarabağda müharibənin başlanması ehtimalı böyükdür: "Apreldə baş verənlər göstərdi ki, döyüş hərəkətləri güclənə bilər. "Dəmir günbəz" müharibə zamanı təmas xəttinə yaxın şəhər və bazaların qorunmasına kömək edə bilər".**

Ərazilərinin işğalına son qoymaq üçün müdafiə tədbirlərinə əl atan, üstəlik, təcavüzkar Ermənistanın "İsgəndər"lə bağlı təhdidlərindən özünü qorumaqdan ötrü hərbi sahəyə böyük miqdarda maliyyə ayırmaq məcburiyyətində qalan Azərbaycanın İsraildən "Dəmir günbəz" almasına "Startfor"un həyəcanlı reaksiyası diqqət çəkir. Ancaq nədənsə mərkəz Ermənistanın paytaxtında "İsgəndər"lər görünəndə və işğalçı ölkə açıq şəkildə Bakını təhdid edəndə, hətta prezident Sərkisyan Azərbaycan paytaxtını vura biləcəyi barədə sərsəm bəyanat səsləndirəndə ABŞ təşkilatı çox soyuqqanlı davranmışdı. Azərbaycan Ermənistanın bölgəni fəlakətə sürükləyən addım atmasından, "İsgəndər" raket-kompleksləri almasından dolayı narahatlığını ifadə edəndə "Stratfor" Moskvanın Ermənistanı silahlandırmasını "bölgədə güc balansını qorumaq istədiyini və yeni müharibənin olmamasına çalışması kimi" şərh etmişdi. "Stratfor" agentliyi ehtimal etmişdi ki, "İsgəndər" raketləri aprel döyüşlərindən sonra Azərbaycanı ehtiyatla davranmağa vadar edəcək. İndi isə mərkəz ərazisi 25 ildir işğalda olan Azərbaycanın cavab addımı atmasını həyəcanla qarşılayır.

**Hərbi ekspert Azad İsazadə bu barədə danışarkən əvvəlcə qeyd etdi ki, baş nazir Netanyahunun son səfəri də İsrail-Azərbaycan hərbi əməkdaşlığının davam edəcəyini deməyə əsas yaradır. Bu mənada "Dəmir günbəzlər"lə bağlı razılaşma da tam məntiqlidir:** "Bu silahlar daha geniş ərazini havadan müdafiə imkanı verəcək. Özü də təkcə "İsgəndər"lərə qarşı yox, ümumiyyətlə, orta mənzilli raketlərə qarşı ən yaxşı müdafiə sistemidir".

**"Stratfor" mərkəzinin son hesabatına gəldikdə, A.İsazadə qeyd etdi ki, bu, səbəbsiz deyil:** ""Stratfor" hərbi analitika ilə məşğul olmağına baxmayaraq, daha çox siyasi qurumdur. Onun bu reaksiyası hansısa siyasi vəziyyətə, o cümlədən Cənubi Qafqazda gedən proseslərə reaksiyadır. Bunu da təbii qarşılamaq lazımdır". Hərbi ekspert ABŞ kəşfiyyatının müharibə xəbərdarlığını da real saydı: "Cəbhədəki vəziyyət kövrəkdir, hər an hansısa ciddi hadisə baş verə bilər".

Son məlumata görə, S.Sərkisyan danışıqlardan hələ sentyabr ayında, "İsgəndər"ləri İrəvandakı hərbi paradda görəndən sonra imtina edib. Reallıq hissini itirən erməni prezidentə vəziyyətin çox təhlükəli olması ilə bağlı eks-prezident Levon Ter-Petrosyanın son çağırışına isə hələlik rəsmi İrəvandan reaksiya verilməyib. Belə bir durum isə böyük müharibəni qaçılmaz edir.

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

**Xahiş edirəm, cümləmi axıracan oxumadan dediklərimə dodaq büzməyəsiniz. Məncə, Rusiya səfiri Andrey Karlovun qatili-polis məmuru Mevlüt Mert Altıntaş əsl zombidir.**







# Azərbaycan ədəbiyyatçıları İraqda necə hərbi çevriliş edib - tarixi araşdırma

## Televiziya vurğunu olan prezident yeni studiya qurulması üçün Bakıdan mütəxəssislər çağırır, elə ilk canlı yayında həmin prezident əsgərlər tərəfindən güllələnir






***

Zombi deyəndə ki... Bilirsiniz, əslinə baxsan, bütün cangüdən tayfası müəyyən mənada elə zombi sayıla bilər. Bütün cari hərəkətləri kənardan, qulaqcıq vasitəsilə idarə edilən cangüdənlərin adətən nəinki öz fikri, heç öz hərəkətləri belə olmur. Cangüdən daxili monoloqdan məhrumdu. Özünü deyil... qulağına ötürülən əmrləri eşidir adətən.

Amerika mənşəli bu cür təlim-tədris proqramları nəticəsində öyrəncilər adətən iki-üç günə əmrə tabe müti qullara, daha doğrusu, zombiyə çevrilir. Ardıcıl, ağır təlimlər nəticəsində sən öz şəxsi "mən"indən, daxili monoloqundan məhrum oldunsa, vəssalam, demək, polis məmuru Mevlüt Mert Altıntaş kimi, içinə "cangudən" sətirləri yazılmış diplomunu götür qoy qoltuq cibinə. Get işə. Axşam telefonuna, yaxud qulaqcığına əmr gələcək, bəs, get, filan küçədəki hotelə. Xidməti paltarlarını mülkü geyimlə əvəzlə. Tapançanı yoxla. Afərin... Sənət mərkəzlərinin birində, filan-filan ünvanda sərgi keçirilir indi. Vəsiqəni təqdim et qapıdakı mühafizəçilərə. Afərin... Qoruyacağın şəxs ordadır...

Məncə, qətldən əvvəlki saniyələrdə vəziyyət elə bu cür də olub. Altıntaş instruksiyalara əməl edərək, qorunan ərazidə özünə düzgün mövqe seçib. Qulaqcıqdakı əmrin göstərişiylə gedib durub səfirin arxasında...

Bir başqa həyəcanlı səs bu an araya girib gizli şifrəni - tutaq ki, 7469 kodunu, Altıntaşın qulağına pıçıldayıb. 7469 kodunu eşidincə, xüsusi təyinatlının beyinqafasında qısaqapanma baş verib - o, ildırım süräti ilə tapançasına əl ataraq, qarşısındakı kürəyi atəşə tutub, vəssalam.

Sonra qulaqcığına ötürülən bir başqa siqnalın təsiri ilə ərəbcə şüarlar səsləndirməyə başlayıb.

***

Rusiya səfiri Andrey Karlovun qatili Altıntaş, hardasa Mehmed Ali Ağcanı xatırladır, hardasa bir başqa ölüm qəssabını - Filippin prezidenti Markosu öldürməyə göndərilmiş xüsusi agent Luis Anjelo Kastilonu.

Kriminalistlərin bu qatil barədə yekun rəyi eynidir - Kostilonun, üzr istəyirəm, Altıntaşın daxilində dörd fərqli insan, daha doğrusu, zombi mövcuddur. Bu dörd fərqli şəxsiyyətin hər birinin ayrıca gizli adı, qan təzyiqi, ürək döyüntüsü, nəbzi, nəfəs alma tempi varmış. "Zombi-1" vəziyyətinə düşərkən o, özünü üstündəki pasport göstəricilərindəki kimi Antonio Reys Eloriaqa, yaxud Altıntaş adlandırıb istintaqa ifadə verməyə tam hazırdı. Ancaq "Zombi-2" vəziyyətində o, istintaqla əməkdaşlıq etməkdən imtina edərək sükuta qapılırdı. "Zombi-3" halında o, iflasa uğramış agent kimi intihar etmək isəyir, "Zombi-4" vəziyyətində özünə qayıdıb Nyu-York sakini 29 yaşlı Manuel Anjelo Ramires, yaxud ərəb mənşəli türk komandosu filankəs filankəs olurdu. Xatırlayırdı ki, MKİ-nin xüsusi qapalı düşərgələrində nə cür, nə vaxt təxribatçı sənətinə mükəmməl yiyələnib.



Dediklərimiz sizə çox da fantastik görünməsin. Axtarış zamanı Kastiloda 12 hərifdən ibarət xüsusi şifroqramm aşkarlandığını görən həkimlər bu kodu sındırmaq qərarına gəlirlər. Şifroqrammı müxtəlif ahənglərdə, kombinasiyalarda yuxulu Kastiloyanun qulağına pıçıldamağa başlarkən, gördüklərinə əvvəlcə heç özləri də inanmırlar. Sonra tədricən özlərinə gəlib Kostilonun daxilində dörd fərqli insanın dörd fərqli siqnala reaksiya verdiyini imzaladıqları sənədlə təsdiqləyirlər.

Ötən yazılarımın birində irəli sürdüyüm iddialar bugünkü informasiya ilə də öz təsdiqini tapır. Həmin informasiyada bildirilir ki, Rusiyanın Türkiyə böyük elçisi Andrey Karlovu qətlə yetirən polis məmuru Mevlüt Mert Altıntaşın mobil telefonu üzərində təhqiqat aparılıb. Sən demə, telefonda dörd fərqli parol müəyyənləşdirilib və mütəxəssislər məsələ üzərində işləyir.

Belə yerdə deyərlər "No komment". Şükür, ipucları tapılıb. Dörd siqnal barədə iddiam, axır öz həqiqi, real təsdiqini tapdı.

Qalır, indi ancaq aktyor Mett Daymonun iştirakıyla çəkilmiş "Jason Bourne film series" (2002-2016) filmlərinə baxmaq. Altıntaşın ordakı oxşarını izləyin, vəssalam, cinayətin digər müəmmaları sizlərə gün kimi aydın olacaq.

***

Ancaq ötən əsrin 70-80-ci illərində Altıntaş kimi ərəblər qatil sənətinə deyil, başqa təlimlərə, başqa tədris proqramlarına yiyələnirdilər al bayraqlı SSRİ-də. Elə lap bizim küləkli Bakıda. Yaddaşımızı silkələsək ərəblərin, zəncilərin, bəli, AZİ-də, Tibb İnstitutunda, Politexnikdə təhsil aldığı gözəl vaxtları xatırlayıb dərindən bir ah da çəkə bilərik indi biz.

Təhlükəsizlik qurumlarımız, əks-kəşfiyyatımız da indikilərdən daha səmərəli, daha uzaqgörən, peşəkar idi o vaxtlar. Azərbaycan SSR DTK-sının, əks-kəşfiyyat idarəsinin sınaqdan keçirilmiş, özünü əməldə doğrultmuş xüsusi dəsti-xətti vardı. Misal üçün, hər hansı bir ölkədə, tutaq ki, lap elə İraqda əməliyyat keçirməzdən öncə bizimkilər adətən filoloji mövzulara müraciət edirdilər. Əvvəlcə, tutaq ki, 1958-ci ildəki kimi, bağdadlı Məhəmməd Füzulinin 500 illik təntənəli yubileyini keçirirdilər Bakıda. İraqdan və bölgə ölkələrindən bir xeyli qonaq gətirirdilər paytaxtımıza. Füzuli yubileyini bəhanə edib İraq mövzusunu mənimsəyib öyrənərdilər.

Sonra adətən bu qonaqlarımızın iştirakıyla saray çevrilişi baş tuturdu Dəclə və Fərat sahillərində. 1958-ci il Füzuli şənlikləri elə bax bu cür sonluq da qazanır özünə. Həmin ilin 14 iyul tarixində İraq generalı Əbdül Kərim Qasem, Moskvanın etimadını qazanaraq kral Feysəli hakimiyyət Olimpindən aşağı yuvarladıb ailəsiylə birgə qətlə yetirir. Əbdül Qasem, deyilənə görə, qəribə adamdı. Televiziya sənəti vurğunuydu deyə, əmr etmişdi təcili Bağdadda teleqüllə ucaldılsın. Köməyə, həmişəki kimi, Bakıdan mütəxəssislər gəlir. TV studiyaları qurub, ötürücü antenalar quraşdırırlar Bağdadda. 1963-cü ilin fevralında, teleyayımın ilk günlərində Bağdadda növbəti saray çevrilişi baş tutur. Əbdül Qasimi tikdiyi telestudiyaya gətirib elə telekameralar önündə, canlı yayımda güləleyirlər. Yazığın meyiti, düz bir həftə canlı yayımda camaata göstərilir. Sıravi əsgərlərdən biri, deyilənə görə, Əbdülqasimin başını yuxarı qaldırıb vaxtaşırı üzünə tüpürürmüş.

Bu, İraq televiziyasının ilk verilişi sayılır indi.

***

İndi deyirsiz, bu əməliyyatlarda bizim filoloqların, hərbi qulluqçuların və digərlərinin iştirakı olmayıb, hə? Olub. Özü də sözün həm ən yüksək, həm də ən məxfi mənasında. Ancaq bizimkilər, bin ladenlər, əl-bağdadilər, altıntaşlar yetişdirməyiblər AZİ, Politexnik institutları auditoriyalarında. Əvəzində mütəxəssislər yetişdiriblər dinc həyat üçün. Liviyada, Suriyada, İraqda neft sahəsi milliləşəndə, xarici mütəxəssislər neft mədənlərini kütləvi tərk edəndə köməyə yenə də Bakı mütəxəssisləri gəlib. Qısa vaxta neft hasilatını bərpa ediblər.

Suriyada Əsəd ailəsinin hakimiyyətə gəlməsi də Azərbaycan SSR DTK-sının məxfi əməliyyatı sayəsində mümkün olub. Əvvəlcə bizimkilər, həmişəki kimi, yenə filoloji mövzuya, filoloqlara müraciət ediblər. "Nəsimi" filmini lentə alıb, Nəsiminin yubileyini keçirməyə başlayıblar 60-cı illərin sonunda. Qərara gəliblər ki, Suriyada hakimiyyətə ələvi Əsəd nəslini gətirsələr, həəə, bir güllə ilə iki dovşan vura bilərlər. Birinci "dovşan" - Türkiyədəki 10 milyonluq ələvi cameəsini kontrolda saxlamaq idi. İkinci "dovşan" - Dəməşqi alıb Suriya-Türkiyə sərhədində NATO-ya qarşı ikinci cəbhəni açmaqdı.

Atəş, həmişəki kimi, Bakıdan açılıb hər iki "dovşanı" qətlə yetirir. Nəzarətsiz Suriya sərhədindən Türkiyəyə axan sovet silahı tezliklə Bosfor sahillərini al-qana boyayır.

***

Beləliklə, Yaxın və Orta Şərqin indiki siyasi coğrafiyası vaxtilə məhz Azərbaycan çekistlərinin, əks-kəşfiyyatçılarının, neft ustalarının gərgin əməyi nəticəsində mümkün olub. İndi okeanın o tərəfindən gəlmiş siyasi texnoloqlar, əliqanlı təxribatçılar bizim ənənələri pozub burda Azərbaycansız yeni Orta Şərq projesi qurmaq niyyətindədirlər.

Ancaq deyəsən, babalarımız ağır... çox ağır daşlar atıb bu coğrafiyanın dərin təməlinə. İŞİD-in, Altıntaşın, gördüyümüz kimi, gücü çatmır bu coğrafiyanı pozmağa.

Fikrimizi soruşsaydız, deyərdik sizə - bu coğrafiya, Mövlud Mərd Altıntaş, agent Jeyson Born kimi zombilərin iştirakıyla pozulmayacaq heç vaxt.

**Çünki bizlər bu coğrafiyaya Füzulinin, Nəsiminin yeliylə qanad vermişik.**

**Zombiləriniz, agent Bornlarınız, inanın, heç nədir bu coğrafiyanın Dəclə və Fərat sahillərində.**

**O, coğrafiyanın həqiqi müəllifləri bizik.**

❑ **Həmid HERSÇİ**

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

# Azərbaycanın dollardan imtinası yenə gündəmə gəldi

## Ekspertlər bildirirlər ki, verilən bəyanatlar siyasi xarakterlidir, dollardan imtina manatı daha da ucuzlaşdıra bilər...

**Azərbaycanın dollardan imtinası məsələsi yenidən gündəmə gəlib. Son olaraq Türkiyənin gömrük və ticarət naziri Bülent Tüfenkci bu cür fikirlər səsləndirib. O bildirib ki, Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarətdə milli valyutaya keçid iqtisadi artıma kömək edəcək, ölkələr arasında xarici ticarət əməliyyatlarını gücləndirəcək və sabitləşdirəcək.**



Nazirin sözlərinə görə, qarşılıqlı ticarətdəki hesablamalarda Azərbaycan manatı və türk lirəsindən istifadə çox əhəmiyyətlidir. Belə ki, bu, xərcləri aşağı salmağa, risklərə nəzarəti artırmağa və ölkələrin milli ehtiyatlarının xarici faktora qarşı həssaslığını azaltmağa imkan verəcək: “Həmçinin ticarətdə milli valyuta ilə hesablamalar, xüsusilə böhran dövründə xarici valyuta defisiti ilə əlaqədar mənfi təsirlərin qarşısını alacaq. Valyuta məzənnələrinin dəyişməsi riskinin qarşısının alınması idxal olunan malların qiymətində qeyri-müəyyənliyi, eləcə də xarici ticarətdə ziddiyyətləri azaldacaq”.

**Nazirin sözlərinə görə, dünya iqtisadiyyatında cari qeyri-sabit vəziyyət ölkələr arasında qarşılıqlı ticarətə də təsir göstərib:** “Türkiyənin Azərbaycana ixracı 2014-cü ildə 2,9 milyard dollar, 2015-ci ildə 2 milyard dollar, Azərbaycan məhsullarının idxalı isə müvafiq olaraq 291 milyon və 232 milyon dollar təşkil edib. Türkiyə 2014-cü ildə Azərbaycana 1,9 milyard dollar, 2015-ci ildə 276 milyon dollar, Azərbaycan isə Türkiyəyə müvafiq olaraq 884 və 839 milyon dollar investisiya yatırıb”. **Nazir qeyd edib ki, Rusiya bu təşəbbüsə müsbət reaksiya verib və rəsmi şəxslər bəyan ediblər ki, qısa müddətdə ticarətdə milli valyutaya keçid üçün addımlar atıla bilər:** “İran parlamentinin spikeri Əli Laricani də Ərdoğanın təklifini dəstəkləyib və bəyan edib ki, Tehran ticarətdə milli valyutaya keçməyə hər zaman hazırdır. Çin və Türkiyə arasında isə cari il noyabrın 26-da ilk valyuta mübadiləsi aparılıb. İnanırıq ki, yaxın vaxtlarda biz bu təşəbbüsdən müəyyən nəticələr əldə edəcəyik”.

**Ekspertlər musavat.com-a Azərbaycanın dollardan imtinasının nə dərəcədə mümkün ola biləcəyindən danışıblar. Ekspert Qubad İbadoğlu bildirib ki, Türkiyə Azərbaycanın idxalatda əsas partnyorudur:** “Azərbaycan Türkiyədən daha çox mal gətirir. Bu o deməkdir ki, Azərbaycana daha çox lirə lazımdır. Türkiyədən Azərbaycana gətirilən malların həcmi çoxdur. Türkiyədə isə Azərbaycan malına o qədər də ehtiyac yoxdur. Azərbaycanda Türkiyə mallarına daha çox ehtiyac var. Bu formatda ümumiyyətlə Türkiyə, Azərbaycan, Rusiya ticarət sövdələşmələrində milli valyutalardan istifadə olunması son nəticədə dolların rolunu azalda bilər. Bu, o deməkdir ki, Azərbaycan bu halda daha çox Rusiyaya mal ixrac edir, deməli, Azərbaycanda daha çox rubl olacaq. Bu rublla müəyyən malları Rusiyadan gətirmək imkanına malik olacaq. Amma Azərbaycanda lazımi qədər lirə olmayacaq. Azərbaycan Türkiyə bazarında çox mal satmır. Türkiyə bazarından Azərbaycana çox mal gəlir. Lirə olmayacaq ki, Türkiyədən malı Azərbaycana gətirək. Bu, məsələnin texniki tərəfidir”.

**Ekspertin sözlərinə görə, məsələnin siyasi tərəfi də var:** “Siyasi tərəf daha önəmlidir. Azərbaycanın bu təşəbbüsə qoşulması manatın mövqeyini daha da zəiflədə bilər. Azərbaycan ümumi dünya iqtisadiyyatında ticarət əməliyyatlarına malikdir. Ölkəmizin ən çox bazara çıxardığı neft və neft məhsulları, qaz və digər xammallardır, bunlar da Azərbaycana müəyyən miqdarda valyuta gətirmək üçün əhəmiyyətlidir. Amma bununla yanaşı, Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri də Avropa Birliyidir. Azərbaycan Avropa Birliyi ölkələrindən daha çox mal gətirir, nəinki digər ölkələrdən. O baxımdan da hesab edirəm ki, istənilən halda Azərbaycana dollar, avro lazım olacaq ki, o idxalı təmin etsin. Bu hesablaşmalara keçid manatın məzənnəsinə təsirsiz ötüşməyəcək. Ümumiyyətlə, Azərbaycanın təşəbbüsə qoşulmasının tərəfdarı deyiləm. Çünki Azərbaycanın mövcud iqtisadi vəziyyəti və bütövlükdə ölkənin xarici ticarət balansının strukturu, tədiyyə balansının quruluşu belə qərarlar qəbul etməyə imkan vermir. Radikal qərarlar Azərbaycan iqtisadiyyatına ciddi neqativlər gətirə bilər. İqtisadiyyatda böhranı daha da dərinləşdirə bilər. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan əvvəlki qaydada xaricdən investisiya əməkdaşlığını davam etdirməlidir. Dünyanın aparıcı valyutaları ilə sövdələşmələrini həyata keçirməlidir”.

**Ekspert Natiq Cəfərli isə musavat.com-a bildirib ki, belə bir qərarın verilməsi daha çox siyasi qərardır:** “İki ölkə arasında milli valyutalarla ticarətin mümkünlüyü haqqında bəyanatın olması ancaq siyasi xarakterlidir. İqtisadi cəhətdən bu cür mexanizmlərin qurulması çox çətindir. Çünki Türkiyə lirəsi dəyərdən düşür, manatda da oxşar vəziyyətdir, hər gün məzənnə aşağı düşür. Bu, iş adamlarının hər hansı bir uzun və orta müddətli müqavilələr bağlamasına mane olacaq. Hətta belə bir hadisənin olacağını qəbul etsək belə, iş adamları o məzənnə dəyişikliyindən özlərini sığortalaya bilməyəcəklər. Məzənnənin tez-tez dəyişməsindən özünü sığortalaya bilməyən iş adamı ziyana düşəcək. Bu yöndə hər iki valyutanın bir-birinə çarpaz məzənnəsi də dollar üzərindən olacaq. Yəni dollar üzərindən lirənin məzənnəsi müəyyən olunur, eləcə də manatın məzənnəsi təyin edilir. Bu çarpaz məzənnə ilə lirə-manat münasibətləri müəyyənləşdirilir. Yəni birbaşa manatla lirə arasında belə bir asılılıq yoxdur. Bunun həyata keçirilməsi problemlidir, olması ehtimalı da çox aşağıdır. Bu, ancaq siyasi bəyanatlardır”.

**Ekspertin sözlərinə görə, Azərbaycanla Türkiyənin ticarət dövriyyəsinə baxsaq, ölkəmiz ancaq böyük həcmdə təbii qaz satır:** “Təxminən 6 milyard kubmetrə yaxın qaz satırıq. Türkiyədən isə bir çox çeşidli mallar alır, istehlak mallarından tutmuş texnikaya qədər bir çox sahələrdə Türkiyə ilə əməkdaşlığımız var. Əsas məsələlərdən biri də ondan ibarətdir ki, Azərbaycanın Türkiyəyə satdığı məhsul az olduğundan, əsas ticarət tərəfdaşı dövlətdir. Amma Türkiyədən mal gətirmək üçün özəl sektor fəaliyyət göstərir. Türkiyədən bizə mal gətirən iş adamları manat aldıqdan sonra neyləyəcəklər? Onu hansı sahədə istifadə edəcəklər? Manatı məcbur olacaqlar ki, yenidən dollara çevirsinlər və ölkələrinə aparsınlar. Azərbaycanda belə siyasət həyata keçiriləcəksə, dollar daha da bahalaşa bilər. Ona görə hətta böyük dövlətlər arasında on ildir ki, milli valyuta ilə ticarət barədə danışıqlar gedir, ortaq məxrəcə gələ bilmirlər. Budəfəki söhbət də populizmdir, iqtisadi cəhətdən həyata keçirilmə mexanizmləri kifayət qədər qaranlıqdır”.

❑ Röya RƏFİYEVA

# “Vergi amnistiyası” sahibkarların xeyrinə işləyəcək, yoxsa hökumətin?

## **Ekspert:** “Əgər özəl sektorda çalışan bütün sahibkarlar bu amnistiyadan yararlanacaqsa, o zaman vergi amnistiyasını müsbət hesab etmək olar”

**45 min vergi ödəyicisini əhatə edəcək vergi amnistiyası haqqında qanun layihəsi iqtisadçılar tərəfindən birmənalı qarşılanmayıb. Bu amnistiyanın müsbət və mənfi tərəfləri ilə bağlı müzakirələr son iki gündə mətbuatın gündəmindədir.**

Qanun layihəsi ilə bağlı məlumat verən **Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti baş idarəsinin rəisi Natiq Şirinovun** sözlərinə görə, amnistiya ümumilikdə 44704 vergi ödəyicisini əhatə edəcək: “Bunun 1037-si dövlət sektorunda, 43667-si isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Faizlərin silinməsi nəticəsində 386,4 milyon manat məbləğin silinməsi təmin olunacaq. Bunun da 125,5 milyon manatı dövlət sektorunun, 260,9 milyon manatı isə qeyri-dövlət sektoruna aiddir. Eyni zamanda nağd pul hesablaşmaları qaydalarının aparılmasının pozulmasına görə, 6304 vergi ödəyicisinin 3 milyon manat məbləğində maliyyə sanksiyasının 2017-ci ilin 1 yanvar vəziyyətinə silinməsi nəzərdə tutulur. Digər maliyyə sanksiyalarının silinməsinə gəlincə, yanvar, fevral və mart ayları ərzində ödənişlərinə adekvat olaraq qalan maliyyə sanksiyasının silinməsi nəticəsində 13780 vergi ödəyicisinin 234 milyon manat məbləğində maliyyə sanksiyası silinəcək. Beləliklə, bu qanunun qüvvəyə minməsi nəticəsində qanun layihəsinin iqtisadi effektivliyi kimi 44704 vergi ödəyicisinin təxminən 624 milyon manat vəsaitinin silinməsi təmin olunacaq. Biz hesab edirik ki, bu məbləğin silinməsi vergi ödəyicilərinin iqtisadi aktivliyinin artırılmasına xidmət edəcək”.



**İqtisadçı ekspert Vüqar Bayramov “Yeni Müsavat”a açıqlamasında vergi amnistiyasını müsbət qiymətləndirdi:** “Mən hələ neft bumu dövründə vergi amnistiyasının verilməsi ilə bağlı hökumətə müraciət etmişdim. O zaman da mən maliyyə və vergi amnistiyasının verilməsinin tərəfdarı kimi çıxış etmişdim. Vergi amnistiyası 45 min ödəyicini əhatə edəcək. Söhbət vergi borcu olan ödəyicilərdən gedir. Burada 24 milyon manat vəsait itirilir. Lakin vacib məqam ondan ibarətdir ki, vergi amnistiyası birmənalı şəkildə vergi borcu olan bütün sahibkarlara təqdim olunsun. Amnistiya yalnız dövlət qurumlarından getməməlidir. İri inhisarçı şirkətlərin vergi borclarının silinməsi praktiki olaraq mümkün deyil. Bunun reallaşması arzuolunan da deyil. Yaxşı olar ki, özəl şirkətlərin vergi borcları silinsin. Əgər özəl sektorda çalışan bütün sahibkarlar bu amnistiyadan yararlanacaqsa, o zaman vergi amnistiyasını müsbət hesab etmək olar. Bu, sahibkarların ödəyə bilmədiyi vergi borclarının silinməsi deməkdir. Vergi borcları, onların üzərinə mütəmadi faizlərin hesablanması sahibkarlara psixoloji təzyiq yaradırdı. Bu borclar səbəbindən sahibkarın bank hesabı dondurulurdu. Onların ölkədən çıxışına qadağa qoyulurdu”.

**Vüqar Bayramovun sözlərinə görə, indiki məqamda vergi amnistiyasının qəbul olunması məqsədəuyğundur:** “Bunun dövlət büdcəsinin gəlirlərinə ciddi təsir edəcəyini gözləmirəm. Çünki bu borcların bir qismi ölmüş borclar idi, onların geri alınması praktiki olaraq mümkün deyildi. Söhbət heç də bu gün ödəmə qabiliyyəti olan şirkətlərin hesablanmış vergi öhdəliklərindən getmir, əksinə, ödənilə bilməyən vergi borclarından gedir.

Bu borcların ödənilməsi sahibkarların gəlir səviyyəsinə təsir göstərəcək. Əgər 2017-ci ildə vergi borclarını ödəyə bilməyən bütün sahibkarlar bundan faydalanarsa, növbəti illərdə həmin gəlirlərin müsbət təsirlərini müşahidə etmək olar".

**İqtisadçı ekspert Natiq Cəfərli isə hökumətin bu məsələdə planlı davranmadığını bildirdi:** “Əgər hökumət belə bir addım atmağı planlaşdırırdısa, o zaman büdcə qəbul edilərkən bunu nəzərə almalı idilər. Bir həftə öncə büdcə qəbul edilib, gəlirlər, xərclər qeyd olunub, həmin silinməli olan 624 milyon manat vəsait də vergi proqnozuna daxil edilib, amma indi ayılıblar ki, vergi amnistiyası etmək lazımdır. Bu onu göstərir ki, hökumət perspektivi planlaşdıra, hesablaya bilmir. Əgər həmin 624 milyon manat vergi proqnozuna daxil idisə, indi ya parlament bir daha yığışıb büdcəni dəyişməlidir, ya da o çatışmayan 624 milyon manatı biznesin boğazına çöküb, onlardan yığmağa çalışacaqlar. Vergi amnistiyası belə olmur, əvvəl maliyyə amnistiyası elan edilir, ”kölgə iqtisadiyyatı” işıq üzünə çıxarılır, korrupsiya və digər yollarla əldə edilmiş maliyyə vəsaitlərinin böyük bir qismi büdcəyə qaytarılır, digər hissəsinə amnistiya verilir və ancaq bununla paralel olaraq, vergi amnistiyası da elan edilir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016

# Azyaşlıların dəhşətli intihar statistikası- səbəblər və çıxış yolları...

## Yeniyetməlik insan həyatındakı ən həssas dönəmlərdən biridir, burda əsas yük valideynə və məktəbə düşür...

**"Yeniyetmənin bir saat öncəki əhvalı ilə bir saat sonrakı əhvalı bir-birinə uyğun gəlmir. Sıradan bir söz, tənqid, zarafat onu haldan-hala sala bilər. Mən sinifdəki bütün uşaqları gün ərzində izləyirəm. Onların bir-biriləri ilə münasibətini görürəm və müşahidə etdiyim hər neqativ halla bağlı dərhal valideynlərinə məlumat verirəm".**

Bunu Bakının orta məktəblərindən birində sinif rəhbəri olan Sevda Mehdiyeva deyir. O, 8-ci siniflərə rəhbərlik edir və dediyinə görə, keçən ildən etibarən yükü ikiqat artıb. Müsahibimizin fikrincə, şagirdlər arasında baş verən xırda intriqalar, müəllimlərin onlara münasibəti, eləcə də valideynlərindən gördükləri diqqətsizlik bir çox hallarda fəsadlarla nəticələnir: "Bəzən çox fəal, savadlı bir şagird həftələrlə dərsə hazırlıqsız gəlir, qaraqabaq olur, sinif yoldaşları ilə ünsiyyətdən qaçır. Bu halda ilk günlərdən məsələyə müdaxilə etmək lazımdır. Onu bir kənara çəkib, uşaqlardan kənarda danışdırmaq, problemini öyrənəndən sonra həll yollarını tapmaq bizim vəzifəmizdir. Yeniyetməlik insan həyatındakı ən həssas dönəmlərdən biridir. Burda əsas yük valideynə və məktəbə düşür".

### Ötən ildən bu yana yeniyetmə intiharlarının sayı artıb

Bir ildən artıqdır ki, ölkə mətbuatında yeniyetmə intiharları ilə bağlı statistikada bir qabarıqlıq var. 2016-cı ilin 9 ayı ərzində Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə 500 cinayət işi başlanıb, zərərçəkmiş qadınların sayı 156, yetkinlik yaşına çatmayanların sayı 27 nəfər olub. Ölkədə ötən il Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə 658 cinayət işi başlanıb. Zərərçəkmiş qadınların sayı 183, yetkinlik yaşına çatmayanların sayı isə 31 nəfər olub.

Halbuki ötən il intihar edən yeniyetmələrin sayı 23 olub. İl hələ başa çatmasa da, ortada ciddi artımdan söhbət gedir.

### Öncə valideynlər maarifləndirilməlidir

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ölkədə uşaq və gənclər arasında intiharların səbəbləri ilə bağlı izahatında deyilir ki, intiharların səbəbləri müxtəlifdir:** "Dünyada araşdırmalar göstərir ki, intiharlar daha çox 16-18 yaş arası gənclər arasında baş verir ki, bunun da ən çox faizini oğlanlar təşkil edir".

**Xəbərdə deyilir ki, intiharların əsas səbəbləri məişət və ailə zorakılığı, dini sektaların təsiri, internetin mənfi tərəfləri, sosial vəziyyət, xəyanət, ünsiyyət imkanlarının olmamasıdır.**

"Valideynlərə uşaqlarla davranış qaydalarını öyrətmək lazımdır. Məsələn, uşaqlarda bəzən özünəqapanma halları olur. Valideyn bu halda dərhal övladı ilə maraqlanmalı, problemlərini dinləməli, məktəbdə müəllimləri, məktəb psixoloqu ilə danışmalı, ona hərtərəfli kömək etməlidir",-deyə məlumatda bildirilir.

Bu da bir faktdır ki, valideynlərin bəzən həddən artıq laqeydliyi, bəzənsə normadan ziyadə diqqət göstərməsi yeniyetmələrə pis təsir göstərir. Psixoloqlar məhz bu səbəbdən qızıl ortanı tapmağı məsləhət görürlər. Belə ki, ata-ananın uşağına tez-tez zəng edib, harda olduğunu soruşması ilə ona günlərlə diqqət göstərməməsi eyni dərəcədə fəsad verə bilir.

### Günah medianındır? Belə məlumatları ehtiyatsız yaymaq olmazmış...

**Məhz intihar hadisəsində başlıca vasitə etibar və ünsiyyətdir. Axı mahiyyətcə intihar - kədər halıdır, dünyaya özün, öz bədbəxtliyin haqda hayqırtıdır. Ola bilər ki, bu bütün dünya üçün gülünc görünsə də, gəncin özü üçün dünya boyda dərd kimi görünür. Hollivud aktyoru Robin Uilyamın intihar hadisəsindən sonra ekspertlərin hesabatını yayımlayan Dünya Səhiyyə Təşkilatı (DST) bir sıra media və sosial şəbəkələri qınadı. Həmçinin DST-nin ekspertləri qeyd edib ki, ulduzların və ya sıravi insanların intiharlarını əks etdirən hesabatların dərc edilməsi vacib deyil:**

"KİV-in intiharla bağlı xəbərləri ehtiyatsız yayması bunun daha da təbliğ olmasına səbəb ola bilər. İntihar hallarının səhv işıqlandırılması yanlış təəssüratlar yaradaraq insanlarda - böhran vəziyyətdə qanunauyğun və lazımi addım kimi təsəvvürü yarada bilər", - hesabatda deyilir.

Beləliklə, KİV intiharla bağlı xəbəri yayımlayarklən diqqətli olmalıdır. Verilişlərdə uşaq intiharının şişirdilməsi, valideynlərin göz yaşları, məktəb və ya müəllimlərin ünvanına tənqid - bütün bunlar yeniyetməni intihara sövq edə bilər.

### Yeniyetmə qızlar intihar haqda düşünür, oğlanlar isə bunu həyata keçirir...

**Psixologiya və Konsultasiya Mərkəzinin psixoloqu Elnur Rüstəmov isə hesab edir ki, yeniyetmə intiharlarında risk faktorlarını nəzərə almaq lazımdır. Psixoloq bu barədə öz bloqunda geniş təhlil materialı ilə çıxış edib. Onun fikrincə, risk faktorlarını müəyyənləşdirmək intiharın qarşısının alınması üçün əhəmiyyətli faktordur. Daha əvvəl intihar cəhdinin olması yeniyetmə intiharlarında vacib risk faktorları arasında hesab olunur. Lakin tamamlanmış intiharı olan yeniyetmələrin sadəcə 10-40%-i əvvəlcə intihar cəhdinin olması digər risk faktorlarını da dəyərləndirməyi təklif edir. Digər risk faktorları arasında psixopatoloji, ailə, bioloji və situativ faktorlar xüsusi əhəmiyyət daşıyır:** "Yeniyetmələr heç bir işarə olmadan intihar edirlər. İntihar edən hər 10 yeniyetmədən 9-u intihar etməzdən əvvəl müəyyən işarələr verir. Xəbərdarlıq siqnalları arasında depressiv vəziyyət, maddə istifadəsi, zövq aldıqlarına qarşı laqeydlik, diqqət defisiti, izoliyasiya, daxilə qapanma, ölüm düşüncəsi, yuxu problemləri və verbal işarələr (kaş ölsəydim...), qeydlər yazma və əşyalarını başqalarına vermə xüsusi yer tutur. Daha bir bölüm isə ondan ibarətdir ki, intihar haqqında danışan yeniyetmələr intihar cəhdi etməz və tamamlanmış intihar olmaz. Ən vacib xəbərdarlıq siqnallarından biri insanın davamlı ölüm haqqında danışmasıdır. Yeniyetmənin intiharla bağlı qorxutmaları birmənalı şəkildə ciddi qarşılanmalı və yardım üsulları axtarılmalıdır".

**Psixoloq hesab edir ki, intihar cəhdi olan yeniyetmələrin əksəriyyəti həqiqətən ölmək istəyir. Belə ki, onların böyük bir qismi psixoloji əzablarından qurtulmaq üçün ölümlə yaşamaq arasında tərəddüd yaşayırlar. Bu cür ambivalent duyğular haqqında danışmaq intihar cəhdini 80% azaldır:** "Məktəbdə oxuyan yeniyetmələrin 3/4-nün intiharla bağlı məlumatları olsaydı, dostlarına yardım edəcək ilk insan olardılar. Təlim proqramları yeniyetmələri risk altındakı dostlarını tanımalarına kömək etməklə yanaşı, lazım olduqda yardım almalarını da asanlaşdırar. Amerikada orta məktəbdə oxuyan 400 şagird üzərində aparılan tədqiqatda şagirdlərin təxminən yarısının intihar cəhdi olan dostundan xəbərdar olduğu aşkarlanmışdır.

Qız yeniyetmələr intihar haqqında daha çox düşünərkən və daha çox intihar cəhdi edərkən oğlan yeniyetmələrdə tamamlanmış intihar faizi qızlara nisbətdə daha çoxdur. Qızlarda tamamlanmış intiharların faiz göstəricisi aşağı olduğundan qızların intihar cəhdi ciddi qarşılanmamalıdır - tamamlanmış intiharlarda ən vacib göstəricilərdən biri əvvəlki intihar cəhdidir. Bunun üçün cinsiyyət ayrı-seçkiliyi edilmədən bütün intihar cəhdləri ciddi qarşılanmalıdır".

**Haşiyə: Azərbaycandakı orta məktəblərin əksəriyyətində formal olaraq psixoloq ştatı yaradılsa da, müvafiq kadrlarla təmin olunmayıblar. Halbuki hər məktəbdə psixoloqun olması çətin tərbiyə olunan, özünə qapanan, əhvalı tez-tez dəyişən uşaqlar, yeniyetmələr üçün evdən sonra "ikinci qapı" funksiyasını daşıya bilər.**

### Valideyndən narazı, özünə internetdə dünya quranlar...

İki gün öncə Türkiyə səfirliyi işçisinin yeniyetmə qızı binadan özünü ataraq intihar edəndə də ortaya çoxlu sayda suallar çıxdı. İlkin səbəb olaraq onun oxuduğu məktəbdə danlanması göstərildi. Amma müasir dönəmdə yeniyetmə valideynləri üçün də durumu təhlil etmək asan məsələ deyil. Çünki indi valideynlər günün böyük hissəsini işdə olurlar. Evə qayıdandan sonra isə uşaqları ilə maraqlanmağa bir-iki saat vaxtları qalır. Bu isə çox vaxt yetərli olmur. Psixoloqların müşahidəsinə görə, onların yanına gələn yeniyetmə pasientlər bir çox hallarda ailələrinin onları başa düşməməsindən şikayətlənir və öz dünyalarını telefon, kompüter, internetlə məhdudlaşdırırlar.

Bundan başqa, həmin yaşlarda olan uşaqlar bir çox hallarda valideynlərinə rəqib, bəzənsə düşmən gözü ilə baxırlar. Onlara elə gəlir ki, valideynlərinin onların dünyasından əsla xəbəri yoxdur və baş verənləri anlaya bilməz. Bu halda isə uşaqla valideyn arasında qarşısıalınmaz bir sədd yaranır və o, aradan götürülməsə, faciəvi sonluq qaçılmaz olur.

❑ **Sevinc TELMANQIZI**




**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Biləcəri qəsəbəsi Natiq Haşimi küçəsində 5 mərtəbəli daş binanın 2-ci mərtəbəsində 3 otaqlı mənzil satılır.**

**Qiyməti 85.000 AZN.**

**Əlaqə telefonu: 050 473-72-53**

YENİ MÜSAVAT
N 286 (6607) 23 dekabr 2016




Cümə söhbətləri

# Dünyaların sərhədində olan mənzil

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək İslam dini bəşəriyyəti bu dünya ilə tanış etdiyi kimi, bu dünyadan sonrakı həyatla da tanış edir. Axirət dünyasına keçid insanın qəbir həyatı ilə başlanır. Ona görə də, qəbir həyatında bizi nə gözləyir, hansı hallarda qəbir həyatı bizim üçün əziyyətə, hansı halda rahatlığa çevriləcəyini bilməliyik.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



### Namazda süst olanı gözləyən on beş cəza

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Hər kim namazında süstlük edər, Allah Təala onu on beş dərdə mübtəla edər ki, altı cəzası dünyada, üç cəzası ölüm ayağında, üç cəzası qəbirdə, üç cəzası Qiyamətdədir..."**

Namaz qılmamaq böyük bir xəta olmaqla yanaşı, insanın aqibəti baxımından bir müsibətdir. Elə insanlar da var ki, namaz qılır, amma güclə, boynunda qalmasın deyə qılır, namazlarını qəzaya verir, gün ərzində işi bəhanə edir, müxtəlif məsələləri bəhanə edir və namazlarına laqeyd yanaşır. Elə insanlar da olur ki, namazı fiziki anlamda yerindədir, amma namazlarına süst yanaşır, namazlarını əvvəl vaxtında qılmır, səhlənkar yanaşır, hüzurlu qəlb ilə qılmırlar.

Namazda süst olmağın bu anlamda müxtəlif forma və növləri var. Əziz Rəsulallah (s) bizləri namaza süst yanaşanların aqibətindən xəbərdar edir. Hərəmiz özümüzə bundan bir pay götürməliyik. Deməyək ki, bu deyilənlərin heç biri mənə aid deyil. Hərə öz səviyyəsində pay götürməlidir. Namaz qılmayan namaz qılmayan kimi faciəsini yaşamalıdır, namaz qılan diqqət etməlidir ki, namazla bağlı hər şeyi qaydasındadırmı? Bunun üçün də bizlər namazına qarşı süst və laqeyd olanların yaşayacağı aqibətlə tanış olmalıyıq. Namazda süstlük, səhlənkarlıq etmək, namaza hörmətsizlik etmək, ona düzgün yanaşmamaq insanı on beş bəlaya mübtəla edər. Onlardan altısı bu dünyaya aiddir, üçü ölüm ayağındadır, üçü qəbirdədir, üçü isə Qiyamətdədir.

### Bərəkətsizlik sindromu

Həzrət Rəsulallah (s) dünya cəzalarını çatdıraraq buyurur: **"Həyatında və ruzisində bərəkətsizlik əmələ gələr..."** Həyatı yaşayar, amma yaşadığı həyatının dadı, rəngi, mənası, şövqü olmaz. Bu dünya həyatını sürünə-sürünə yaşayar. Qazandığının, ruzisinin, əldə etdiklərinin bərəkəti olmaz. Bir adam namazında süstlük etsə, bu dünyada alacağı cəzalardan biri budur ki, həyatında və ruzisində bərəkət olmaz.

**"Üzündə salehlərin simasının itməsi..."** Üzündə nuraniyyət olmaz, üzündə salehlərin simasının itməsi baş verər. Bu məsələ, insanın zahiriyyətinə də öz təsirini qoyar.

**"Əməllərinin nəticəsiz qalması..."** Namazına süst, səhlənkar yanaşan insanın işləri, əməlləri nəticəsiz qalar. Belə insanın duaları qəbul olmaz. **"Yaxşıların duası onun halına şamil olmaz..."** Bu insan üçün yaxşıların etdiyi dualar qəbul olmaz, onun halına heç bir təsir bağışlamaz.

**"Duaları qəbul olmaz..."** Bəzən insan dualar edir, amma onun nəticəsini həyatında görmür. Gərək insan bunun səbəbini öz namazına münasibətdə, etdiyi səhv və xətalarda axtarsın.

### Zillət, aclıq, susuzluq...

Namazına süst yanaşan insanı ölüm anında üç cəza gözləyir: **"Zillətlə ölər, ac ölər, susuz can verər..."** Bu, namazına süst yanaşan insanın ölüm anında gözləyən cəzalardır. Belə insanı Allah Təala xar, zəlil olmuş halda, zillətlə öldürər.

Namazına süstlük edən insanı üç cəza da qəbirdə gözləyir. **"Allah Təala mələyi ölüm zamanı əzab verməyə məmur edər, qəbri qaranlıq olar, qəbri dar və sıxıntılı olar".** Belə insan Qiyamətdə də üç əzabı olar. **"Zəlil halda Qiyamət səhnəsinə gətirilər, hesabı çox ağır olar, Allaha Təalanın ona rəhmət nəzəri salınmaz".**

İnsan öz ibadətində süstlük, diqqətsizlik, etinasızlıq etdikdə, bu, həyatının hər bir səhifəsində öz əksini tapır. O cümlədən, digər dünyaya keçidi də ağrılı olur.

### Bəs qəbir sıxıntısından nicat tapan olacaqmı?

Həzrət İmam Sadiqdən (ə) soruşurlar: "Kimsə qəbir sıxıntısından qurtula biləcək?". Həzrət (ə) buyurur: **"Ondan (qəbir sıxıntısından) Allah pənah aparıram. Nə azdır o kəslər ki, qəbir əzabından nicat taparlar".** Belə başa düşülür ki, insanların kifayət qədəri o ağır müsibəti görəcəklər.

### Qəbir sıxıntısını artıran ciddi amil - xəbərçilik

Qəbir əzabına səbəb olan bir sıra amillər var. Müxtəlif buyuruş və rəvayətlərdə bu səbəblər açıqlanır. Qəbir əzabının artmasına səbəb olan amillərdən biri xəbərçilikdir. Xəbərçilik evləri yıxar, dostluqları aradan aparar, insanlararası münasibətləri korlayar, ailələri dağıdar, valideyin-övlad münasibətlərində soyuqluq yaradar, qonşuları küsdürər, yuva saldığı hər yerdə mehribanlıq və səfanı aradan aparar. Kim xəbərçilik etsə, qəbir əzabı və qəbir sıxıntısı çəkəcək, bu insanın çox şiddətli cəzası olacaq. Burada necə ki, insanların həyatında qaranlıq yaradır, qəbirdə qaranlığı çəkəcək. Ən böyük mənəvi xəstəliklərdən biri xəbərçilikdir. Görürük ki, insan bircə elə dilinə sahib çıxsa, necə də gözəl olar.

### Paklığa riayət etməmək qəbir əzabına səbəb olar

Çox maraqlıdır ki, qəbir əzabına səbəb olan amillərdən biri də paklığa, təharətə riayət etməməkdir. Bu da fövqəladə ciddi məsələdir. İnsanlar var ki, paklığına, təharətinə fikir vermir. Sovet dövründə belə insanlar olmayan şəraitdə təharət məsələlərinə riayət edirdi, bunu qoruyurdu. Əvvəla bu məsələ gigiyenik baxımından, sağlamlıq baxımından çox önəmlidir. Ümumiyyətlə, bir müsəlmanın paklığı sanki onun vizit kartıdır. Müsəlman, mömin sözlərinin yanında paklıq gələr. Əgər paklığa riayət etməsə, onu qəbir sıxıntısı gözləyir.

Adam əgər buna nail ola bilsə ki, hər zaman dəstəmazlı olsun, daha da gözəl olar. Vay o haldan ki, insanın nəinki dəstəmazı, təharəti, təmizliyi belə olmasın. Gərək insan bu məsələlərində diqqətli olsun.

### Ailədə kobudluq insanın qəbir həyatına təsir edər

Qəbir əzabına, sıxıntısına səbəb olan amillərdən biri də həyat yoldaşına sayğısız, məhəbbətsiz davranış göstərməkdir. Ən böyük faciələrdən biri budur ki, insan ailədə kobud, pis əxlaqlı olsun. Peyğəmbərin (s) səhabələrindən biri dünyasını dəyişir. Peyğəmbər (s) dəfn məsələlərində, digər məsələlərdə ürək yandırır, iştirak edir. Orada bir vəziyyət yaranır ki, Rəsulallahın (s) həmin kəsin qəbir sıxıntısı çəkməsindən nigaranlığı hasil olur. Soruşulur ki, siz bu qədər bu səhabə üçün can yandırdınız, iştirak etdiniz, bu kəsi necə qəbir əzabı gözləyə bilər?! Rəsulallah (s) bəyan edir ki, həmin kəs ailə üzvləri ilə bir qədər kobud davranıb, ailədə əxlaqı yaxşı olmayıb. Hətta Peyğəmbərimiz (s) də bu insan üçün çarə etməyə ələcsiz olub.

Gərək insan sağ olarkən bu məsələyə diqqətli olsun, həyat yoldaşı, övladları ilə mehriban davransın.

### Neməti zay etmək

Qəbir sıxıntısı artıran mühüm amillərdən biri də İlahi nemətləri zay etməkdir. İnsan nemətlərlə düzgün davranmalıdır. Sağlamlıq neməti, ev neməti, maşın neməti, pul neməti, dost neməti və s. nemətlərlə düzgün davranmayan insan qəbir sıxıntısı ilə qarşılaşacaq. Allah Təala bizlərə İslam kimi böyük bir nemət bəxş edib. İnsan oturub saymaq istəsə Allahın lütf etdiyi nemətləri, sayıb qurtara bilməz. Valideyin neməti, övlad neməti, düşünmə neməti, sevinə bilmək neməti, ürək neməti... Diqqətli olaq ki, bu nemətlərin nə qədərini zay etmişik.

Qəbir əzabına ən çox səbəb olan amillərdən biri də qeybət etməkdir. Dil insanı hansı bəlalalara apara bilər?! Qeybət etmək insan üçün böyük bir faciədir. Adam var ki, qeybət etməsə darıxar, qeybət edəndə enerji alar. Təbii ki, onun aldığı şeytani (lən) bir enerjidir. Bunun axırı da insanı qəbir əzabına aparar.

### Qəbir deyildikdə, fiziki qəbir nəzərdə tutulur?

Böyük mərcəyi-təqlid alimlərindən olan Ayətullah Cəfər Sübhani cənabları buyurur: **"Qəbrin gerçəkliyi həmin bərzəxdir. Bərzəxin də cənnət bağları və cəhənnəm odu var".** Belə aydın olur ki, qəbir elə insanın bərzəx aləmidir. Qəbirdən insanın cəza və ya mükafatları başlayır.

Əllamə Həsənzadə Amuli buyurur: **"O ki bir mömini də, bir kafiri də eyni qəbrə qoyurlar, amma o qəbir deyil ki, savab və əzab orada cəmləşsin. Eyni qəbrə mömini qoysalar, cənnətin bir bağında olacaq, eyni qəbrə kafiri qoyacaqsan, cəhənnəmin odunda olacaq. Diri adam o qəbrə girsə, heç nə hiss etməyəcək".** Buradan anlaşılır ki, qəbir fiziki anlamda insana sıxıntı verməz. Cəza və ya mükafat qəbirdə olan insanın durumuna aid olar. Mömini eyni qəbrə qoysalar, özünü cənnət bağında hiss edəcək. Əgər o qəbrə qoyulan kafirdirsə, həmin qəbirdə sıxıntı və əzab içində olur.

### Məsumlardan (ə) qəbir həyatı barədə buyuruşlar

Həzrət Rəsulallah (s) buyurur: **"Qəbir - axirətin ilk mənzilidir. Kim ondan salamat keçərsə, onun növbəti mənzilləri asan olar. Əgər salamat çıxmasa, sonrakı mənzillərin çətinliyi ondan az olmayacaq".** Gərək bu məsələlərə indidən hazırlaşaq. Sonra peşman olmaq üçün çox gec olacaq və geriyə qayıdıb düzəltmək imkanlarımız olmayacaq.

Həzrət Peyğəmbər (s) buyurur: **"Elə bir mənzərə görmədim ki, qəbirdən daha qorxulu olsun".** Bircə bu hədis barədə insan düşünsə, təfəkkür etsə, onun nə gözlədiyinin fərqinə varar və qəflətdən ayılar.

Həzrət Əli (ə) buyurur: **"Sizdən öncəkilərin gördüklərini görsəydiniz, hər an süst düşüb vəhşət içərisində olar, sözə baxan və itaətcil olardınız. Ancaq onların gördükləri sizə görünmür və pərdənin götürülməsi də yaxındır".** Əgər görə bilsəydik ki, bizdən öncə ölənlər nə vəziyyətdədirlər, biz bunun həyacanını yaşayardıq, vəziyyətimizi buna uyğun olaraq dəyişərdik.

İmam Baqir (ə) buyurur: **"Kim namazın rükusunu tam yerinə yetirsə, qəbirdə heç qorxu və vəhşət ona yaxın durmaz".** Çox maraqlı mövzudur. Bu buyuruşu iki cür şərh edirlər. Birincisi budur ki, namazı qılmaq, vacibatı yerinə yetirməyin özü, rükunu gözəl şəkildə əda etmək insanın qəbir əzabından qurtulmasına səbəb olar. Digər şərhlərdə isə rükunun tam bəyənilən şəkildə, bütün müstəhəbləri ilə yerinə yetirilməsindən söhbət getdiyi vurğulanır. Ancaq diqqətli olmalıyıq ki, namaza səhlənkar, süst yanaşmaq insanın qəbir əzabına düçar olmasına səbəb olar, namazda diqqətli olmaq, onu gözəl şəkildə həyata keçirmək isə əksinə - insana qəbir əzabından nicat verər.

### Allahım, aqibətlərimizi xeyirli et!

**Allahım, bizləri qəbir əzabından, qəbir sıxıntısından nicat tapanlardan qərar ver!**

**Allahım vücudumuzu günahlardan paklaşdırmağı bizlərə nəsib et!**

**Allahım, namazlarımıza qarşı məsuliyyətli, diqqətli olmağı bizlərə nəsib et! Amin!**

YENİ MÜSAVAT

# Son səhifə

N 286 (6607) 23 dekabr 2016



## Burnuna portağal qoxusu dəydi, 7 gün xəstəxanada müalicə aldı

Yeni il bayramında hazırlaşan ədvalı şirniyyat və içkilərin qoxusuna allergiyası olan 54 yaşındakı qadın darçın və portağal ucbatından ölümdən qayıdıb. İngiltərədə yaşayan Anne Murray adlı qadının bir bağça mərkəzindəki darçın və portağal qoxusunda sadəcə 10 dəqiqə qalması ona səhhətinin pisləşməsi üçün kifayət edib. Amma bağça mərkəzinə ilk girdiyi zaman qoxunu ayırd edə bilməyib və 10 dəqiqə sonra özünü pis hiss edib. Nəfəs yollarını açmaq üçün astma spreyindən istifadə edən qadın dərhal qoxu olan yerdən uzaqlaşıb. Amma evə gedəndə vəziyyəti daha da pisləşib. Qısa müddət ərzində nəfəs almaqda çətinlik çəkən qadın 2 gün sonra astma krizi ilə xəstəxanaya aparılıb. Astma krizi nəzarətdən çıxınca Annaya oksigen və 7 günlük steroid verilib: "Burnuma portağal qoxusu gələndə nəfəs ala bilmirəm. Astma kriziniz tutanda havanın içində havasız qalırsınız. Bağça mərkəzində pis hala qalanda yadıma anam düşdü. O da 35 yaşında astma krizinə görə dünyasını dəyişmişdi".

# Ailənin birinci övladı daha çox sevilirmiş...



Aparılan elmi araşdırmalar zamanı anaların 74, ataların isə 70 faizi övladlarından birinə başqalarından daha rəğbətli yanaşdıqlarını etiraf ediblər. Kaliforniya Universitetindən olan sosioloqların apardığı araşdırma göstərib ki, ailələrdə adətən ilk uşaq hamıdan daha çox "əziz-xələf" olur. Valideynlər konkret olaraq balalarından ən çox hansını istədiklərini açmasalar da, ortancıl və kiçik qardaş-bacılar böyük uşağa daha çox rəğbət olduğunu söyləyiblər. Onlar deyirlər ki, ailədə valideynlərin ilk övlada hüsn-rəğbəti qalanları ruhdan salır. Tədqiqatçılar bu nəticəyə gəliblər ki, ailələrin ilki olanlara inam və seçkinlik hissi verən, onların sadəcə olaraq birinci olmaları faktıdır. Bu araşdırma ailədə sonbeşiklərin sevimli olduqları və daha çox nəvaziş gördükləri barədə mifi alt-üst edib. Rəyi soruşulmuş 384 ailədə böyük uşaqlar valideynlərin onlara daha böyük qayğısını hiss etdiklərini deyiblər. Bu həm də onunla izah edilə bilər ki, ilk uşaqların məktəb imtahanları və idman yarışları valideynlər üçün də ilk sınaq kimi maraqlı olur.

# Yeni il bayramına görə uşaqlarına 300 hədiyyə aldı

28 yaşlı amerikalı qadın Emma Tappinq Yeni il münasibətilə uşaqlarına aldığı hədiyyələrin çoxluğuna görə tənqid atəşinə tutulub. 3 uşaq anası olan qadın gənc yaşında ana olub, günün yarısını işləyir, o biri yarısını isə uşaqlarına həsr edir. O, bayrama günlər qalsa da, uşaqlarına düz 300 hədiyyə alıb və onların şəklini çəkərək sosial şəbəkədə yerləşdirib. Elementar hesablama göstərir ki, hər uşağa 100 hədiyyə düşür. Amma bu fotoların yayılması ilə xüsusən də anaların onu tənqid etməsi bir olub. Qadınlar bildiriblər ki, Emma diqqət çəkmək üçün uşaqlarından istifadə edir və bu, dolayısı ilə uşaq istismarıdır. Ana bu hadisədən sonra çoxlu sayda qəzetə, telekanala müsahibə verib və deyib ki, uşaqlarına hədiyyə almaq onun haqqıdır, ildə bir dəfə bunu etməsi isə olduqca təbiidir: "Mən işləyən anayam. Uşaqların da ən çox hədiyyə və bayramla xoşbəxt olduğunu bilirəm. Onlara hədiyyə almaq ən təbii hadisədir. Kiminsə xoşuna gəlmirsə, məni izləməyə bilər. Amma bununla qəbahət etdiyimi düşünmürəm".





## Yayda doğulan uşaqlar daha sağlam olurlar

Yay fəslində dünyaya gələn uşaqlar daha sağlam olur. Bunu ingilis alimləri apardıqları araşdırmadan sonra bəyan ediblər. 500 mindən çox yeni doğulan körpə üzərində aparılan tədqiqat nəticəsində iyun-sentyabr dövründə doğulan uşaqların daha sağlam olduğu qənaətinə gəlinib. Buna səbəb ananın hamiləlik dövründə daha çox günəş şüası qəbul etməsidir. Ümumiyyətlə, uşaq orqanizmi mikroblarla yeni tanış olduqda orqanizm bu mikrobla mübarizə aparmaq üçün "xəstələnir" və hər xəstələnmə vaxtında müəyyən qədər immun antitellər qazanmış olur. Beləliklə, tez-tez xəstələnən uşaqların irəli yaşlarda immuniteti daha güclü olur. Odur ki, əziz valideynlər, övladınızın tez-tez xəstələnməsi onun gələcəkdə daha sağlam və dirəncli olacağından xəbər verir. Lakin uşaqlarda təbii immunitetin formalaşmasına bir sıra maneçiliklər törətmək olmaz.




QOÇ - Saat 14-ə qədər iştirakçısı olduğunuz proseslərdən baş çıxara bilsəniz, sonrakı müddətdə bir neçə sürprizlə rastlaşacaqsınız. Ətrafınızdakılara nəyə qadir olduğunuzu göstərin.

BUĞA - Təzadlı bir gün yaşayacaqsınız. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Bu səbəbdən bütün situasiyaları nəzarətdə saxlayın ki, daha çox mənfəətiniz olsun

ƏKİZLƏR - İşgüzar sövdələşmələr istiqamətində böyük perspektivlər əldə edə bilərsiniz. Bu baxımdan Göy qübbəsi sizə yardımçı olacaq. Amma əmin olmadığınız məsələ barədə vəd verməyin.

XƏRÇƏNG - Yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür. Odur ki, özünüzə qarşı rəğbət oyatmağa çalışın. Fəaliyyət və sövdələşmələr üçünsə o qədər də uğurlu vaxt deyil.

ŞİR - Neçə gündən bəri mövcud olan böhranlı vəziyyətiniz saat 13-dən etibarən qaydasına düşəcək. Sadəcə, prosesləri real qiymətləndirməyi bacarmalısınız. Nahardan sonra varlana bilərsiniz.

QIZ - Müəyyən məziyyətlərinə görə, gərgin təqvim hesab etmək olar. Belə ki, işlə bağlı müəyyən çətinliklərlə üzləşəcəksiniz. Rəhbərliklə, həmkarlarınızla hər hansı mübahisələrə son qoyun.

TƏRƏZİ - Əsas diqqətinizi sağlamlığınızla bağlı problemlərin həllinə yönəldin. Əks təqdirdə fəaliyyətinizdə passivlik müşahidə olunacaq. Nəzərə alın ki, axşam saatlarına qədər Ay da sizin bürcdədir.

ƏQRƏB - Ümumi çalarlarına görə uğurlu gündür. Qarşıdakı bir həftə ərzində görəcəyiniz vacib işləri indidən planlaşdırın. Axşam aldığınız bütün dəvətləri isə təxirə salın. Qidanıza fikir verin.

OXATAN - Ulduzların düzümü işinizin çox olacağından xəbər verir. Qarşınızda duran vəzifələrə məsuliyyətlə yanaşın. Nüfuzlu adamlarla görüşləriniz gələcək uğurlarınıza qapı açacaq.

OĞLAQ - Yeni təklifləri razılıqla qarşılamağınız şəxsi işlərinizdə nəzərəçarpacaq irəliləyişlərə səbəb ola bilər. İnsanlarla münasibətlərə yenidən baxın. Hövsələsiz olmayın.

SUTÖKƏN - Şəxsi problemlərinizin həlli üçün müəyyən vacib şəxslərlə görüşməyiniz məsləhətdir. Yeni təklif və rəylərə isə ciddi reaksiya verməyin. Saat 14-18 arası büdcəniz arta bilər.

BALIQLAR - Astroloji göstəricilər müəyyən gərginlikdən xəbər verir. Əlləxüsus da cəhdlərinizin boşa çıxma ehtimalı yüksəkdir. Odur ki, başınızı adi işlərlə qarışdırmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Panda "qar adam"a hücum etdi...



Kanadadakı Toronto zooparkında baş verən hadisə izləyənləri güldürüb. Belə ki, zooparkda qalan panda "qar adam"la dalaşıb, ona qalib gəlməyə çalışıb. "Qar adam" pandanın yaxınlığında olduğu üçün bu, onu hirsləndirib. Panda hesab edib ki, ağ rəngli heyvan onunla rəqabətə girib və yerini zəbt etməyə çalışır. Da Mao ləqəbli heyvanla bağlı videoyazı 20 dekabrda zoopark rəhbərliyi tərəfindən internetə yerləşdirilib. İki sutka ərzində rolika 62 min dəfə baxılıb. Kliplə bağlı izahat verən zoopark rəhbərliyi bildirib ki, bu, daha çox "qar adamı" məhv etmək cəhdini xatırladıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750